Təhsildə Keyfiyyət Təminatı Agentliyi

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)**

**İnstitusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2023-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. Məmmədov Ceyhun Valeh oğlu – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Elm və təhsil komitəsinin üzvü, i.ü.f.d.;

**Üzvlər:**

2. Musayeva Fərqanə Qəzənfər qızı – Azərbaycan Texniki Universiteti, İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, i.ü.f.d., dos.;
3. Mustafayev Təyyar Əli oğlu – Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya, Təlimlərin təşkili və koordinasiyası şöbəsinin müdiri, i.ü.f.d., dos.;
4. Rəsulova Mətanət Rəsul qızı – Bakı Dövlət Universiteti, Maliyyə və menecment kafedrası, i.ü.f.d., dos.;
5. Məmmədov Fariz Orucalı oğlu – Azərbaycan Texniki Universiteti, Beynəlxalq əlaqələr üzrə prorektor, i.ü.f.d.;
6. Qasımov Adil Əli oğlu – Milli Aviasiya Akademiyasının nəzdində Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası İnstitutunun icraçı direktoru;
7. Eldarova Həcər Elxan qızı – Azərbaycan Turizm və Menecment Universiteti, Tədris-metodiki şöbənin müdiri;
8. Həsənova Səmayə İbrət qızı – Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tarix və coğrafiya fakültəsinin dekan müavini, Azərbaycan coğrafiyası və CTT kafedrasının baş müəllimi;
9. Sadıqova Ülkər Fərhad qızı – Azərbaycan Turizm və Menecment Universiteti, Menecment kafedrasının baş müəllimi, i.ü.f.d.;
10. Məlik Samin Telman oğlu – ADA Universiteti, İnformasiya texnologiyaları və mühəndislik kafedrasının müəllimi, r.ü.f.d.;
11. Əliyeva Lalə Rəhman qızı – Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Riyaziyyat və mexanika institutunun böyük elmi işçisi, r.ü.f.d.;
12. Qrobbelaar Vonda Dorothea – Qərbi Kaspi Universiteti, Keyfiyyətin təminatı müdiri;
13. Eynəliyev Əli Murad oğlu – Bakı Slavyan Universiteti, Beynəlxalq münasibətlər və diplomatiya ixtisası üzrə 1-ci kurs magistr tələbəsi.

## Mündəricat


Giriş ........................................................ 4

Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar ........................ 4

Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri .......... 5

Qiymətləndirmənin icmalı ........................................ 5

1. STRATEJİ İNKİŞAF ........................................ 5

2. KEYFİYYƏT TƏMİNATI ........................................ 12

3. TƏLİM VƏ TƏDRİS ........................................ 21

4. ELMİ TƏDQİQAT ........................................ 64

5. İDARƏETMƏ SİSTEMİ ........................................ 79

6. İNFRASTRUKTUR ........................................ 96

7. BEYNƏLMİLƏLLƏŞMƏ ........................................ 101

Komissiyanın istiqamətlər üzrə təhlili ........................................ 116

Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri ........ 129

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi. 129

## Giriş

## Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | "Azərbaycan Dövlət İqtisad Universiteti" Publik Hüquqi Şəxs |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 07.06.2016 (5 il) |
| Təhsil müəssisəsinin rəhbəri | Ədalət Cəlal oğlu Muradov |
| Fakültələrin sayı | 13 |
| Kafedraların sayı | 17 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 22 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 20 (61)<br>MBA proqramı üzrə 1 ixtisaslaşma, 29 istiqamət |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 11<br>(iqtisadi – 8, texniki – 3) |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı: 19286**<br>Bakalavriat: 14588<br>Magistratura: 4477<br>Doktorantura: 171<br>Elmlər doktorluğu proqramı üzrə: 50 |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 764 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 333 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | unec@unec.edu.az / +994124371086 |
| Müəssisənin hüquqi ünvanı | Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 6 |
| Müəssisənin faktiki ünvanı | Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 6 |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri

## Qiymətləndirmənin icmalı

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) institusional akkreditasiya qiymətləndirilməsi Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) 2022-ci il 14 noyabr tarixli, F-181 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq aparılmışdır. Qiymətləndirmənin məqsədi təhsil müəssisəsinin davamlı olaraq təkmilləşdirilməsi və daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək, o cümlədən ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır.

UNEC-in institusional akkreditasiyası üzrə Akkreditasiya Komissiyası TKTA tərəfindən təsdiqlənmiş ekspert seçimi proseduruna uyğun olaraq seçilmişdir. 2022-ci il 19 oktyabr tarixindən etibarən 3 ay müddətində UNEC tərəfindən Özünütəhlil Hesabatı hazırlanmış və 2023-cü il 1 – 9 mart tarixlərində Akkreditasiya Komissiyası tərəfindən ali təhsil müəssisəsində (ATM) sahə baxışı həyata keçirilmişdir.

Yekun Hesabatda əks olunmuş bütün cədvəl və qrafiklər UNEC-in Özünütəhlil Hesabatına əlavə olaraq ATM tərəfindən təqdim olunmuş məlumatlar əsasında tərtib edilmişdir.

Akkreditasiya Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

### 1. STRATEJİ İNKİŞAF

#### *1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

#### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

“UNEC-100” İnkişaf Strategiyası (2019-2030) UNEC Elmi Şurasının 2018-ci il 6 dekabr tarixli, EŞ-162 saylı qərarı ilə qəbul edilmişdir və ATM-in uzunmüddətli strateji inkişaf sənədidir. Sənəd ATM-in mövcud vəziyyəti ilə uyğunluq təşkil edir və 2030-cu ilə qədərki dövr ərzində onun fəaliyyətinin əsas strateji istiqamətlərini müəyyən edir. “UNEC-100” İnkişaf Strategiyası (2019-2030) ali təhsil sahəsində mövcud vəziyyət, dünyanın qabaqcıl ali təhsil müəssisələrinin güclü tərəfləri, gələcəkdə proqnozlaşdırılan əsas qlobal və milli tendensiyalar, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, 3-cü nəsil universitetlərin əsas xüsusiyyətləri və UNEC-in SWOT təhlilinin nəticələri nəzərə alınaraq hazırlanmışdır.

Sənəd “Təqdimat”, “UNEC haqqında”, “Missiya, gələcəyə baxış və əsas dəyərlər”, “Strateji məqsədlər, hədəflər və fəaliyyətlər”, “Maliyyələşdirmə” və “Monitorinq və qiymətləndirmə” olmaqla 6 bölmədən ibarətdir.

“UNEC-100” İnkişaf Strategiyasında 2030-cu ilə qədər reallaşdırılması nəzərdə tutulan 7 strateji məqsəd və 31 strateji hədəf müəyyən olunmuşdur.

Eyni zamanda, sənəddə qeyd olunan hədəf və məqsədlərin həyata keçirilməsi üçün strateji fəaliyyət istiqamətləri də öz əksini tapmışdır. Sənədin icrası məqsədilə UNEC prorektorları arasında müvafiq iş bölgüsü aparılmış və görülən işlərin monitorinqi və hesabatlılığını təmin edəcək daxili mexanizm və prosedurlar müəyyən edilmişdir.

“UNEC-100” İnkişaf Strategiyası ATM-in fəaliyyət istiqamətlərini əhatə edir və struktur bölmə vahidləri üzrə icrası nəzərdə tutulan öhdəliklərin bölgüləri müvafiq olaraq müəyyən edilmişdir.

“UNEC-100” İnkişaf Strategiyası ATM-in strateji məqsədlərinə çatması üçün uyğun sənəd hesab edilə bilər.

### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

“UNEC-100” İnkişaf Strategiyasının “Missiya, gələcəyə baxış və əsas dəyərlər” bölməsində ATM-in müəyyən edilmiş missiyası onun əsas məqsəd və hədəflərinə uyğundur. UNEC-in missiyası: “Ölkəsi və insanlıq naminə universal dəyərlərə əsaslanaraq, yüksək keyfiyyətli tədqiqatlar aparmaq, təhsil vermək və sosial xidmətlər göstərmək”dir.

Təhlillər zamanı müəyyən edilmişdir ki, ATM-in fəaliyyət istiqamətindəki sahələr üzrə həyata keçirilən işlər, UNEC-in İnkişaf Strategiyasına uyğun olaraq yüksək keyfiyyətli təhsil, tədqiqat və sosial xidmətlər göstərən universitetə çevrilməsinə xidmət edir.

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

İlkin olaraq qeyd etmək lazımdır ki, “UNEC-100” İnkişaf Strategiyası Azərbaycan Respublikasının qəbul etdiyi bir sıra strateji inkişaf sənədləri, o cümlədən “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” və “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” ilə uyğunluq təşkil edir.

Eyni zamanda, ATM-in inkişaf strategiyasında “100 yaşında dünyanın ən yaxşı 500 universitetindən birinə çevrilmək” kimi əsas məqsədi var və bu məqsədə nail olmaq üçün yüksək keyfiyyətli kadr hazırlığını həyata keçirməli, məzunları əmək bazarında ciddi nüfuza sahib olmalı, tədqiqatları və sosial xidmətləri ilə iqtisadiyyatın və bütövlükdə cəmiyyətin inkişafına xüsusi töhfələr verməlidir. SİP-in müəyyən edilməsində sadalanan bu meyarlar nəzərə alınmış və əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğundur.

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

“UNEC-100” İnkişaf Strategiyasında 2030-cu ilə qədər reallaşdırılması nəzərdə tutulan 7 strateji məqsəd, 31 strateji hədəf müəyyən olunmuş və bütün strateji hədəflərin müvafiq olaraq strateji fəaliyyətləri (prioritet istiqamətləri) müəyyən edilmişdir. Müəyyən edilmiş strateji fəaliyyətlər ATM-in qarşısında qoyulan məqsəd və hədəflərə uyğundur.

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

"UNEC-100" İnkişaf Strategiyası adlı sənəddə 7 strateji məqsəd, bütün strateji məqsədləri özündə cəmləşdirən 31 strateji hədəf və hər bir hədəfin reallaşdırılması üçün strateji fəaliyyətlər müəyyən edilmişdir. Müəyyənləşdirilmiş strateji məqsədlər, ATM-in dünyanın qabaqcıl universitetlərindən biri olması üçün lazım olan əsas inkişaf istiqamətlərindəndir. ATM-in müəyyən edilmiş 7 strateji məqsədi aşağıdakılardır:

1. Yüksək keyfiyyətli ali təhsil ocağına çevrilmək;
2. Tədqiqat universitetinə çevrilmək;
3. Sahibkar universitetə çevrilmək;
4. Sosial xidmətlərdə aparıcı universitetə çevrilmək;
5. Beynəlmiləl universitetə çevrilmək;
6. Daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmaq;
7. Yüksək beynəlxalq reytinqli universitetə çevrilmək.

SİP-də müəyyən edilən prioritet istiqamətlər ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğundur.

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

ATM-in "İnstitusional akkreditasiya üzrə özünütəhlilin nəticələri haqqında hesabatında" əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması haqqında aşağıdakı nəticə öz əksini tapmışdır:

- "UNEC-100" İnkişaf Strategiyasının 2022-2023-cü illər üzrə təsdiq edilmiş icra göstəricilərində bu tədbirlər müəyyən edilmişdir. "UNEC-100" İnkişaf Strategiyasının icra göstəriciləri, həmin göstəricilər üzrə məsul şəxslər, icraçı strukturlar və səlahiyyət bölgüsü 2022-ci il 28 fevral tarixli 60/1/2022 saylı əmrlə təsdiq edilmişdir".

Özünütəhlilin nəticələri haqqında hesabatda da qeyd edildiyi kimi, ATM-in əsas strateji məqsəd və hədəfləri üzrə sadəcə qısamüddətli dövr ərzində (bir illik) görüləcək tədbirlər əks olunmuşdur. ATM tərəfindən orta və uzunmüddətli dövr ərzində (2024, 2025 və 2030-cu ilədək növbəti illərdə) görüləcək işlər barədə icra göstəriciləri təqdim olunmuş, lakin müvafiq dövr üçün tədbirlər planı təqdim edilməmişdir.

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

ATM-in "İnstitusional akkreditasiya üzrə özünütəhlilin nəticələri haqqında hesabatında" UNEC-in İnkişaf Strategiyasında müəyyən edilən strateji məqsəd və hədəflərin əsasən kəmiyyət və keyfiyyət göstəriciləri ilə ifadə edilə bilən olması, konkret, ölçülə bilən və nəticələri qiymətləndirməyə imkan verən olması qeyd olunur.

"UNEC-100" İnkişaf Strategiyası adlı sənədin təhlili nəticəsində və müvafiq struktur rəhbərləri ilə aparılan görüşlərdən belə qənaətə gəlmək olar ki, bəzi strateji fəaliyyətlərin ölçülməsi və nəticələrin qiymətləndirilməsi üçün konkret illər üzrə qiymətləndirilmələr

aparılmamış, əldə edilməsi və planlaşdırılması nəzərdə tutulan nəticələr rəqəmsəl olaraq qeyd edilməmiş, o cümlədən icra göstəricilərində qeyd edilən müəyyən fəaliyyətlər ilə İnkişaf Strategiyasında müəyyən olunmuş strateji faəliyyətlər arasında uyğunluq yetərli deyil. Misal üçün:

- Məqsəd 1, Hədəf 1.1 - Strateji fəaliyyət: Ölkədə orta təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət edən tədbirlərə dəstək verilməsi; icra göstəricilərində bu sahədə hər hansı bir fəaliyyət yoxdur.
- Məqsəd 1, Hədəf 1.1 - UNEC-in baza məktəblərinin sayının artırılması və şagirdlərdə ilkin iqtisadi biliklərin formalaşdırılması məqsədilə orta məktəblərə elmi-metodiki dəstəyin verilməsi; icra göstəricilərində bu sahədə hər hansı bir fəaliyyət yoxdur.
- Məqsəd 1, Hədəf 1.2 - İxtisasların siyahısının, tədris standartları, planları və proqramlarının mütərəqqi dünya təcrübəsi və əmək bazarının tələblərinə tamamilə uyğunlaşdırılması və s.

Bu səbəbdən, nəzərdə tutulan bəzi strateji fəaliyyətlərin inkişaf dinamikasının göstərilməsi çətinlik yaradır.

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

ATM-in özünütəhlil hesabatında göstərildiyi kimi və aparılan təhlil nəticəsində müəyyən olunmuşdur ki, fəaliyyətlərin icrası UNEC-in öz vəsaiti, əldə etdiyi qrantlar və sponsorların maliyyə dəstəyi ilə həyata keçirilir.

Strategiyada qeyd edilən istiqamətlər üzrə UNEC büdcəsindən illik fəaliyyət əsasında vəsaitlər ayrılır.

SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün təsdiq edilmiş icra göstəricilərinə əsasən insan resursları olaraq məsul struktur bölmələrin əməkdaşları, infrastruktur resursları olaraq isə daxili, xarici fiziki və informasiya infrastrukturu resursları nəzərdə tutulmuşdur.

### 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

SİP-in maliyyə təminatı ATM-də büdcə planlamasında illər üzrə planlaşdırılır.

Qeyd etmək lazımdır ki, universitetin illik xərclərinin 86 %-ni əmək haqqı ödənişləri təşkil edir, bu isə öz növbəsində SİP-in maliyyə təminatında müəyyən çətinlikər yaradır.

Hədəf 2.3-də “2030-cu ilə qədər sifarişlər və qrantlar əsasında yerinə yetirilən tədqiqat layihələrinin sayını hər il artırmaq və UNEC büdcəsinin 20%-nə çatdırmaq” müəyyən edilmişdir. ATM-in təqdim etdiyi “UNEC – 100” İnkişaf Strategiyasının icrasına dair hesabatda isə aşağıdakı uyğunsuzluq qeyd olunmuşdur: “Ümumilikdə bu istiqamətdə Strategiyada qoyulan hədəf, icra göstəriciləri və strateji fəaliyyətlər üzrə işlərdə dönüş edilməsinə ehtiyac vardır. Dövlət və özəl qurumlardan cəlb edilən qrant və sifarişli layihələrin sayı, beynəlxalq tərəfdaşlarla müştərək sifariş və qrant layihələrinin sayı və belə müraciətlərin sayında əhəmiyyətli artıma nail olunması zəruridir. Web of Science və Scopus bazalarında elmi

əsərlərin sayının sürətlə artması ilə bu tipli qrant layihələrinə müraciətlərin sayı arasında kəskin uyğunsuzluq vardır”.

Yuxarıda qeyd olunanlar əsasında aydın olur ki, SİP-in maliyyə təminatı ATM-də büdcə planlamasında nəzərə alınsa da, yeni gəlir mənbələrinin təmin edilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır.

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

“UNEC-100” İnkişaf Strategiyasının 4-cü strateji məqsədi və 3.2., 4.1., 4.2., 4.3., 4.4., 4.5. strateji hədəfləri bu məsələləri özündə ehtiva edir və universitet rəhbərliyi bu istiqamətlər üzrə strateji məqsədlər müəyyən etmiş, bu sahədə mütəmadi olaraq addımlar atır.

Sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması kimi hallar SİP-də öz əksini tapmışdır.

### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

ATM-in institusional akkreditasiya qiymətləndirilməsi zamanı Akkreditasiya Komissiyasına təqdim edilən 2022-ci ilin birinci yarısına aid hesabatdan (Hesabat) göründüyü kimi, ATM-in fəaliyyət sahələri üzrə qarşıya qoyulan vəzifələrin əvvəlki illərdə icra vəziyyəti nəzərə alınır, müqayisəli formada təhlil edilir və növbəti il üçün müvafiq olaraq planlama aparılır.

Hesabatdan göründüyü kimi, bəzi strateji fəaliyyətlərin icrasında gecikmələr, əldə edilməyən nəticələr mövcüddür və bu hallar aradan qaldırılmalıdır:

- Hədəf 2.2 - 2030-cu ilə qədər milli və beynəlxalq səviyyədə yüksək reytinq qazanmış ən azı bir “beyin mərkəzi” yaratmaq. *Hesabatda qeyd edilən: “Aidiyyəti prorektorun müvafiq hesabatı göstərir ki, hələ bu istiqamətdə konkret iş yoxdur. Sadəcə 107/1/2022 sayı, 25.04.2022 tarixli Əmrdə (bənd 2.2) müvafiq tapşırıq verilmişdir”.*
- Hədəf 2.6 - 2030-cu ilə qədər “Web of Science” və “Scopus” bazalarına daxil olan ən azı 3 elmi jurnala sahib olmaq. *Hesabatda qeyd edilən: “Aidiyyəti prorektorun hesbatından aydın olur ki, cari ilin ilk yarısında bu istiqamətdə hər hansı konkret iş və ya nəticə yoxdur. Sadəcə 107/1/2022 sayı, 25.04.2022 tarixli Əmrdə (bənd 3.1) müvafiq tapşırıq verilmişdir”.*
- Hədəf 3.1 - 2030-cu ilə qədər universitetdəki “start-up”ların sayının hər il artımına nail olmaq. *Hesabatda qeyd edilən: “Aidiyyəti prorektorun hesabatından aydın olur ki, cari ilin birinci yarısında bu hədəf üzrə hər hansı konkret iş və ya nəticə yoxdur”.*
- Hədəf 3.3 - 2030-cu ilə qədər UNEC və biznes dünyasının birgə reallaşdırdığı tədqiqat və innovasiya layihələrinin sayını hər il artırmaq. *Hesabatda qeyd edilən: “Aidiyyəti prorektorun hesabatından aydın olur ki, cari ilin birinci yarısında bu hədəf üzrə hər hansı konkret iş və ya nəticə yoxdur”.*
- Hədəf 4.1 - 2030-cu ilə qədər hər il milli səviyyəli ən az bir sosial məsuliyyətlilik layihəsini reallaşdırmaq. *Hesabatda qeyd edilən: “Aidiyyəti prorektorun hesabatından*

*aydın olur ki, cari ilin birinci yarısında bu hədəf üzrə hər hansı konkret iş və ya nəticə yoxdur".*

Qeyd etmək lazımdır ki, UNEC-in illər üzrə fəaliyyətlərinin təhlil nəticələri SİP hazırlanırkən nəzərə alınmış və ATM-in strateji məqsədləri üzrə inkişaf dinamikasını təmin edəcək mahiyyətdədir. Müvafiq sahələr üzrə icrası vaxtında təmin edilərsə ATM SİP-də nəzərə alınmış bütün məqsədləri həyata keçirə bilər.

#### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

"UNEC-100" İnkişaf Strategiyasında UNEC-in SWOT təhlili aparılmış, ATM-in güclü tərəfləri, zəif tərəfləri, imkanları, təhdidləri nəzərə alınmışdır və təhlil zamanı təyin olunmuş amillər ATM-in mövcud vəziyyətini əks etdirir.

#### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

ATM-in institusional akkreditasiya qiymətləndirilməsi zamanı aparılan görüşlər nəticəsində müəyyən edilmişdir ki, SİP-in hazırlanmasında UNEC Rektorluğu, UNEC kollektivi, UNEC tələbə təşkilatları, işəgötürənlərlə müzakirələr aparılmış və tərəflərin təklifləri, fikirləri nəzərə alınmışdır.

Ancaq bəzi struktur bölmə rəhbərləri ilə görüşlər zamanı müəyyən olunmuşdur ki, müəyyən struktur bölmələrin strateji məqsəd və hədəfləri mənimsəməməsi halları mövcuddur və SİP-in həyata keçirilməsi üçün müvafiq sahələr üzrə mövcud vəziyyətin təhlili, atılacaq addımların planlaşdırılması və bu kimi mövzular haqqında əlavə müzakirələrə ehtiyac vardır.

#### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

"UNEC-100" İnkişaf Strategiyasında müəyyən edilən məqsəd və hədəflərin reallaşdırılması istiqamətində UNEC prorektorları, onların kurasiyasında olan struktur bölmələr arasında iş bölgüsü aparılmış və strategiyanın icra göstəriciləri ilə birlikdə təsdiq edilmişdir. Struktur bölmələr öz fəaliyyət planlarını "UNEC-100" İnkişaf Strategiyası əsasında tərtib etmişdir.

### *1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi*

#### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

Özünütəhlil hesabatında qeyd edildiyi kimi, strategiyanın icrası üzrə hər il yarımillik və illik hesabatlar nəzərdə tutulmuşdur. 2022-ci ilin birinci yarısı üzrə hesabat hazırlanıb universitetin rektoruna təqdim edilmiş və müvafiq struktur bölmə rəhbərləri ilə müzakirə edilərək təhlil edilmişdir. Hesabatlar DocNet Elekton Sənəd Dövriyyəsi Sistemi üzərindən təqdim edilir və müvafiq struktur bölmələr üçün əlçatandır.

Ancaq ”UNEC – 100” İnkişaf Strategiyasının 2022-ci ilin ikinci yarısı üzrə icrasına dair hesabat təqdim edilməmiş və dolayısı ilə 2022-ci il üçün illik hesabat təqdim edilməmişdir. Hesabatın hazırlandığı şifahi bildirilmişdir. Sözügedən hesabat təqdim edilmədiyinə görə 2022-ci ilin birinci yarısı üzrə hesabatda göstərilən iradların nə dərəcə həll olunub-olunmadığı sual yaradır. Bu onu göstərir ki, SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırmada gecikmələr vardır.

Hətta, 2022-ci ilin birinci yarısı üzrə hesabata əsasən bəzi sahələr üzrə SİP-in icrasında hər hansı bir fəaliyyət həyata keçirilməmişdir. Nümunələr aşağıda təqdim olunur:

Nümünə 1: Hədəf 3.3 - 2030-cu ilə qədər UNEC və biznes dünyasının birgə reallaşdırdığı tədqiqat və innovasiya layihələrinin sayını hər il artırmaq.

*Aidiyyəti prorektorun hesabatından aydın olur ki, cari ilin birinci yarısında bu hədəf üzrə hər hansı konkret iş və ya nəticə yoxdur.*

Nümunə 2: Hədəf 4.1 - 2030-cu ilə qədər hər il milli səviyyəli ən az bir sosial məsuliyyətlilik layihəsini reallaşdırmaq.

*Müvafiq sahə üzrə prorektorun hesabatından aydın olur ki, cari ilin birinci yarısında bu hədəf üzrə hər hansı konkret iş və ya nəticə yoxdur.*

Ümumilikdə, SİP-də müəyyən edilmiş fəaliyyətlər istiqamətində işlərin intensivləşdirilməsinə ehtiyac vardır.

### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

Müvafiq prorektorun rəhbərliyi ilə ona tabe olan struktur bölmələr və aidiyyəti digər rəhbər şəxslərin iştirakı ilə SİP-in müzakirəsi həyata keçirilir.

Ancaq 2022-ci ilin birinci yarısı üzrə təqdim olunmuş hesabatda göstərilən iradların nə dərəcə həll olunub-olunmadığı haqqında hər hansı bir hesabat Akkreditasiya Komissiyasına ATM tərəfindən təqdim edilməmişdir.

### 1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

2022-ci ilin birinci yarısı üzrə hesabatdan məlum olur ki, SİP-in icrası üzrə görülən işlər müvafiq struktur bölmə vahidləri üzrə aparılır, müvafiq olaraq icra vəziyyəti ilə əlaqəli baza ili müəyyən edilir və müqayisəli formada monitorinqlər aparılır. SİP-in icra göstəricilərinin hər biri üzrə monitorinq tezlikləri müəyyən edilmişdir və bu aralıqla həyata keçirilir.

Ancaq, 2022-ci ilin ikinci yarımilinə aid hesabat təqdim edilməmişdir. Belə olduğu halda SİP-in icrasının dövri (illik) monitorinqinin aparılmasında gecikmələr baş verə bilər.

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi rektorun rəhbərliyi ilə keçirilən müvafiq görüşlərdə aparılır. 2022-ci il 15 iyul tarixli, D/Y-12324/2022 nömrəli “UNEC-100” İnkişaf Strategiyasının icrası haqqında ümumiləşdirilmiş hesabat adlı xidməti məlumat rektora təqdim edilmişdir.

Ancaq sözügedən hesabatda qeyd edilən irad və gecikmələrin aradan qaldırılması haqqında son 7 ay üzrə hər hansı bir hesabat komissiyaya təqdim edilməmişdir.

#### 1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

ATM-in özünütəhlil hesabatında qeyd edilir ki, "SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlər həyata keçirilir və nəticələr bütün kollektiv üçün açıqdır. Elmi Şurada müvafiq prorektorların fəaliyyət sahələri üzrə hesabatları dinlənilir və maraqlı tərəflər üçün əlçatanlıq universitetin rəsmi saytında paylaşılmaqla təmin edilir".

## 2. KEYFİYYƏT TƏMİNATI

### *2.1 Keyfiyyət təminatı siyasəti*

#### 2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

UNEC-in KİS/001 saylı Keyfiyyət Siyasəti sənədi 2012-ci il 16 mart tarixində qəbul edilmişdir.

Keyfiyyət Siyasəti sənədinə 2016-cı il 29 mart tarixində müəyyən düzəlişlər edilmişdir. 2016-cı ildən etibarən hər il üzrə KİS-in tətbiqi ilə əlaqədar daxili auditin keçirilməsi və yekun hesabatın hazırlanması məqsədilə rektorun daxili əmrləri mövcuddur.

Ancaq TS EN İSO 9001 "Keyfiyyət İdarəetmə Sistemi" beynəlxalq standartın tələblərinə riayət etmək və bu istiqamətdə icra edilən fəaliyyət haqqında illik hesabatlar barədə ATM-də hər hansı bir sənədə rast gəlinməmişdir. ATM-də TS EN İSO 9001 "Keyfiyyət İdarəetmə Sistemi"-nin tətbiqi, hesabatların hazırlanması və monitorinqin aparılması sahələrində müvafiq sənədləşdirmələr yetərli formada aparılmamışdır.

#### 2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

UNEC Keyfiyyət İdarəetmə Sisteminin davamlı təkmilləşdirilməsi və inkişaf etdirilməsi üçün fəaliyyətində aşağıdakı meyarları rəhbər tutur:

- Azərbaycan Respublikasının qanunlarına və TS EN İSO 9001 "Keyfiyyət İdarəetmə Sistemi" beynəlxalq standartın tələblərinə riayət etmək;
- Keyfiyyət İdarəetmə Sistemi üzrə hədəflər müəyyən etmək və bu hədəflərin həyata keçirilməsini təmin etmək, nəticələri qiymətləndirmək;
- İşçilərin peşəkarlıq səviyyəsinin artırılması üçün maarifləndirmə tədbirlərini həyata keçirmək;
- Keyfiyyət İdarəetmə Sisteminin tələblərinə uyğunluğunu qiymətləndirmək və effektivliyini artırmaq üçün monitorinqlər keçirmək və nəticələrini təhlil etmək;
- Bu siyasətlə həm işçilərin, həm də müştərilərin tanış olmasını təmin etmək;
- Keyfiyyət siyasətinin qüvvədə olmasını daim izləmək.

UNEC-in Keyfiyyət Siyasəti sənədi sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilmişdir.

### 2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

ATM-in özünütəhlil hesabatında qeyd edilmişdir ki, 2016-cı il 22 sentyabr tarixli, 5767/2016 nömrəli təqdimatın dərkənarına əsasən 2016-cı il 29 mart tarixində təsdiq edilmiş "Keyfiyyət Siyasəti" sənədi bütün struktur bölmələrlə paylaşılmış və keyfiyyət siyasəti barədə məlumatlı olmaları təmin edilir.

Verilən məlumata görə, ATM-in müxtəlif strukturlarından seçilmiş 53 əməkdaşına İSO 9001:2015 "Keyfiyyət İdarəetmə Sistemi" ilə bağlı Türk Standartları İnstitutu tərəfindən təlimlər keçirilmişdir. Bu təlimlərin nəticəsi olaraq həmin əməkdaşlara 2018-ci il 4 iyul tarixində sertifikatlar təqdim edilmişdir. Sertifikat almış əməkdaşlar qazandıqları bilik və bacarıqları digər əməkdaşlarla bölüşür və bu istiqamətdə görülməsi lazım olan işlərin planlaşdırılması aparılır.

Ancaq müvafiq struktur rəhbərləri ilə aparılan görüşlər nəticəsində məlum olmuşdur ki, ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi sahəsində görülən işlərin sürətləndirilməsinə ehtiyac vardır.

### 2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

2016-cı il 29 mart tarixində üzərində düzəlişlər edilmiş Keyfiyyət Siyasəti sənədində qeyd olunan 6 qabaqcıl vəzifə müəyyənləşdirərkən, yerli qanun və beynəlxalq standartlara uyğunluq, hədəflərin müəyyən edilməsi, hədəflərin həyata keçirilməsi və nəticənin qiymətləndirilməsi, əməkdaşların peşəkarlığının artırılması və bu istiqamətdə fəaliyyətlərin həyata keçirilməsi, KİS-in tələblərinə uyğunluq və effektivliyin artırılması üçün qiymətləndirmənin, monitorinqin keçirilməsi və nəticələrin təhlil edilməsi, KİS ilə müvafiq tərəflərin tanış olması və siyasətin izlənilməsi nəzərə alınmışdır.

UNEC Elmi Şurasının 2022-ci il 28 sentyabr tarixli 185 nömrəli qərarı ilə Keyfiyyət təminatı şöbəsinin Əsasnaməsi və müvafiq meyarları (işəgötürənlər, tələbələr, təhsil sistemi, fakültə, idarəetmə) özündə ehtiva edən Strateji İnkişaf Planı (2022-2026) təsdiq edilmişdir.

## *2.2 Daxili keyfiyyət təminatı mexanizmləri*

### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

UNEC-də 2014-cü ildən etibarən Tədrisin Keyfiyyətinin Qiymətləndirilməsi və İdarəedilməsi Mərkəzi fəaliyyət göstərir (30.09.2014, ƏMR № 121/3). 2021-ci ildə sözügedən struktur bölmə Tədris-Metodiki Mərkəzlə birləşdirilmiş, onların bazasında Tədrisin Metodiki və Keyfiyyət Təminatı Mərkəzi yaradılmışdır (23.11.2021, ƏMR № 757/3/2021). 2022-ci ildə Keyfiyyət təminatı şöbəsi Mərkəzin tərkibindən çıxarılmış, müstəqil struktur bölmə kimi fəaliyyət göstərməyə başlamışdır (23.06.2022, ƏMR № 431/3/2022). Hazırda müstəqil struktur vahid

kimi şöbə keyfiyyətin idarə edilməsinə cavabdeh olmaqla birbaşa ATM-in rəhbərinin tabeliyindədir. Mərkəzin tədrisin təşkilinin metodiki məsələləri ilə məşğul olmasını nəzərə alaraq, oxşarlığın aradan qaldırılması məqsədilə Mərkəzin adında keyfiyyət təminatı ifadəsinin çıxarılması tövsiyə olunur.

Qeyd edək ki, UNEC Elmi Şurasının qərarı ilə Keyfiyyət təminatı şöbəsinin Əsasnaməsi və Strateji Fəaliyyət Planı (2022-2026) təsdiq edilmişdir (28.09.2022, №185). Strateji Fəaliyyət Planında Keyfiyyət təminatı 5 meyar üzrə 20 indikatoru əhatə edir:

1. İşə götürənlər: Dövlət və özəl sektor, ictimaiyyət (4 indikator);
2. Tələbələr (6 indikator);
3. Təhsil sistemi (proqramları və kurrikulum) (4 indikator);
4. Fakültə (akademik heyət) (4 indikator);
5. İdarəetmə (inzibati menecment) (2 indikator).

Şöbədə keyfiyyat təminatı istiqaməti üzrə 4 il ərzində görüləcək işlər indikatorlar üzrə qruplaşdırılmışdır.

**2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması**

EN İSO 9001:2008 Keyfiyyətli İdarəetmə Sisteminə keçidlə əlaqədar olaraq UNEC-in bütün struktur bölmələrindən ibarət təşkilat komissiyası (09.03.2012, ƏMR №29/1) və "Qiymətləndirmə və keyfiyyətin yüksəldilməsi" üzrə daimi şura yaradılmışdır (01.11.2015; ƏMR№104/1/2015). Akkreditasiya zamanı özünütəhlil hesabatının hazırlanması, həmçinin İSO keyfiyyət təminatı auditi zamanı işlərin təşkili, universitetin ixtisaslar üzrə beynəlxalq akkreditasiyanın alınması üçün təşkilati işlərin görülməsi məqsədilə yuxarıda qeyd olunan iki mexanizmin birləşdirilərək vahid "Keyfiyyət Təminatı Komissiyasının" yaradılmasına dair UNEC rəhbərliyi qarşısında vəsatət qaldırılmışdır.

Qeyd etmək lazımdır ki, komissiyaya ATM-in profilinə uyğun professor-müəllim heyətindən nümayəndə, beynəlxalq akademik əməkdaşlıq təcrübəsinə, sosial tərəfdaşlar və işəgötürənlərlə əlaqələrə, eləcə də innovativ təhsil metodlarının tətbiqi səriştəsinə malik fəal tədqiqatçıların, tələbə nümayəndəsinin cəlb edilməsi nəzərdə tutulur.

**2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti**

Keyfiyyət təminatı şöbəsinin Strateji Fəaliyyət Planında (2022-2026) keyfiyyətin təminatı üzrə 29 məqsəd (5 meyar üzrə) müəyyən edilmişdir. Fəaliyyət Planında göstərilən məqsədlər SİP-də qarşıya qoyulan hədəflərə əsasən uyğundur.

**2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması**

UNEC-də 2014-cü ildən etibarən fəaliyyət göstərən Tədrisin Keyfiyyətinin Qiymətləndirilməsi və İdarəedilməsi Mərkəzi 2014-2022-ci illərdə keyfiyyət üzrə fəaliyyətlərin planlaşdırılması, icrası, icrasına nəzarətə məsuliyyət daşımışdır. Mərkəz tərəfindən baxılan illərdə sistemli sorğuların keçirilməsi, toplanılan məlumatlar əsasında illik hesabatların hazırlanması, hesabatlar əsasında təkmilləşdirmə tədbirlərinin müəyyənləşdirilməsi üzrə fəaliyyətlər icra edilmişdir. Mərkəz tərəfindən keçirilən dərslərin monitorinqləri həyata keçirilmiş, aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üzrə Tədbirlər Planı işlənilmişdir.

Keyfiyyət təminatı şöbəsinin Strateji Fəaliyyət Planında növbəti 4 il (2022-2026) ərzində keyfiyyət təminatı üzrə 29 məqsədə nail olmaq qarşıya hədəf qoyulmuşdur. Fəaliyyət Planında daxili keyfiyyət təminatı sisteminin planlama, tətbiqi, monitorinqi və yenidən tətbiqi üçün pilot fakültə ilə işlərin başlanması məqsədlərdən biri kimi müəyyən edilmişdir (Məqsəd 25).

Qeyd olunmalıdır ki, keyfiyyətin artırılması üzrə məqsədlərin müəyyən edilməsi nəticəyönümlü və ölçüləbilən tədbirlər planının hazırlanmasını, bütün fəaliyyətlər üzrə iş axınının dəqiq müəyyən edilməsini təmin edir. Qəbul edilmiş Fəaliyyət Planında (2022-2024) məqsədlərin bəziləri dəqiq ifadə edilməmişdir. Məsələn:

**Məqsəd 1-də** - ixtisaslar üzrə sənaye müəssisələri ilə 90% real əməkdaşlıq əlaqələrinin qurulması.

*Hansı sənayə müəssisələri və 90% real əməkdaşlıq dedikdə nə nəzərdə tutulur?*

**Məqsəd 14-də** - Xarici dilin tədrisində dünya təcrübəsinin tətbiqi.

*UNEC-də bakalavriat səviyyəsi üzrə tədris olunan “Xarici dildə işgüzar və akademik kommunikasiya (ingilis dili)” fənninin proqramları beynəlxalq dil sertifikat proqramlarının (IELTS və TOEFL) tələblərinə uyğunlaşdırılmış, bu sertifikatların tədris planına daxil olan fənlərlə əvəzlənmə prosesi həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, fənn üzrə biliyin qiymətləndirməsində müxtəlif bacarıqları (danışıq, yazı, dinləmə, qrammatika, oxu) ehtiva edən “kombinə olunmuş üsul” tətbiq edilir. Növbəti 4 il ərzində xarici dilin tədrisində hansı beynəlxalq təcrübənin tətbiq ediləcəyi aydın deyil.*

**Məqsəd 16-da** - İxtisaslar üzrə ikili diplom proqramlarının sayının 70%-ə çatdırılması.

*Hazırda UNEC-də bakalavriat səviyyəsində Moskva Dövlət Humanitar İqtisad Universiteti (Rusiya Federasiyası), Mykolas Romeris Universiteti (Litva), Lincoln Universiteti (ABŞ), bakalavriat və magistratura səviyyəsində Monpelye Universiteti (Fransa), ICD Beynəlxalq Biznes Məktəbi (ABŞ) ikilili diplom müqavilələri icra edilir. UNEC-in İnkişaf Strategiyasında beynəlxalq ikili diplom proqramlarının sayının 10-a çatdırılması strateji hədəf kimi müəyyən edilmişdir (Strateji hədəf 5.3). Keyfiyyət təminatı şöbəsinin Strateji Fəaliyyət Planındakı bu məqsəd ilə UNEC-in Strateji İnkişaf Planındakı hədəf arasında ziddiyyət var, fəaliyyət planı SİP hədəflərinə uyğunlaşdırılmalıdır.*

Bütövlükdə, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün Keyfiyyət Şöbəsinin 2022-2026-cı illəri əhatə edən Strateji Fəaliyyət Planının təkmilləşdirilməsi və işinin səmərəli təşkili məqsədilə tədbirlər planlarının hazırlanması tövsiyə olunur.

**2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması**

Keyfiyyət təminatı şöbəsinin Strateji Fəaliyyət Planında (2022-2026) şöbə əməkdaşlarının vəzifə səlahiyyətləri müəyyən edilmişdir. Qeyd olunmalıdır ki, şöbə əməkdaşları arasında iş bölgüsü meyarlar üzrə formalaşdırılmışdır.

**2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti**

Təsdiq edilmiş Fəaliyyət Planında göstərilən 5 meyar və 20 indikator bütövlükdə iş dünyasının ehtiyaclarının qarşılanmasını, işəgötürənlərlə əməkdaşlığı, təhsil proqramlarını, təhsilalanlar, akademik və inzibati həyətin əhatəliliyini təmin edir.

**2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması**

Tədrisin keyfiyyətinin yüksəldilməsi üzrə Tədbirlər Planı işlənib hazırlanmış, keyfiyyət təminatı sisteminin formalaşdırılması istiqamətində normativ hüquqi baza yaradılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Keyfiyyət təminatı siyasətini formalaşdıran normativ hüquqi sənədləri özündə ehtiva edən və hər kəs üçün əlçatan olan keyfiyyət təminatı üzrə təlimat kitabı hazırlanmamışdır (qaydalar toplusu). Onu da qeyd etmək lazımdır ki, bu təlimat kitabının hazırlanması Fəaliyyət Planında məqsədlərdən biri kimi müəyyən edilib.

**2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi**

Mövcud struktur bölmələrdən (fakültələr, şöbələr, mərkəzlər və s.) yerinə yetirilmiş və hazırda icra olunan fəaliyyətlərin dəqiq təsviri verilən aralıq və illik hesabatlar mövcuddur.

**2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti**

UNEC-də tədris prosesinin kəmiyyət və keyfiyyət təhlilini, keyfiyyətin monitorinq hesabatlarını, təhsilin və elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsi üzrə təklifləri özündə etiva edən illik fəaliyyət hesabatları hazırlanır və Elmi Şurada müzakirəsi təşkil edilir.

**2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti**

2014/15-ci tədris ilində keçirilmiş akkreditasiya zamanı 16 istiqamət üzrə irad və tövsiyə

bildirilmiş, onların aradan qaldırılması və nəzərə alınması ilə əlaqədar işlər aparılmış, onların icra vəziyyəti barədə 2017-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinə məlumat ünvanlanmışdır (10.04.2017; çıxış № 010-011-415/02/2017 məktub).

### 2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti

Maraqlı tərəflərin məmnunluq səviyyəsinin öyrənmək məqsədilə əmək bazarında, təhsilalanlar, məzunlar, akademik heyət, inzibati və tədris köməkçi heyəti arasında müxtəlif sorğular keçirilmişdir. Təhsilalanlar və məzunlar arasında keçirilən sorğuların əsas məqsədi UNEC-in ümumi fəaliyyətini qiymətləndirmək, fənlər üzrə və karyera xidmətinin təşkilindən məmnunluq səviyyəsini, qazanılmış kompetensiyaların əmək bazarının tələblərinə uyğunluğu öyrənmək olmuşdur. Bundan əlavə UNEC-in peşəkar inkişafın dəstəklənməsi fəaliyyətindən məmnunluq səviyyəsini qiymətləndirmək üçün akademik və inzibati heyət arasında sorğular keçirilmişdir. Sorğu nəticələri təhlil olunmuş, hesabatlılıq və hesabatların əlçatanlığı təmin edilmiş, Elmi Şurada müzakirələri təşkil olunmuşdur.

## *2.3 Keyfiyyət təminatı mədəniyyəti*

### 2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

2.3.1 indikatoru üzrə tələb edilən şərtlər üzrə aparılan işlər ATM-in özünütəhlil hesabatında öz əksini tapmış və bu istiqamətdə həyata keçirilən fəaliyyətlər aşağıdakı kimi qeyd olunmuşdur:

- 2012-ci il 9 mart tarixli, 29/1 nömrəli əmrlə Keyfiyyət İdarəetmə Sisteminə (KİS) keçidlə əlaqədar Təşkilat Komissiyası yaradılmış və müvafiq dəyişikliklərlə indiyə kimi komissiya öz işini davam etdirir;
- 2016-cı ildən hər il üzrə KİS-in tətbiqi ilə əlaqədar daxili auditin keçirilməsi və yekun hesabatın hazırlanması məqsədilə rektorun əmri olur. Əmr, audit qrafiki, auditorların şöbələr üzrə bölgü qrafiki, audit iştirakçılarının qeydiyyatı və audit sorğu cədvəli əsasında daxili audit keçirilir və yekunda KİS üzrə rəhbərlik təmsilçisinə hesabat təqdim olunur;
- 2021-ci il 23 noyabr tarixli, 757/3/2021 nömrəli əmrlə Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzində Müəllim təlim bölməsi yaradılmışdır. UNEC Elmi Şurasının 2022-ci il 31 may tarixli, EŞ-183 nömrəli qərarı ilə adı dəyişdirilərək UNEC Akademik İnkişaf bölməsi adlandırılmışdır;
- AR TN-dən daxil olmuş 2016-cı il 21 sentyabr tarixli, 02-11-6577/17 saylı məktub əsasında 2016-cı il 11 oktyabr tarixli, 160/1/2016 saylı əmrlə AR TN tərəfindən həyata

keçirilən Tvinniq layihəsi çərçivəsində Keyfiyyət təminatı üzrə Avropa ali təhsil standartları əsasında pilot qiymətləndirilmənin həyata keçirilməsi məqsədi ilə işçi qrup yaradılmışdır;

- 2019-cu il 23 yanvar tarixli tarixli, 20/1/2019 saylı əmrlə Tədris materiallarının keyfiyyətinin yüksəldilməsi və müasir standartlara uyğun hazırlanması məqsədilə işçi qrup yaradılmışdır;
- 2015-ci il 1 may tarixindən UNEC-də DocNet Elektron Sənəd Dövriyyəsi Sisteminin tətbiq edilməsi ilə struktur bölmələr arasında daxili yazışmalarda səmərəli kommunikasiya şəbəkəsinin qurulması təmin edilir.

Yuxarıda qeyd olunan fəaliyyətlər, ATM rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlandırılması, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması sahəsində işlərin görüldüyünü göstərir.

### 2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

ATM rəhbərliyi keyfiyyət təminatı sahəsində əks-əlaqənin qurulması, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması sahəsində bir sıra müvafiq addımlar atmışdır. Bunlar aşağıdakılardır:

- 2016-cı ildən başlayaraq hər tədris ili üçün keyfiyyət elçilərinin tərkibi ATM rəhbərliyi tərəfindən təsdiq edilmişdir (21.10.2016-cı il tarixli, 171/1/2016 saylı əmrlə 2016/2017-ci tədris ilində; 18.10.2017-cı il tarixli, 187/1/2017 saylı əmrlə 2017/2018-ci tədris ilində; 26.09.2018-ci il tarixli, 185/1/2018 saylı əmrlə 2018/2019-cu tədris ilində; 08.10.2019-cu il tarixli, 193/1/2019 saylı əmrlə 2019/2020-ci tədris ilində; 08.10.2019-cu il tarixli, 193/1/2019 saylı əmrlə 2020/2021-ci tədris ilində);
- 2016-cı il 21 oktyabr tarixli, 171/1 saylı əmrlə müəyyən edilmiş UNEC keyfiyyət elçiləri fakültələr üzrə 2016-cı il 3 noyabr tarixindən fəaliyyətə başlamış və müvafiq indikatorlar əsasında keyfiyyətin müşahidəsi və keyfiyyət mədəniyyətinin inkişafına dəstək olmuşlar;
- ATM-də tədris sistemindən keyfiyyətin təmin edilməsi məqsədi ilə EDUMAN elekron idarəetmə sistemi yaradılmışdır. EDUMAN sistemi vasitəsilə professor-müəllim heyəti tərəfindən tədris materiallarının yüklənməsi, tələbə biliyinin qiymətləndirilməsi, “tələbə məmnunluq anketlərinin” mövcudluğu və imtahan nəticələrindən sonra elektron qaydada apelyasiyaya müraciət etmək imkanlarının olması ATM-də Keyfiyyət təminatı sahəsində əks-əlaqəyə, keyfiyyət müşahidəsi və mədəniyyətinin davamlı inkişafının izlənilməsinə və araşdırılmasına yetərli imkan yaradır;
- 2019-cu ilin aprel ayından ATM-də “Bir pəncərə” (BP) xidməti tələbələrin istifadəsinə təqdim edilmişdir. BP sistemi vasitəsi ilə tələbə müvafiq təhsil sənədlərinin hazırlanması üçün şəxsi kabinetindən 7/24 xidmətə müraciət edə bilir. Hazırlanmış sənəd, imza və möhürlə təsdiq olunmuş, QR kodla PDF formatında tələbənin

elektron ünvanına göndərilir. Tələbələr BP sistemi vasitəsilə irad və təkliflərini də müvafiq məsul bölmələrə göndərə bilir və bütün müraciətlər aidiyyəti üzrə cavabdeh şəxslər tərəfindən cavablandırılır. Eyni zamanda, UNEC-in sosial media imkanlarından istifadə etməklə də tələbələrin aidiyyəti üzrə müraciət etmək imkanları vardır;

- ATM-də hər il KİS ilə bağlı auditlər keçirilir və yekunda "Vəzifə təlimatları üzrə bölgülərin aparılması", "Məqsəd və hədəflər, onların izlənilməsi" və s. bu kimi meyarları özündə əks etdirən hesabatlar təqdim edilir.

Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması istiqamətində ATM-də aparılan işlər yetərlidir.

### 2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

UNEC rəhbərliyinin keyfiyyətin təmin olunmasında töhfələri, institusional dayanıqlılıq istiqamətində gördüyü işlər və fəaliyyətlər aşağıda qeyd edilmişdir:

- ATM-də keyfiyyətin yüksəldilməsi məqsədi ilə 2015-ci il 10 noyabr tarixli, 104/1/2015 saylı əmrlə UNEC-də "Özünüqiymətləndirmə və Keyfiyyətin Yüksəldilməsi" üzrə sədri rektor olmaqla daimi Şura yaradılmış;
- 2018/2019-cu tədris ilində UNEC-də bütün fakültələr üzrə təhsilin 1-ci il tələbələri ilə rektorun iştirakı ilə görüşlər təşkil edilmiş;
- 2018-ci il 22 yanvar tarixində UNEC rektoru keyfiyyət elçiləri ilə görüş keçirilmişdir. Görüşdə ATM-də tədrisin keyfiyyətin yüksəldilməsinin təmin edilməsi, mütamadi olaraq qiymətləndirilməsi və işlərin daha da təkmilləşdirilməsi üçün keyfiyyət elçiləri mexanizminin institutlaşmasının vacibliyi vurğulanmışdır (https://unec.edu.az/unec-in-keyfiyyet-elcileri-ile-gorus/);
- UNEC Elmi Şurasının 2018-ci il 27 fevral tarixli, № EŞ-57 nömrəli qərarı ilə UNEC Keyfiyyət Elçiləri İnstitutunun (ictimai təşkilat) Əsasnaməsi təsdiq edilmiş;
- 2019-2021-ci illər üzrə tədrisin keyfiyyət təminatı ilə əlaqədar UNEC-də 16 tədbir üzrə yerli və beynəlxalq təlimçilər tərəfindən 100-dən çox təlim keçirilmiş;
- 2020-2021-ci tədris ilində 79 yeni fənn üzrə beynəlxalq təlimçilər tərəfindən keçirilmiş təlimlərdə 576 nəfər iştirakçı olmuş;
- Yeni təhsil proqramlarına keçidlə əlaqədar tədris ediləcək yeni fənlər üzrə təlimlərdə 337 nəfər iştirakçı sertifikat qazanmış;
- 2016, 2017, 2018 və 2019-cu illərdə professor-müəllim heyətinin peşə bacarıqlarını inkişaf etdirmək, onların akademik həyata inteqrasiyasını sürətləndirmək, müasir tədris bacarıqlarını daha da təkmilləşdirmək, elmi və pedaqoji potensialını yüksəltmək və bu sahədə xarici təcrübəni öyrənmək məqsədi ilə UNEC-in Quba Tədris, İdman və İstirahət Mərkəzində Qış məktəbləri təşkil edilmiş;

- 2016/2017-2021/2022-ci tədris illərində professor-müəllim heyəti üzrə 85 nəfərin, digər əməkdaşlar üzrə isə 61 nəfərin beynəlxalq təcrübə mübadiləsində iştirak etməsi təmin edilmiş;
- Nüfuzlu xarici universitetlərdə 1 il müddətinədək tədqiqat aparmaq üçün dəvət almış UNEC-in professor-müəllim heyətinin xaricdə tədqiqat apardığı müddətdə UNEC-dəki əməkhaqlarının saxlanılması ilə bağlı UNEC Elmi Şurasının 2019-cu il 28 fevral tarixli, 164 nömrəli qərarı verilmiş;
- UNEC Elmi Şurasının 2022-ci il 31 may tarixli, № EŞ-183 nömrəli Qərarı ilə "İlin gənc müəllimi" mükafatı təsis edilmiş;
- 2022-ci il 23 iyun tarixli, 431/3/2022 saylı əmrin 6-cı bəndinə əsasən Keyfiyyət təminatı şöbəsi 2019-cu il 27 dekabr tarixli, 259/1/2019 saylı əmrin 6-cı bəndinə əlavə olaraq rektorun tabeliyində hesab olunmuş;
- 2019-cu il 23 yanvar tarixli, 20/1/2019 saylı əmrlə yaradılmış işçi qrup tərəfindən 2019-cu il 24 – 26 may tarixlərində UNEC-in Quba Tədris, İdman və İstirahət Mərkəzində "Tədris və attestasiya materiallarının tərtibində müasir yanaşmalar" mövzusunda kafedralar üzrə 60 nəfər əməkdaşa təlim keçirilmişdir. Təlimdə kafedralarda tədris materiallarının təkmilləşdirilməsi ilə bağlı müzakirələr aparılmışdır.

Yuxarıda sadalanan fəaliyyətlərdən belə nəticə çıxarmaq mümkündür ki, institusional dayanıqlılıq və müvafiq sahələr üzrə heyətin özünüinkişafı istiqamətində UNEC rəhbərliyi tərəfindən müvafiq işlər görülür. Sözügedən fəaliyyətlər "UNEC-100" İnkişaf Strategiyasında müəyyən edilən məqsəd və hədəflərin reallaşdırılmasında xüsusi əhəmiyyətə malikdirlər.

### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

UNEC-də strukturlararası fəaliyyətinin koordinasiyası müasir tələblərə cavab verən DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə həyata keçirilir və ATM-də bütün daxili yazışmalar elektronlaşdırılmışdır.

DocNet Elektron Sənəd Dövriyyəsi Sistemindən istifadə zamanı strukturlar arasında daxili yazışmalarda sənəd layihəsi yaradılır, rəy verilməsi və baxılması üçün müvafiq səlahiyyətli şəxs seçilir, müvafiq qaydada imza, viza marşrutları müəyyən edilir və iyerarxiyaya əməl olunaraq UNEC daxili qaydalarına uyğun həyata keçirilir.

DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə həyata keçirilən daxili yazışmaların tezliyi, təhlükəsizliyi və istifadə rahatlığı müasir tələblərə cavab verir.

DocNet Elektron Sənəd Dövriyyəsi Sistemindən istifadə imkanlarının olması ATM-də keyfiyyətin təmin olunmasında strukturlararası fəaliyyətin koordinasiyasını təmin edir.

## 3. TƏLİM VƏ TƏDRİS

### *3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

#### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

UNEC-də tələbə qəbulu üzrə sifarişlərin işlənib hazırlanması və təsdiqi addım-addım prosedur "Yol xəritəsi" vasitəsilə aydın şəkildə müəyyən edilmişdir. Həm universitet, həm də şöbələr səviyyəsində təhlillər aparılaraq Elm və Təhsil Nazirliyinə proqnoz məktubu göndərilir və ümumilikdə bu proses sentyabr-noyabr aylarını əhatə edir.

UNEC-in rəsmi internet saytında kadr hazırlığı aparılan "Təhsil proqramları" və onlara müvafiq olaraq "Tədris kataloqu" haqqında məlumatlara geniş yer verilmişdir ki, bu da maraqlı tərəfləri (abituriyentlər, tələbələr, işəgötürənlər və s.) məzunların ixtisaslar üzrə əldə etdiyi bilik və bacarıqlar, həmçinin təlim nəticələri barədə məlumatlandırır.

UNEC-də müxtəlif səviyyələrdə kadr hazırlığı aparılması üçün kadr, informasiya, maliyyə və infrastruktur resurslarının əlçatanlığı təmin edilir.

2016-2022-ci illərdə bakalavriatura pilləsi üzrə tələbə qəbulu planının dolma faizi orta hesabla 92,12-98,29; magistratura pilləsi üzrə 77,25-98,83; MBA proqramları üzrə 65,09-99,01 təşkil edərək əsasən yüksək olmuşdur.

***Cədvəl 1. Tədris illəri üzrə təhsilalanların qəbul göstəriciləri***

(bakalavriatura üzrə)

| Tədris ili | Qəbul planı (nəfər) | Faktiki qəbul (nəfər) | Qəbul planının dolma faizi (%) |
|---|---|---|---|
| **2016-2017** | 3365 | 3264 | 97,00 |
| **2017-2018** | 3415 | 3301 | 96,66 |
| **2018-2019** | 3568 | 3287 | 92,12 |
| **2019-2020** | 3378 | 3274 | 96,92 |
| **2020-2021** | 3398 | 3299 | 97,09 |
| **2021-2022** | 3430 | 3306 | 96,38 |
| **2022-2023** | 3450 | 3391 | 98,29 |
| **Orta hesabla** | **3429** | **3303** | **96,35** |

(magistratura üzrə)

| Tədris ili | Qəbul planı (nəfər) | Faktiki qəbul (nəfər) | Qəbul planının dolma faizi (%) |
|---|---|---|---|
| **2016-2017** | 677 | 523 | 77,25 |
| **2017-2018** | 669 | 656 | 98,06 |
| **2018-2019** | 735 | 661 | 89,93 |
| **2019-2020** | 704 | 648 | 92,05 |
| **2020-2021** | 723 | 711 | 98,34 |
| **2021-2022** | 854 | 844 | 98,83 |

| | | | |
|---|---|---|---|
| **2022-2023** | 929 | 905 | 97,42 |
| **Orta hesabla** | **756** | **707** | **93,13** |

(MBA proqramı üzrə)

| Tədris ili | Qəbul planı (nəfər) | Faktiki qəbul (nəfər) | Qəbul planının dolma faizi (%) |
|---|---|---|---|
| **2016-2017** | 1802 | 1173 | 65,09 |
| **2017-2018** | 1489 | 1448 | 97,25 |
| **2018-2019** | 1555 | 1460 | 93,89 |
| **2019-2020** | 1589 | 1527 | 96,10 |
| **2020-2021** | 1723 | 1706 | 99,01 |
| **2021-2022** | 1959 | 1934 | 98,72 |
| **2022-2023** | 2399 | 2201 | 91,75 |
| **Orta hesabla** | **1788** | **1636** | **91,69** |

(doktorantura (dissertantura) üzrə)

| Tədris ili | Qəbul planı (nəfər) | Faktiki qəbul (nəfər) | Qəbul planının dolma faizi (%) |
|---|---|---|---|
| **2016-2017** | 46 | 35 | 76,09 |
| **2017-2018** | 62 | 42 | 67,74 |
| **2018-2019** | 58 | 42 | 72,41 |
| **2019-2020** | 73 | 59 | 80,82 |
| **2020-2021** | 78 | 48 | 61,54 |
| **2021-2022** | 69 | 21 | 30,43 |
| **2022-2023** | 72 | 41 | 56,94 |
| **Orta hesabla** | **65** | **41** | **63,71** |

ATM-də tələbə qəbulunun illər üzrə (2016-2022) plana uyğun dolma faizinin bakalavriatura üzrə orta hesabla 96,35; magistratura üzrə 93,12; MBA proqramı üzrə 91,69 olmaqla yüksək olduğu halda, doktorantura (dissertantura) üzrə isə 63,71 olmaqla, xüsusilə son 3 tədris ili üzrə 3 ixtisasda (3302.01 Qida məhsulları texnologiyası, 3302.02 Maşınlar, avadanlıqlar və proseslər, 5307.01 İqtisadi nəzəriyyə ixtisasları) aşağı olduğu müəyyən edilmişdir:

| İxtisas | Tədris ili | Qəbul planı (nəfər) | Faktiki qəbul (nəfər) | Qəbul planının dolma faizi (%) |
|---|---|---|---|---|
| 3302.01 Qida məhsulları texnologiyası | **2020-2021** | 4 | 1 | 25,00 |
| | **2021-2022** | 3 | 0 | 00,00 |
| | **2022-2023** | 2 | 0 | 00,00 |
| 3302.02 Maşınlar, avadanlıqlar və proseslər | **2020-2021** | 4 | 1 | 25,00 |
| | **2021-2022** | 3 | 1 | 33,33 |
| | **2022-2023** | 2 | 0 | 00,00 |
| 5307.01 İqtisadi nəzəriyyə | **2020-2021** | 7 | 1 | 14,29 |
| | **2021-2022** | 7 | 0 | 00,00 |
| | **2022-2023** | 6 | 1 | 16,67 |

Qeyd olunanlara müvafiq olaraq sifariş yerlərinin sayının optimal müəyyən edilməsi ilə bağlı əlavə monitorinq və təhlillərin aparılmasına ehtiyac duyulur.

#### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Tələbə qəbulu üzrə sifarişlərin əmək bazarının tələblərinə uyğun olaraq optimal müəyyən edilməsi üçün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan "Dövlət Məşğulluq Agentliyi" və "Mərkəzləşmiş Elektron İnformasiya Sistemi"nə UNEC tərəfindən müraciət ünvanlanır. Həmçinin, istehsalat təcrübəsi üçün müqavilə bağlanılan qurumlardan əmək bazarının ehtiyacları ilə bağlı məlumatlar əldə olunaraq təhlil edilir.

#### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

UNEC-də işəgötürənlərin ehtiyaclarının nəzərə alınması üçün əmək bazarının nümayəndələrinin iştirakı ilə əmək yarmarkaları təşkil olunur ki, bu da məzun olan tələbələrin işlə təmin olunma və məşğulluq faizini artırır. Belə ki, məzunların işlə təmin olunma faizində illər üzrə müsbət artım dinamikası izlənilir (bakalavriatura üzrə 2020-2021-ci il buraxılışında ümumi orta göstərici 50,88%, digər təhsil pillələri üzrə ümumi orta göstərici 69,7%).

Lakin, tələbə qəbulu sifarişlərinin əmək bazarının tələblərinə uyğun olaraq optimal müəyyən edilməsi üçün maraqlı tərəflərlə görüşlər aparılsa da, rəsmiləşdirilmiş protokollar təqdim olunmamışdır.

#### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti:

Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli, 230 saylı "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi" Qaydalarının 5.1. bəndinə uyğun olaraq UNEC rektorunun 2018-ci il 20 dekabr tarixli, 255/1/2018 saylı əmri ilə yaradılmış "Fənlərin uyğunlaşdırılması" komissiyası fəaliyyət göstərir və komissiyanın müvafiq qərarı ilə kreditləri tanınan fənlər tələbələrin fərdi tədris planları tərtib olunarkən nəzərə alınır. Fənlərin tanınması zamanı müvafiq kreditlər və saatlarla yanaşı tələbələrin əvvəlki təhsilində fənlər üzrə əldə etdikləri kompetensiyalar da nəzərə alınır.

### *3.2 Təhsil proqramları*

#### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

UNEC-də hazırda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli, 45 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili)

səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun olaraq bakalavriatura səviyyəsi üzrə mövcud 10 ixtisas qrupunun 5-i üzrə 22 ixtisas olmaqla, 2011-ci il 14 iyun tarixli, 95 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na uyğun olaraq magistratura səviyyəsi üzrə mövcud 10 ixtisas qrupunun 4-ü üzrə 20 ixtisas (61 ixtisaslaşma), MBA proqramı üzrə "Biznesin idarə edilməsi" ixtisası, Biznesin təşkili və idarə edilməsi ixtisaslaşması üzrə 29 istiqamət, 2012-ci il 15 mart tarixli, 65 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na uyğun olaraq doktorantura (dissertantura) səviyyəsi üzrə mövcud 25 elm sahəsinin 2-i üzrə 11 ixtisas olmaqla kadr hazırlığı həyata keçirilir ki, bu da UNEC-in profilinə uyğun olaraq kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyinin uyğunluğunu təmin edir.

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

UNEC-də kadr hazırlığı aparılan bakalavriat, magistratura və doktorantura (dissertantura) üzrə bütün ixtisaslar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 saylı Qərarına əsasən "Ali təhsil pilləsinin dövlət standartı və proqramına" uyğun həyata keçirilir. Belə ki, Təhsil Proqramları hazırlanarkən əmək bazarının nümayəndələrinin, Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə nazirliyi, Mərkəzi Bank, Ernst and Young, Deloitte, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Statistika Komitəsi, SOCAR, KPMG, Kapital Bank, Baker Tilly kimi nüfuzlu şirkət və dövlət strukturlarının təklifləri nəzərə alınmışdır.

Əmək bazarının tələblərinə uyğun yeni nəsil təhsil proqramlarının hazırlanmasında UNEC-in iştirakı müsbət hal olaraq qiymətləndirilir. Belə ki, UNEC tərəfindən "İqtisadiyyat və idarəetmə" ixtisasları üzrə hazırlanmış Təhsil proqramı Azərbaycan Respublikası Təhsil Nazirinin 2020-ci il 11 mart tarixli, F-172 nömrəli əmri ilə yaradılmış komissiyada təsdiq edilmişdir.

Bir sıra proqram və ixtisaslarda tədris olunan praktik fənlərin əmək bazarı nümayəndələri tərəfindən tədris edilməsi təhsilalanların peşə kompetensiyalarının əmək bazarı və cəmiyyətin tələblərinə uyğunluğunu təmin edir.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

UNEC-də təhsil proqramlarının keyfiyyətinin təmin olunması məqsədilə keyfiyyətin daxili təminatı sistemi, keyfiyyət siyasəti, qiymətləndirilmə meyarları mövcuddur ki, bu da ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğunu təmin edir.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli, 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"-nə uyğun olaraq UNEC-də 6, 7 və 8-ci səviyyələr üzrə ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu əsasən təmin edilmiş və "Təhsil haqqında" Azərbaycan

Respublikasının Qanununda təsbit olunmuş təhsil pillələri və səviyyələrinə uyğun müəyyənləşdirilmişdir.

Vətəndaşların fasiləsiz təhsil almaq imkanını təmin etmək və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə UNEC-də müxtəlif təhsil proqramları üzrə (son 3 ildə 22 mövcud təhsil proqramından 14-də, 255 nəfər olmaqla) təkrar ali təhsil üzrə kadr hazırlığı həyata keçirilir.

Həmçinin, UNEC-də fəaliyyət göstərən Ömürboyu Təhsil Mərkəzi tərəfindən təklif olunan xidmətlərin hər kəsə əlçatan olması "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"-nin tələbləri ilə uyğunluq təşkil edir.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

UNEC-də kadr hazırlığı aparılan ixtisas (ixtisaslaşmalar) üzrə təlim nəticələri mövcud proqramlardakı Əlavə 1 və Əlavə 2-yə uyğun olaraq müəyyənləşdirilmişdir. Belə ki, fənlərin yeni nəsil sillabuslarının hazırlanması zamanı "Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri" və "Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi" cədvəllərinə istinad edilir.

Əmək bazarının ehtiyacları nəzərə alınaraq mövcud fənlər üzrə sillabuslar hər il yenilənir.

Həmçinin, UNEC-də təhsil proqramları üzrə tədris prosesinin planlaşdırılması, onun həyata keçirilməsinin forma və metodları, tədris yükünün həcmi, tədris mərhələlərinin (semestrlərin) müddəti, tədris növləri (mühazirə, məşğələ, laboratoriya və s.), ayrı-ayrı fənlərin həcmi və ixtisaslar üzrə təhsil proqramlarına qoyulan tələblərin yerinə yetirilməsi qanunvericiliklə tənzimlənən standartlara uyğundur.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

Təhsil proqramları üzrə dərs saatlarının bölgüsü Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğundur. Belə ki, UNEC-də təhsil proqramlarının tələblərini həyata keçirmək üçün bakalavriatda 240-300 kredit, magistraturada 120 kredit toplanması nəzərdə tutulmuşdur. Kadr hazırlığı aparılan təhsil proqramları üzrə fənlər – ümumi (30 kredit), ixtisas (120 kredit), ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər (seçmə fənlər) (60 kredit) olaraq 3 qrupa, təcrübə isə 30 kredit olmaqla karyera planlaması, yumşaq və sərt bacarıqlar, istehsalat təcrübəsi/layihə bloklarına bölünməklə hər kredit üçün auditoriyadaxili və auditoriyadan kənar saatların cəmi 30 olaraq müəyyənləşdirilmişdir.

Bakalavriatura üzrə "İqtisadiyyat və idarəetmə" Təhsil proqramlarına müvafiq olaraq hazırlanmış Tədris planlarında (Forma 1) xarici dillərə ayrılan dərslərin auditoriya saatlarının auditoriyadan kənar saatlara nisbətdə daha çox olması tələbələrin xarici dil biliklərinin möhkəmləndirilməsi, Dizayn (sahələr üzrə), Qida mühəndisliyi ixtisaslarında ixtisas fənlərinin əsas saatlarının laboratoriya saatlarına ayrılması tələbələrin peşə səriştələrinə daha yaxşı yiyələnməsi yönündə mühüm addım kimi qiymətləndirilir.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

UNEC-də kadr hazırlığı həyata keçirilən ixtisaslar üzrə tədris olunan fənlər təhsil proqramlarının tələblərinə uyğundur. Belə ki, ixtisaslar üzrə tədris olunan fənlər təhsil proqramlarının məqsədinə, məzunların kompetensiyalarına, təhsil proqramının strukturuna, tədris və öyrənmə mühitinə, qiymətləndirmə üsullarına, infrastruktur və kadr potensialına, təcrübələrin təşkilinə və məşğulluq tələblərinə uyğundur.

#### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

UNEC-də bakalavriatura və magisrtratura üzrə kadr hazırlığı aparılan ixtisaslar üzrə (bakalavriatura üzrə 22 ixtisas, magistratura üzrə 61 ixtisaslaşma, MBA üzrə 29 istiqamət) tərtib olunan tədris planlarında (Forma 1) tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi təhsil proqramlarının standartlarına uyğun tənzimlənmişdir.

#### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş təhsil proqramları haqqında məlumat, təhsil proqramlarının məzmunu və əldə olunacaq təlim nəticələri UNEC-in rəsmi saytında (https://unec.edu.az/tehsil-proqramlari-2/) yerləşdirilmişdir.

#### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

UNEC tərəfindən Təhsil Nazirliyinə (hal-hazırda Elm və Təhsil Nazirliyi) təqdim olunan “İqtisadiyyat və idarəetmə” ixtisas qrupunun təhsil proqramı hazırlanarkən əmək bazarının nümayəndələri ilə görüşlər aparılmış və onların tövsiyyələri nəzərə alınmışdır. Yeni təhsil proqramlarının hazırlanmasında işəgötürənlərin iştirakı ilə keçirilmiş iclasın protokolları komissiyaya baxış üçün təqdim edilmiş və iclasın videosu ictimaiyyətə əlçatan platformada (UNEC Extern youtube səhifəsi - https://www.youtube.com/watch?v=1-vcGp5AQD8) yerləşdirilmişdir.

### *3.3 Tədrisin təşkili*

#### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

UNEC-də həm bakalavriatura, həm də magistratura üzrə tərtib edilən tədris planları struktur və mahiyyət baxımından kredit sisteminin tələblərinə uyğundur. Belə ki, mövcud tədris planlarının monitorinqi zamanı tədris planlarının humanitar və ixtisas fənlər, universitet tərəfindən təyin olunan seçmə fənlərin, o cümlədən təcrübə və yekun attestasiya blokunun təhsil proqramlarının standartları ilə uyğunluq təşkil etdiyi təyin edilmişdir. Tədris planlarında semestrlər üzrə 30 kredit tələbi təmin olunmuş, fənlərin prerekvizitliyi prinsipi gözlənilmişdir.

### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

İxtisasların (ixtisaslaşmaların) tədris qrafiki (Forma 2) Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzində və fakültələrdə mövcuddur, tədris planlarına müvafiq hazırlanmış və kredit sisteminin tələblərinə uyğundur.

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

UNEC-də kadr hazırlığı aparılan ixtisaslar üzrə məcburi fənlərin və ali təhsil müəssisəsi tərəfindən təyin olunan seçmə fənlər blokunun ixtisasın spesifikliyindən asılı olaraq qruplaşdırılmağı tələblərə uyğundur.

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

UNEC-də kadr hazırlığı aparılan ixtisaslar üzrə ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti təhsil proqramlarının tələblərinə uyğundur.

### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

UNEC-də kadr hazırlığı aparılan təhsil proqramları üzrə hər ixtisas üçün “Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri” və “Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi” hazırlanmışdır. Uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi məqsədilə Monitorinq qrupları yaradılmış, təhsilalanlar, məzunlar, əmək bazarı nümayəndələri, akademik heyətlə bağlı sorğular keçirilmiş, təlim metodlarının təkmilləşdirilməsi məqsədilə 166 yeni fənn üzrə təlimlər həyata keçirilmişdir.

Lakin monitorinqin və qiymətləndirmənin həyata keçirilməsi üçün audit sorğu cədvəli və blanklarda fənn üzrə təlim nəticələrinin təhsil proqramlarına uyğunluğunu müəyyən etməyə imkan verən sorğuların (məzmunun uyğunluğu, fənnin təlim nəticələrinin tələbəyə çatdırılması, mövzuların əlaqələndirilməsi, istifadə edilən ədəbiyyatın mözvuya uyğunluğu, məntiqi ardıcıllıq, interaktivlik, qiymətləndirmənin növləri, üsul və vasitələri və s.) əlavə edilməsinə ehtiyac duyulur.

### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

UNEC-in Özünütəhlil Hesabatına əlavə olaraq təqdim edilmiş sillabuslarda fənlərin təlim nəticələrinin öz əksini tapmadığı məlum olmuş, lakin ATM-ə sahə səfəri zamanı sənədlərə yerində baxış nəticəsində yeni nəsil sillabuslarda mövcud meyarla bağlı tələblərin ödəndiyi müəyyənləşdirilmişdir. Mövcud prosesə nəzarəti Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzi həyata keçirir. Sillabusların bu istiqamətdə təkmilləşdirilməsi məqsədilə mərkəz tərəfindən tədris sənədlərinin hazırlanma qaydalarına dair tövsiyələr də tərtib olunmuşdur.

### 3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

UNEC-də mövcud ixtisaslar (ixtisaslaşmalar) üzrə tədris planlarında nəzərdə tutulmuş fənlərin sayı və həftəlik dərs yükü həm bakalavr, həm magistrlara dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verir. Belə ki, təhsilin hər bir pilləsi üzrə həftəlik auditoriya saatı ümumi saatların 50%-ni keçmir. Magistratura pilləsində həftəlik dərs yükünün 12-16 saat olması magistrantlara dərsdənkənar tədqiqat aparmağa imkan yaradır.

### 3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

UNEC-də baxış keçirilən fakültələrdə tələbələrin Fərdi Tədris Planlarının (Forma 4) qanunvericiliyə uyğun tərtib olunduğu görülmüşdür. Belə ki, hər bir tələbənin FTP-si tərtib edilərkən semestrlər ərzində dinləyəcəkləri (akademik borc yaranmışlar nəzərə alınmaqla) və əvvəlki təhsillərində dinləyib azad olduqları fənlər nəzərə alınır.

### 3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti

İxtisas (ixtisaslaşma) üzrə illik işçi tədris planları (Forma 3) baxış keçirilən fakültələrdə mövcuddur, tədris planlarına müvafiq hazırlanmış və kredit sisteminin tələblərinə uyğundur.

### 3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti

Baxış keçirilən kafedralarda müəllimlərin illik işçi tədris planları kredit sisteminin tələblərinə uyğundur. Belə ki, kafedralarda müvafiq planlar müəllimlərin 5 illik akademik fəaliyyətini əhatə edən kitabçalar şəklində tərtib edilir.

### 3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

UNEC-də kadr hazırlığı aparılan tədris planlarına baxış keçirərkən Forma 1-lərdə ixtisasın istiqamətinə uyğun olaraq fənlərin mühazirə, məşğələ və laboratoriya dərslərinə bölündüyü müşahidə edilmişdir. Mühazirələr əsasən birləşdirilmiş qruplarda, məşğələlər isə yarımqruplar olmaqla təşkil edilir. Laboratoriya dərslərinin keçirilməsi əsasən texniki və texnoloji ixtisaslarda nəzərdə tutulmuşdur ki, bu dərslərin daha səmərəli təşkili ilə əlaqədar UNEC-in 3 saylı tədris

binasında ixtisaslaşdırılmış və müasir avadanlıqlarla təhciz edilmiş 18 laboratoriya fəaliyyət göstərir.

### 3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti

UNEC-də tələbələrə akademik məsləhət vermək məqsədilə hər fakültədə akademik məsləhətçilər fəaliyyət göstərir. Tyutorların əsas vəzifələrini təhsilalanlar və yeni qəbul olunan tələbələrlə görüşlərin keçirilməsi və kredit sistemi ilə tədrisin təşkili, biliyin qiymətləndirilməsi, Elektron universitet, İkili diplom, Minor və mübadilə proqramları barədə məlumatlandırılma, eyni zamanda EDUMAN sistemində kommunikasiya paneli üzərindən məsləhətlərin verilməsi, tələbələrin ayrı-ayrı təhsil illəri üzrə FTP-in tərtib edilməsi təşkil edir.

ATM-in Özünütəhlil Hesabatında akademik məsləhətçilərin fəaliyyəti AR NK-nin 348 saylı qərarının 5-ci bəndinə əsasən təşkil edildiyi qeyd olunsa da, müvafiq qaydaların 1.3.2 bəndinin (ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq, tədris fənlərinin, semestrlər üzrə kreditlərin miqdarının, təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) seçiminin sərbəstliyinin təmin edilməsi) tələblərinin yerinə yetirilmədiyi müəyyən olunmuşdur.

Akademik məsləhətlə yanaşı müvafiq kafedra müəllimləri tərəfindən imtahan sessiyası öncəsi fənn məsləhət saatları da təşkil olunur ki, onların da qrafikləri baxış keçirilən kafedralarda müşahidə edilmişdir.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

UNEC-də tələbələr tərəfindən sərbəst işlərin işlənib hazırlanması yalnız bakalavriatura pilləsində “Dizayn”, texniki və texnoloji ixtisaslarda nəzərdə tutulmuşdur. Belə ki, “Dizayn” ixtisasında sərbəst işlər “fərdi işlər”, texniki və texnoloji ixtisaslarda “laboratoriya işləri”, türk bölməsi və magistratura səviyyəsində layihə işləri şəklində həyata keçirilir.

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

UNEC-də bakalavriat səviyyəsində istehsalat təcrübəsinin keçirilməsinə Elmi Şuranın 2019-cu il 28 fevral tarixli iclasının EŞ–164 saylı qərarı ilə təsdiq edilmiş Qaydalar və təcrübə proqramları əsasında Təcrübənin təşkili şöbəsi nəzarət edir. İstehsalat təcrübəsi öncəsi tələbələrin təcrübə keçəcəyi müvafiq qurumlarla müqavilələr bağlanılır. Bu zaman müvafiq ixtisaslara uyğun olaraq UNEC-in müəllim-professor heyətindən və təcrübə müəssisəsindən təcrübə rəhbərləri təyin edilir ki, onlar da təcrübə öncəsi tələbələrlə təlimati görüşlər keçirir, təcrübənin gedişatına nəzarət edirlər.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

UNEC-də stajkeçmənin təşkili Elmi Şuranın 2018-ci il 06 dekabr tarixli, 162 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələrinin, professor-müəllim heyətinin va əməkdaşlarının beynalxalq akademik mobilliyi haqqında Qaydalar”-ın III bölməsinə

müvafiq həyata keçirilir, inzibati və akademik heyət mühazirələr oxuması, məşğələ və konsultasiyaların keçirilməsi, birgə elmi tədqiqatlarda, ixtisasartırma proqramlarında iştirak məqsədilə tərəfdaş ali təhsil müəssisələrinə ezam edilir. Qaydalara, həmçinin, seçim müsabiqəsinin keçirilməsi meyarları və görüləcək digər işlər əlavə edilmişdir.

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

UNEC-də kadr hazırlığı həyata keçirilən ixtisasların təhsil proqramlarında kurs işi və referatların təşkili məcburiyyəti olmadığından mövcud meyar üzrə qiymətləndirilmə aparılmamışdır.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

Baxılmış sənədlər və əmrlər əsasında UNEC-də buraxılış işlərinin və magistr dissertasiyalarının qanunvericiliyin tələblərinə uyğun təşkil edildiyi nəzərə çarpmışdır.

UNEC tərəfindən tərtib edilmiş "Magistr dissertasiyasının yazılması və qiymətləndirilməsi qaydaları" (https://unec.edu.az/application/uploads/2017/07/Dissertasiya-Yazi-qaydasi-25.09.2019-1.pdf) rəsmi saytda tələbələr üçün ictimaiyyətə açıqdır.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

UNEC-də imtahan sessiyası mərkəzləşdirilmiş qaydada əsasən payız, yaz və yay semestrlərində yazılı və test formasında həyata keçirilir. Fənnin spesifikliyindən asılı olaraq bəzilərində (xüsusilə dil fənlərində) şifahi imtahan üsulundan da istifadə olunur. İmtahanların mərkəzləşdirilmiş qaydada keçirilməsi üçün ATM tərəfindən uyğun infrastruktur şəraiti yaradılmışdır.

İmtahan sessiyasından sonra sessiyanın nəticələrinə həsr edilmiş hesabat Elmi Şurada müzakirə edilərək Elm və Təhsil Nazirliyinə təqdim edilir.

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

UNEC-də yay semestrinin təşkili müvafiq qanunvericiliyə və EŞ-nın 2022-ci il 31 may tarixli, 183 saylı qərarı ilə təsdiq edilmiş "UNEC-də Yay semestrinin təşkili və keçirilməsi Qaydaları"-na müvafiq olaraq həyata keçirilir.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

UNEC-də tədris illəri üzrə bakalavriatura və magistratura səviyyələrində dinamikaya nəzər yetirdikdə post - pandemiya dövründə kredit borcu olan tələbələrin sayının xeyli artdığı nəzərə çarpır.

*Cədvəl 2. Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası*

| Tədris ili | Bakalavriatura pilləsi üzrə | | | Magistratura pilləsi üzrə | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi təhsilan (nəfər) | Akademik borcu yarananlar (nəfər) | Toplam təhsilalanlara nisbətdə (%) | Cəmi təhsilan (nəfər) | Akademik borcu yarananlar (nəfər) | Toplam təhsilalanlara nisbətdə (%) |
| **2016/2017** | 14219 | 3297 | 23,19 | 3084 | 410 | 13,29 |
| **2017/2018** | 14129 | 2383 | 16,87 | 2949 | 859 | 29,13 |
| **2018/2019** | 14326 | 1573 | 10,98 | 3226 | 861 | 26,69 |
| **2019/2020** | 14386 | 1129 | 7,85 | 3361 | 570 | 16,96 |
| **2020/2021** | 14456 | 968 | 6,70 | 3645 | 605 | 16,60 |
| **2021/2022** | 14483 | 2553 | 17,63 | 3881 | 950 | 24,48 |

Cədvəlin təhlilindən də göründüyü kimi, 2016/2017-ci tədris ilindən 2020/2021-ci tədris ilinədək (magistratura üzrə 2017/2018-ci tədris ili istisna olmaqla) kredit borcu olan tələbələrin ümumi təhsilanlara nisbətdə hər tədris ili azaldığı halda, 2021/2022-ci tədris ili ərzində bu göstəricilərin faizi bakalavriatura üzrə öncəki tədris ilinə nisbətdə 10,93 vahid, magistratura üzrə isə 7,88 vahid artmışdır. Müsahibələr zamanı UNEC tərəfindən iştirak edən respondentlərin ümumi rəyi mövcud göstəricilərin pandemiya ilə əlaqəli olması üzərində cəmləşmişdir.

2021/2022-ci tədris ilinin qış imtahan sessiyasının nəticələri haqqında müzakirə edilən Elmi Şuranın 2022-ci il 14 fevral tarixli, 182 nömrəli protokoluna nəzər yetirdikdə, mövcud dinamika və öncəki illərlə müqayisə ilə bağlı müzakirələrin aparılmasına ehtiyac olduğu müəyyənləşdirilmişdir.

### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

UNEC-də tədris illəri üzrə bakalavriatura və magistratura səviyyələrində dinamikaya nəzər yetirdikdə post - pandemiya dövründə kredit borcu yaranmış fənlərin sayının xeyli artdığı nəzərə çarpmışdır.

*Cədvəl 3. Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası*

| Tədris ili | Bakalavriatura pilləsi üzrə (ədəd) | Magistratura pilləsi üzrə (ədəd) |
|---|---|---|
| **2016/2017** | 1273 | 119 |
| **2017/2018** | 1205 | 180 |
| **2018/2019** | 956 | 155 |
| **2019/2020** | 756 | 140 |
| **2020/2021** | 751 | 146 |
| **2021/2022** | 1043 | 277 |

Cədvəlin təhlilindən də göründüyü kimi, 2016/2017-ci tədris ilindən 2020/2021-ci tədris ilinədək (magistratura üzrə 2017/2018-ci tədris ili istisna) kredit borcu yaranmış fənlərin sayının

hər tədris ili azaldığı halda, 2021/2022-ci tədris ili ərzində bu göstəricilər bakalavriatura üzrə öncəki tədris ilinə nisbətdə 292 ədəd, magistratura üzrə isə 231 ədəd artmışdır. Müsahibələr zamanı UNEC tərəfindən iştirak edən respondentlərin ümumi rəyi mövcud göstəricilərin pandemiya ilə əlaqəli olması üzərində cəmləşmişdir.

2021/2022-ci tədris ilinin qış imtahan sessiyasının nəticələri haqqında müzakirə edilən Elmi Şuranın 2022-ci il 14 fevral tarixli, 182 nömrəli protokoluna nəzər yetirdikdə, mövcud dinamika və öncəki illərlə müqayisə ilə bağlı müzakirələrin aparılmasına ehtiyac olduğu müəyyənləşdirilmişdir.

#### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi ilə əlaqədar UNEC üzrə umumi və hər fakültə üzrə ayrı-ayrılıqda monitorinq qrupları yaradılmış, problem aşkarlanan sahələrdə təlimlər keçirilməkdədir. Belə ki, aparılmış monitorinq nəticələri üzrə aidiyyəti fakültələrdə müzakirələr keçirilməklə müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması ilə bağlı təkliflər hazırlanır və gələcəkdə bu qüsurların aradan qaldırılması üçün iş aparılır. Bu prosesin səmərəliliyinin artırılması ilə əlaqədar kafedra əməkdaşlarının açıq dərsləri təşkil olunur. Hər bir kafedra üzrə açıq dərslərin qrafikləri tərtib olunur. Açıq dərslərin kafedra iclaslarında müzakirəsi həyata keçirilir.

Yerində baxış keçirilən Fakültə şuralarının və kafedra iclaslarının gündəliyində mövcud məsələlərin geniş şifahi müzakirəsinin aparıldığı qeyd olunsa da, iclas protokollarına nəzər yetirilən zaman məsələlərin tam açılmadığı, təkliflərin olmadığı və özünütənqidin zəif olduğu aşkarlanmışdır.

### *3.4 Tədris metodları və üsulları*

#### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

UNEC-ə sahə səfəri çərçivəsində təlim nəticələrinin əldə olunmasını təmin edən interaktiv metodlardan mühazirə və sorğu (sual-cavab) formasından istifadə olunduğu, mövzülar üzrə təqdimatların hazırlandığı, həm müəllim, həm də tələbələrin təlim prosesində iştirak etməsi müəyyənləşdirilmişdir. UNEC-də (“Yumşaq bacarıqlar”, “Makroiqtisadiyyat”, “Karyera planlaması”, “Xarici dil”, “Maliyyə uçotu” və s.) dərs müşahidələri aparılmış mühazirə və məşğələ dərslərinin təşkilində özünütəhlil hesabatında qeyd olunan innovativ, yaradıcı və interaktiv metodlardan olan frontal sorğu metodu, ev tapşırıqlarının cavablandırılması üzrə qiymətləndirmə metodu, Quizizz.com, Google Forms, Kahoot kimi onlayn tətbiq vasitələrindən qismən istifadə olunduğu müşahidə olunmuşdur.

#### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

ATM-də beynəlxalq təcrübədə tətbiq olunan sistem və modellərdən (Çevrilmiş - Flipped Education tədris metodu) istifadə edilir. Cari tədris ilində 38 fənn üzrə 62 qrupda "Çevrilmiş təhsil" (Flipped Education) tədris metodu tətbiq edilmişdir.

"Maliyyə uçotu" fənni üzrə dərs müşahidəsi zamanı və "Biznesin əsasları" fənni üzrə tələbələr arasında keçirilmiş sorğu nəticələrinə (nəticələr UNEC tərəfindən təqdim olunmuşdur) əsasən məlum olmuşdur ki, mühazirə və seminar dərslərinin təşkili tələbələri qismən qane edir (Birləşmiş qrup dərslərində 50-60 tələbədən ibarət auditoriyada bu metodun tətbiqi çətinləşir. Sorğu nəticələrinə əsasən, "Çevrilmiş tədris metodu sizi qane edirmi?" sualına təhsilalanların 44.4% "bəli", 44.4% "qismən qane edir", 11,1% isə "xeyr" cavabı vermişdirlər).

**Çevrilmiş (Flipped) tədris metodu:**

| Müsbət tərəflər | Mənfi tərəflər |
|---|---|
| • Dərs zamanı biliklərin audio, video, infoqrafik və yazılı formada ötürülməsi;<br>• Tələbələrdə tədris materiallarını sərbəst öyrənmə bacarığının formalaşması;<br>• Tələbələrdə müstəqiliyin və daha çox praktiki məsələlərin həllinə uyğunlaşdırılması. | • Tələbərin zəif motivasiyası (40% tələbənin dərs zamanı passıvliyi müşahidə olunmuşdur);<br>• Birləşmiş qruplarda tədris zamanı prosesin planlaşdırılması və yekun qiymətləndirmənin çətinliyi;<br>• Birləşmiş qruplarda qiymətləndirmə meyarlarının müəyyən edilməsində çətinliklər. |

UNEC-də spesifik fənlər üzrə nəzəri biliklərin praktiki tətbiqlər üzrə tədrisinin təşkil edilməsi üçün 29 laboratoriya mövcuddur, virtual laboratoriyalardan da istifadə edilir. Laboratoriyalar lazımı avadanlıqlarla təhciz olunub. Bəzi laboratoriyalarda mütəxəssis catışmazlığı var. Kompyuter laborotoriyalarında kompyuterlər SPSS proqramı, 1 C proqramı, Adobe Photoshop proqramı, Blender proqramı və Sketch Adobe İllustrator CC proqramı, CorelDraw Adobe İllustrator proqramı və digər proqramlar ilə təchiz olunmuşdur.

### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

ATM-də bütün təhsil formaları üzrə tədris metodlarının tətbiqi üçün müvafiq maddi-texniki baza mövcuddur. Belə ki, əyani və qiyabi təhsil formaları üzrə tədris prosesi hibrid və sinxron formada təşkil olunur.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

2017 – 2022-ci illərdə tədris metodlarında motivasiya və daha çox dərindən öyrənməni təşviq etmək üçün ATM-də aşağıdakı təlimlər keçirilmişdir:

“Ali təhsil müəssisələrində mühazirə və seminarların təşkili”, “Tələbə nəaliyyətlərinin artırılması yönümlü müasir tədris metodları”, “Tələbələrin biliyinin qiymətləndirilməsində müasir və motivasiya əsaslı metodlardan istifadə”, “Tələbələrin yaradıcı düşüncəsinə təsir edən metodların istifadəsi: Beyin xəritələri; Skeçlər; Keys (case); Rol oynama; In-basket.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

UNEC tərəfindən təqdim olunmuş İnklüziv Təhsil Mərkəzinin Fəaliyyət Konsepsiyası özündə əsas prinsip, məqsəd, vəzifə və istiqamətləri əhatə edir. **İnkluziv təhsil** mərkəzində əlilliyi və sağlamlıq imkanları məhdud olan 112 tələbənin təhsilə cəlb olunması təmin edilir. İnkluziv təhsil üzrə müəllim hazırlığı üçün pedaqoji heyət müfaviq təlimlərə cəlb olunur. ATM-in rəsmi veb saytına baxış nəticəsində 2018-ci ildə beynəlxalq konfrans çərçivəsində BƏƏ-dən olan təlimçilər Şaron Keqan və Tina Merk tərəfindən “İnklüziv təhsil və əlilliyi olan tələbələrin məşğulluğu”, 2022-ci ildə **“Müasir inklüziv təlim-tədris prosesinin təşkili”,** 2023-cü ildə İnklüziv Mərkəzin təşəbbüsü ilə **“Müasir inklüziv tədris prosesinin xüsusiyyətləri” mövzusunda seminar və təlimlərin təşkil edildiyi aydın olmuşdur.**

**Tələbələrin** peşə hazırlığı və iş imkanlarını genişləndirmək üçün Dövlət Məşğulluq Agentliyi və DOST agentliyi ilə memorandumlar imzalanmışdır. Tələbələr İnklüziv təhsil şöbəsində, dövlət təşkilatlarında təcrübəyə də cəlb olunurlar. Tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq onlar üçün Brayl əlifbası ilə çap olunmuş dərs materialları, fənn mövzuları üzrə qısaldılmış videoyazılar, audio mühazirələr mövcuddur və sözügedən tələbələr üçün hibrid formada dərslər təşkil edilir.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

2015-ci ildən UNEC-də EDUMAN tədrisin elektron idarə edilməsi sistemi tətbiq olunur. Müəllim və tələbələr üçün şəxsi kabinetlər, tədris planları, mühazirə mətnləri, məmnunluq anketi və s. elektronlaşdırılmışdır. Onlayn və hibrid keçirilmiş dərslərin video yazıları tələbə kabinetlərinə göndərilir. Dərs vəsaitlərinin yüklənməsi və keyfiyyətinin yoxlanması müvafiq struktur tərəfindən hər semestrin başlanğıcında təmin edilir. EDUMAN sistemində “Bir pəncərə” sistemi də işə salınmışdır. Bu sistem vasitəsilə tələbələr universitet təhsili müddətində tələb olunan bütün arayış və ərizələri şəxsi kabinetlərindən müraciət edərək əldə edə bilirlər. UNEC-də tədrisin keyfiyyətinin artırılması üçün auditoriyalar ağıllı lövhələr, proyektorlar, distant dərslərin keçirilməsi ilə əlaqədar 6 yüksək texniki təhcizata malik studiya, 100 hibrid auditoriya və elektron tribunalarla təhciz edilmişdir. Təhsil və təlim texnologiyaları şöbəsi müfaviq olaraq bütün prosesi nümayiş etmişdir.

### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

Yeni təlim və tədris metodlarını və interaktiv öyrənməni təmin etmək üçün tələbələr, fakültə rəhbərləri, Tədrisin təşkili şöbəsinin dəstəyi ilə təlimatlar, yeni metodun tətbiqi ilə əlaqəli videoçarxlar hazırlanaraq təqdim edilir.

Tətbiq edilən metodlar üzrə təhsilalanların məmnuniyyətini müəyyən etmək üçün "Çevrilmiş tədris", Rus iqtisad məktəbinin interaktivlik səviyyəsi, Laboratoriya dərslərinin keçirilməsi ilə əlaqədar fakültələr sorğular keçirmiş və sorğu nəticələrinə əsasən təhsilalanların məmnuniyyəti müəyyən edilərək aidiyyəti üzrə tədbirlər icra olunur. Tələbə kabinetində yerləşdirilmiş məmnunluq anketində hər fənn üzrə tələbələrin öz fikirlərini bildirməsi üçün şərait yaradılmışdır. Sorğu anketinin cavablandırılması üzrə təhsilalanların məmnuniyyəti müəyyən edilərək aidiyyəti tədbirlər keçirilir.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

2016/2017-ci tədris ilindən UNEC-də Monitorinq qrupları fəaliyyət göstərir və mütəmadi olaraq bir sıra göstəricilər əsasında monitorinqlər aparılır: sillabuslarda qeyd edilən mövzulara uyğunluq, mühazirə mətnləri, interaktiv tədris vəsaitləri, müəllimlər tərəfindən dərs prosesinin optimal şəkildə idarə edilməsi, seminar dərslərin təşkili və yeni metodların tətbiqi.

Yeni metodların ("Çevrilmiş" təlim metodu, Layihə əsaslı öyrənmə təlim metodu, Frayer, İnsert, Klaster, Oyunlar üzrə olan təlim metodu və s.) tətbiqi ilə əlaqəli videoçarxlar mövcüddür.

Monitorinq qrupları tərəfindən hər semestr keçirilən dərslər üzrə monitorinqlər təşkil olunur və nəticələrə əsasən aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması ilə əlaqədar preventiv tədbirlər hazırlanır və nöqsanlar aradan qaldırılır. Belə ki, tədris metod və üsullarının sistematik olaraq təkmilləşdirilməsi - açıq dərslərin təşkili, kafedralarda müzakirələrin aparılması və oyunlar üzrə olan təlim metodunun təşkil edilməsi, müasir metodlar üzrə təlim və görüşlərin təşkil olunması – gənc və təcrübəli müəllimlərin təcrübə mübadiləsi formasında həyata keçirilir. Monitorinq nəticələrinə əsasən ənənəvi tədris həyata keçirilən fənlərin də - 2021/2022-ci tədris ili üzrə 30 ənənəvi qaydada tədris olunan fənnin tədris proqramları yenilənmişdir.

## *3.5 Təlim və tədris resursları*

### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

UNEC-də tədris prosesinin bütün mərhələlərini əhatə etməklə "Tədrisin Elektron İdarəetmə Sistemi – EDUMAN" tətbiq olunur və ümumilikdə tədris prosesinin idarəedilməsinin müasir tələblərə uyğun qurulmasını təmin edir. UNEC-də EDUMAN sistemində müxtəlif modullar tətbiq olunur - "Eduman" təhsil idarəetmə modulu, Elektron imtahan modulu, Apelyasiya sistemi, "Əlavə təhsil" modulu, Tələbə kabineti, Müəllim kabineti və s. Sözügedən modul və sistemlər elektron dərs cədvəli, fənn kataloqu, akademik təqvim, elektron jurnal, elektron tədris materialları, hesabatlar, tədris planı, elanlar və bildirişlər, istifadəçilərin yaradılması, tələbə kabineti, müəllim kabineti, apelyasiya və digər məsələləri əhatə edir. "Bir pəncərə" sistemi ilə tələbələr universitet təhsili müddətində tələb olunan bütün arayış və

ərizələri şəxsi kabinetlərindən müraciət etməklə əldə edə bilirlər. Tələbə işləri mərkəzi bu prosesin operativ olaraq işləməsini və müraciətlərin zamanında cavablardırılmasını təmin edir.

### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

UNEC-də 4 tədris binası üzrə 262 tədris auditoriyası mövcuddur. Auditoriyalarda müasir tədris prosesini aparmaq üçün elektron tribuna (PC), proyektor, nəzarət kamerası quraşdırılmışdır. Onlardan 100 hibrid auditoriya ağıllı lövhə və kameralarla, 3 dizayn studio PC, proyektor, dizayn avadanlıqları, 6 linqofon otaq PC, proyektor, linqofon avadanlıqları, Differensial termik analiz cihazı, Raman spektrometri, qaz və maye xramotoqrafları və s. cihaz və avadanlıqlar ilə təchiz olunmuşdur. 8 imtahan zalı da 50 müşahidə kamerası və 580 monoblok, 130 HP tipli kompüterlə təchiz olunmuşdur.

### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti.

UNEC-də EDUMAN sisteminin qurulması ilə birlikdə tələbələrin dərsdə iştirakı və aktivliyinin təmin edilməsi üçün elektron jurnal bölməsi fəaliyyət göstərir. Dərs zamanı tələbənin dərsdə olması, qiymətləndirmə müəllim tərəfindən elektron jurnalda müvafiq olaraq “qaib”, “iştirak edir” və ya “bal yazılması” ilə aparılır. Professor-müəllim heyəti auditoriyalarda elektron tədris platformasından və jurnaldan müvafiq təlimatlara uyğun istifadə edir.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

EDUMAN sistemində fənn bölməsində fənn sillabusu və mövzularının sistemə yüklənilməsi, təqvim tematik plan bölməsi vasitəsilə isə fənnin mövzularının ardıcıl keçirilməsi təmin edilir. Bildirilmişdir ki, proqramın tamamilə rəqəmsallaşdırılması 2023-cü ilin yay aylarında nəzərdə tutulmuşdur - texniki tapşırıq təsdiq olunmuş, layihə texniki yazılım prosesindədir.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

Tədris binaları üzrə mövcud 12 kompüter laboratoriyası 288 ədəd kompüter ilə təchiz edilmişdir. UNEC-in 3 saylı tədris binasında kitabxana və oxu zalları ilə bərabər tələbə müzakirə otağı da internetlə təmin olunmuşdur. Son 6 il ərzində keçirilmiş sorğulara əsasən - ATM-in ümumi fəaliyyətinin qiymətləndirilməsi sorğusunun nəticəsinə əsasən Elmi Şuranın qərarı ilə Laboratoriyaların təkmilləşdirilməsi məqsədilə vahid idarəetmə sistemi üzrə Laboratoriya İşləri Mərkəzinin yaradılması nəzərdə tutulmuşdur.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

UNEC-də ümümi auditoriya fondunun sahəsi 13503 kv.m. təşkil edir. Bakalavriat səviyyəsi, əyani təhsilalma forması üzrə dərslər 2 növbədə, qiyabi təhsilalma forması üzrə isə dərslər əyani təhsil formasının imtahan sessiyasında təşkil edilir. Magistratura səviyyəsi üzrə isə dərslər axşam saatlarında (18.40-21.30) təşkil edilir. Növbələr üzrə auditoriya fondunun tələbə sayına uyğunluğu təmin edilir.




***Qrafik 1: Auditoriya fondunun tələbə sayına uyğunluğu***

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

UNEC-də 2020-2021-ci tədris ilinədək zəruri otaq fondu ümumilikdə 7963.5 kv.m. təşkil etməklə inzibati və akademik heyətin fəaliyyətini təmin edirdi. Həmin tədris ilinin payız semestrindən etibarən 3 saylı tədris binası istifadəyə verildiyi üçün 1037,3 kv.m artım dinamikası müşahidə olunmuşdur. Hazırda 9000.8 kv. m. istifadədədir. 6395.82 kv.m. inzibati heyətin, 2604.98 kv.m. isə akademik heyətin istifadəsi üçün nəzərdə tutulmuşdur.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

UNEC-də 24/7 kitabxana 2018-ci ildən fəaliyyətə başlamışdır. UNEC-in Əsaslı kitabxanasının bazasında Kitabxana-İnformasiya Mərkəzi yaradılmışdır. 2020-ci il 29 yanvar tarixində UNEC KİM yeni elektron kitabxanası (library.unec.edu.az) istifadəyə verilmişdir. Kitabxana EDUMAN sisteminə inteqrasiya edilmiş və resurslardan tələbələrin fasiləsiz istifadəsi təmin edilmiş, eləcə də, çat sistemi vasitəsilə yaranan suallarını ünvanlaması üçün şərait yaradılmışdır. 2020-ci il 17 noyabr tarixində UNEC KİM-dən istifadə qaydaları təsdiq edilmişdir. UNEC kitabxanasının EBSCO, İPRSmart, Emerald Publishing kimi beynəlxalq elmi-metrik bazalara çıxış imkanları təmin edilmişdir. Bir cox universitetlərin kibabxanaları ilə ilə memorondum izlanmışdır. Akademik heyətdən 782, təhsilalanlardan isə 5427 nəfər daimi qeydiyyatda olan oxucu sayı mövcuddur. İllər üzrə kitabxana fondundan istifadə sayı haqqında məlumat təqdim olunmuşdur.




*Qrafik 2. Kitabxana fondundan istifadə dinamikası*

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaiti üzrə artım dinamikası müşahidə edilmişdir. UNEC-in Kitabxana-İnformasiya Mərkəzinə müxtəlif ixtisaslar üçün dünyanın aparıcı mütəxəssislərinin müəllifi olduğu elektron və çap olunmuş kitablar daxil olmuşdur. 2016-2022ci illərdə 20065 dərslik və 16600 dərs vəsaiti daxil olmuşdur.




*Qrafik 3. Dərslik və dərs vəsaitlərinin artım dinamikası*

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

UNEC-in *Kitabxana-İnformasiya Mərkəzinin* fondundakı kitabların əksəriyyətini ATM-də həyata keçirilən tədris dillərində dərslik və dərs vəsaitləri təşkil edir. Bundan əlavə, kitab fondu tədris proqramlarına müvafiq şəkildə universitetin nəşriyyatında, yerli və xarici nüfuzlu nəşriyyatlarda çap olunmuş aktual elmi nəşrlərlə zənginləşdirilmişdir.




***Qrafik 4. Kitab fondunun artım dinamikası***

***Cədvəl 4. İngilis dilində dərslik/dərs vəsaitinin digər dillərdə olan ədəbiyyat sayına nisbəti***

| İllər | İngilis dilində dərslik sayı | Digər dillərdə (az, rus, türk) dərslik sayı | İngilis dilində dərsliklərin digər dillərdəki dərsliklərdə payı % ilə | İngilis dilindəki dərsliyin digər dillərdəki dərsliklərə nisbəti |
|---|---|---|---|---|
| 2016 | 4142 | 46298 | 8,95 | 6/67 |
| 2017 | 4173 | 47273 | 8,83 | 3/34 |
| 2018 | 4191 | 48803 | 8,59 | 3/35 |
| 2019 | 5043 | 50025 | 10,08 | 1/10 |
| 2020 | 5140 | 51269 | 10,03 | 1/10 |
| 2021 | 5212 | 52484 | 9,93 | 1/10 |
| 2022 | 5311 | 53514 | 9,92 | 1/10 |

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

UNEC-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası müəyyən dəyişikliklərlə 2016-cı ildə 438.668 azn – 2021-ci ildə isə 301.164 azn təşkil edir.

*Cədvəl 5. Dərslik, elmi ədəbiyyat və elmi bazalardan istifadə üçün vəsaitin həcmində artım dinamikası*

| 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| 438.668 azn | 388.997 azn | 493.025 azn | 269.544 azn | 239.984 azn | 301.164 azn |

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

UNEC-də tədrisin keyfiyyətinin yüksəldilməsi ilə bağlı həyata keçirilməli olan tədbirlərin istiqamətlərini müəyyən etmək üçün 2020-ci tədris ilindən etibarən ildə iki dəfə olmaqla Monitorinq Komissiyası yaradılır.

Monitorinq qrupunun iş fəaliyyəti haqqında monitorinq blankı təqdim edilmişdir (3.3.3_3.11_3.14 Təlim metodları və Monitorinq qrupları haqqında (1).pdf). Monitorinqlər tədris prosesinin təşkili ilə əlaqəli olması ilə yanaşı, tədris resurslarının istifadəsi və yenilənməsi üzrə də keçirilir. Monitorinq zamanı aşkar edilmiş çatışmazlıqlar üzrə tədbirlər (fənlər üzrə proqramlarının kompetensiya əsaslı qurulması, müasir dərsliklərin yenilənməsi, müasir təlim metod və texnologiyalar üzrə) aparılır. 2020-ci ildə ənənəvi dərslər üçün 20 fənn proqramı yenilənmiş, bundan əlavə, 1500 müəllimin iştirakı ilə 166 fənn üzrə 4 təlim proqramı təşkil edilmişdir.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

UNEC-də bütün fənlər üzrə tədris materialları (sillabus, mühazirə mətnləri, təqdimatlar və dərsliklər) mövcuddur. Bununla yanaşı, 1700 sayda dərslərin 20 dəqiqədən ibarət izahları əhatə edən videoyazıları da mövcudur. Qeyd edilən tədris materialları elektronlaşdırılaraq şəxsi kabinetə yerləşdirilir. Hər tədris ilində semestrin əvvəlində tədris materiallarının tələbələr üçün əlçatanlığını təmin etmək üçün monitorinqlər həyata keçirilir, monitorinq nəticələrinə uyğun aidiyyəti üzrə kafedralara məlumatlar təqdim edilir və bütün tədris materialllarının şəxsi kabinetlərinə yerləşdirilməsi təmin edilir.

### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

2015-2016-cı tədris ilindən İnkluziv təhsil mərkəzdə Brayl əlifbası ilə çap olunmuş dərs materilları hazırlanır, kompüterlərdə səs-yazı çevirmə proqramları və mühazirələrin audio formatları mövcuddur. 2018-2019-cu tədris ilində UNEC-də beynəlxalq mütəxəssislər tərəfindən “İnklüziv Təhsilin təşkili: Qarşıda duran vəzifələr və müasir yanaşmalar” mövzusunda 120 müəllimin iştirak etdiyi 2 günlük təlimlər keçirilmişdir.

UNEC-in “İnklüziv Təhsil Konsepsiyası”nda əlilliyi olan gənclər üçün mövcud olan təlim sahələrinin siyahısının genişləndirilməsi, sağlamlıq imkanları məhdud tələbələrin məşğulluğunun dəstəklənməsi və asanlaşdırılması üçün universitet mərkəzləri sisteminin

yaradılması, Azərbaycanda əlilliyi olan şəxslər üçün ali təhsil müəssisələri tərəfindən göstərilən təhsil xidmətlərinin mövcudluğunun monitorinqi və keyfiyyətinin qiymətləndirilməsi sisteminin yaradılması, resurs tədris-metodiki mərkəzlər şəbəkəsinin yaradılması nəzərdə tutulmuşdur.

### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

UNEC-də tədris ilinin hər semestrində keçirilən dərslər üzrə monitorinqlər keçirilir. Monitorinq nəticələri ümumləşdirilməklə tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində aidiyyəti üzrə tədbirlər görülür.

Tədrisin təşkili şöbəsi tərəfindən 2019-cu ildə çap olunmuş “Fənn üzrə tədris materialların hazırlanmasına dair tövsiyələr və nümünələr” adlı sənəd təqdim olunmuşdur və sənəd də fənnin təlim nəticələri, interaktiv metodların istifadəsi haqqında təlimatlar, sillabus və mühazirə materialların hazırlanma qaydaları əks olunmuşdur. Lakin təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyətinin monitorinqi zamanı fakültə və kafedraların bu barədə az məlumatlı olması, fənn sillabuslarının hazırlanması və təqdimatların hazırlanması zamanı bu standartlara qismən riayət olunduğu müşahidə olunmuşdur. Kafedralarda (Biznesin idarəedilməsi kafedrası, Tətbiqi iqtisadiyyat kafedrası, Riyaziyyat və statistika kafedrası və s.) fənlər üzrə proqramların hazırlanma səviyyəsində olduğu müşahidə edilmişdir. “Fənn üzrə tədris materialların hazırlanmasına dair tövsiyələr və nümünələr” adlı metodik göstərişin təkmilləşdirilməsi və bütün akademik heyət tərəfindən qəbul olunması tövsiyə olunur.

### 3.5.16 Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

Tələbələrin sosial, mədəni və idman fəaliyyətlərinin təmin edilməsi üçün hazırda UNEC-də 11 tələbə təşkilatı fəaliyyət göstərir. “UNEC - 100” İnkişaf Strategiyasının 2022-ci ilin birinci yarısı üzrə hesabatında 2030-cu ilə qədər tələbələrin təşkilatlanma mexanizmini və sosial şəraitini daim təkmilləşdirmək hədəf olaraq müəyyənləşdirilmişdir (Hədəf 4.4). Strategiyanın təsdiq edilmiş icra göstəricilərinə əsasən 2022-ci ildə tələbə təşkilatlarının sayının 15-ə çatdırılmasının nəzərdə tutulduğu qeyd olunsa da, Özünütəhsil Hesabatında isə 11 tələbə təşkilatı haqqında məlumat təqdim edilmişdir.

Tələbə təşkilatları tərəfindən 2022-ci ilin ilk yarısında 15 sosial layihə həyata keçirilmişdir. Eyni zamanda, tələbələrin karyera inkişafına xidmət edən 6 təlim və təcrübə layihəsi reallaşdırılmışdır. Cari ilin birinci yarısında mentorluq xidməti tərəfindən 2 üçtərəfli (tələbə-valideyn-universitet) tədbir keçirilmişdir. Tələbə təşkilatlarının hər birinin əsasnaməsi, işin icra planı, fəaliyyət planı təqdim olunmuşdur. Strategiyada Tələbə Senatı və Tələbə Auditinin formalaşdırılması istiqamətində addımların da atılması nəzərdə tutulmuşdur.

ATM-də Yaradıcılıq mərkəzi də fəaliyyət göstərir və mərkəzin tərkibində 6 dərnək – rəsm, rəqs, teatr,vokal və s. mövcüddur. Bütün kurslar üzrə tələbələri cəlb etməklə daxili tədbirlər təşkil olunur, xarici mədəni yarışlarda, bədii tədbirlərdə tələbələr UNEC-i təmsil edirlər.

### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

UNEC-də Psixoloji xidmət mərkəzi 2022-ci ildən etibarən fəaliyyət göstərir. Məqsəd təhsilalanların akademik nailiyyətlərinin artırılması, sağlam psixoloji mühitin formalaşdırılması, əməkdaş və tələbələrin mənəvi-psixoloji sağlamlığının dəstəklənməsidir. Tələbələrin fərdi-psixoloji xüsusiyyətlərinin, potensial imkanlarının, meyl və maraqlarının öyrənilməsi, sosiallaşmada yaranan çətinliklərin səbəblərinin müəyyənləşdirilməsi üzrə sistemli tədbirlər də həyata keçirir.

Psixoloji xidmət mərkəzinin 2022/2023-cü tədris ili üçün İş Planı ATM-də sahə baxışı zamanı təqdim olunmuşdur. Plana uyğun olaraq təhsilalanlar və əməkdaşlar üçün tədris ili ərzində fərdi konsultasiyalar və müxtəlif mövzularda təlimlər təşkil olunmuşdur (oktyabr-dekabr aylarında “Psixotroplar və narkotik. Manipulyasiyanın sirləri”, “İmtahan qabağı stress və onun aradan qaldırılma yolları”, “Həyatının lideri ol!”). Həmçinin, 2023-cü il mart, aprel, may ayları üçün tədbirlər planı hazırlanmışdır (“Məişət zorakılığı” mövzusunda təlim – aprel 2023, “İmtahan qabağı stress və onun aradan qaldırılma yolları” mövzusunda təlim – may 2023).

## *3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

Bilik və bacarıqların qiymətləndirilməsi tədris materialının tələbələr tərəfindən mənimsənilməsi vəziyyəti barədə təsəvvür yaradır, təhsilin keyfiyyət göstərici olan “təlim nəticələri” haqqında etibarlı məlumatların formalaşmasına şərait yaradır. ATM üzrə kredit sistemi ilə təhsil alan tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi sistemi AR Nazirlər Kabinetinin 348 saylı qərarı ilə müəyyən edilmiş Qaydaların tələblərinə uyğun formalaşdırılmış, buna dair bir çox təlimatlar işlənilmiş, onların əhatəliliyi təmin edilmişdir (https://unec.edu.az/imtahanlar111/). UNEC-də mövcud qanunvericiliyin tələblərinə uyğun imtahan sessiyasının təşkili və keçirilməsi qaydaları formalaşdırılmış, mərkəzləşdirilmiş struktur vahid – UNEC İmtahan Mərkəzi yaradılmışdır (http://unec.edu.az/application/uploads/2022/09/UNEC_Kataloq_tam_2022.pdf). Müstəqil strukturun mövcudluğu ATM üzrə qiymətləndirmə nəticələrinin sistemli təhlilini, statistik bazanın formalaşmasını, dekanlıqlar üzrə iş yükünün azalmasını və hesabatlılığı təmin etmişdir. İmtahanların keçiriləcəyi tarixlər tədris ilinin əvvəlində təsdiq olunur və UNEC-in saytında (akademik təqvim) elan olunur.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

UNEC-də “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə”-yə uyğun olaraq, tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi həyata keçirilir. Bakalavriat səviyyəsində “Xarici dildə işgüzar və akademik kommunikasiya” fənni üzrə qiymətləndirmədə kommunikativ nitq bacarıqlarının formalaşdırılması üçün kombinə olunmuş üsuldan istifadə olunur.

Tədris metodiki mərkəz tərəfindən kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi üçün təlimat hazırlanmışdır. Qiymətləndirmə meyarları əsasnaməyə uyğun

qiymətləndirmə şkalası üzrə konkret nümunələr üzərində izah edilmişdir (https://unec.edu.az/application/uploads/2015/04/qaydalar1.pdf). 2020-ci il 25-29 dekabr tarixlərində "Təhsilalanların biliyinin qiymətləndirilməsi üzrə testlərin tərtibi metodikası" mövzusunda UNEC akademik heyətinə DİM mütəxəssisləri tərəfindən təlim keçirilmişdir.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

Hesabat dövrü ərzində qiymətləndirmə prosesində müxtəlif forma və üsullardan istifadə edilmişdir. Uzun illər UNEC-də baza ixtisas fənləri üzrə tətbiq edilən test imtahanları tələbələrin oxuma və öyrənmə vərdişlərinə, həqiqi biliyin əldə edilməsi prosesinə öz mənfi təsirlərini göstərmiş, təhsilalanlarda əzbərləmə vərdişləri formalaşdırmışdır. Baza ixtisas fənləri üzrə tətbiq edilən testlər təhsil proqramı üzrə nəzərdə tutulan peşə kompetensiyalarınının (səriştələrinin) qiymətləndirməsinə imkan vermir. Hesab olunur ki, imtahanlar nəticəsində təhsilalanların keyfiyyət göstəricisinin 2016/17-ci tədris ilindən etibarən nisbətən yüksək səviyyəsi bununla izah edilir.

***Cədvəl 6. Yaz semestrinin imtahan sessiyasının nəticələri (bakalavriat səviyyəsi üzrə, yaz)***

| **İllər** | **Tələbə sayı** (nəfər) | **İmtahanda iştirak edənlər** | | **İmtahanları müvəffəqiyyətlə verənlər (nəfər)** | | | | Müvəffəqiyyət göstəricisi [2] | Keyfiyyət göstəricisi [3] |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | nəfər | faiz[1] | Cəmi | Əla | Əla, çox yaxşı və yaxşı | Qarışıq | | |
| 2016/17 | 11619 | 11423 | 98,3 | 9835 | 943 | 4280 | 4612 | 85 | 45% |
| 2017/18 | 8915 | 8847 | 99,2 | 7200 | 1047 | 2962 | 3191 | 81% | 45% |
| 2018/19 | 9203 | 9145 | 99,4 | 7336 | 1053 | 2974 | 3309 | 80% | 44% |
| 2019/20 | 9205 | 9089 | 98,7 | 7907 | 3848 | 2744 | 1314 | 86% | 72% |
| 2020/21 | 9134 | 8999 | 98,5 | 7023 | 1587 | 3226 | 2210 | 77% | 53% |
| 2021/22 | 9137 | 8988 | 98,4 | 7150 | 208 | 2431 | 4511 | 78% | 29% |

**Qeyd:** 1. Yekuna faizlə nisbəti ifadə edir.
2. Müsbət qiymət alanların ümumi tələbələrin sayına faizlə nisbəti əsasında müəyyən edilir.
3. Əla, çox yaxşı və yaxşı qiymət alanların ümumi tələbələrin sayına faizlə nisbəti əsasında müəyyən edilir.

Hazırda, bakalavriat səviyyəsi üzrə ümumi fənlər blokuna aid fənlərin təlim nəticələri ("Xarici dildə işgüzar və akademik kommunikasiya" fənni istisna olmaqla) test, baza ixtisas fənlərinin əksər hissəsi yazılı qaydada həyata keçirilir. Test üsulu ilə təşkil olunan imtahanlarda imtahanların başlamasına bir həftə qalmış hər fənn üzrə 700 sualdan ibarət test tapşırıqları tələbənin şəxsi kabinetinə göndərilir. İmtahan müddətində tələbəyə 700 sual içərisindən proqram təminatı tərəfindən seçilmiş 50 ixtiyari sual təqdim olunur. Hər doğru cavablandırılmış sual 1 bal ilə qiymətləndirilir. Yazılı formada təşkil olunan imtahanlarda 15 həftəlik dərsin hər bir mövzusundan 5 sual olmaqla 75 sual tələbələrin şəxsi kabinetlərinə göndərilir. İmtahan

zamanı tələbələrə 5 sual təqdim olunur. Hər sualın maksimum dəyəri 10 baldır. Qiymətləndirmə prosesi qabaqcadan elan olunmuş proseduralara uyğun həyata keçirilir (http://unec.edu.az/application/uploads/2022/09/UNEC_Kataloq_tam_2022.pdf.).

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Bakalavriat səviyyəsində imtahanlar test, yazılı və şifahi üsulla, magistratura səviyyəsində yazılı formada təşkil olunur. Test üsulu ilə imtahanlar mərkəzləşdirilmiş qaydada elektron formada keçirilir, tələbəyə təqdim olunan suallar kompüter tərəfindən seçilir. Magistratura səviyyəsində imtahanlar yazılı formada, imtahan sualları tələbələrə təqdim edilmədən həyata keçirilir. Bu hal obyektivliyin və şəffaflığın təmin edilməsinə şərait yaradır. Qiymətin əsaslandırılması 10 ballıq şkala üzrə meyarlar əsasında həyata keçirilir.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Çevrilmiş (Flipped) tədris metodunun 2022/2023-cü tədris ilindən UNEC-də tətbiqi tələbələrin sərbəst öyrənmə istəyinin formalaşdırılması və təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

UNEC-də sahə səfəri çərçivəsində Akkreditasiya Komissiyası tərəfindən mühazirə və məşğələ dərslərinin müşahidəsi aparılmışdır. Müşahidələrə əsasən tələbələrdə özünüqiymətləndirmə bacarığının formalaşdırılmasına ehtiyac vardır. Tələbələrdə özünüqiymətləndirmə bacarığının formalaşdırılması məqsədilə xüsusilə seminar məşğələlərində dərs boyu tələbənin öz fəaliyyətini müşahidəsi əsasında dərsin sonunda özünü qiymətləndirilməsinə (özünüqiymətləndirmə meyarlarına əsasən hazırlanmış sorğu) müəyyən vaxtın ayrılması və sorğunu cavablandırmaqla bu bacarığın formalaşdırılmasının təmin edilməsi tövsiyə olunur.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

UNEC-də kompüter texnologiyalarına əsaslanan tədris mühitinin formalaşdırılması istiqamətində əsaslı işlər görülmüş, təlim nəticələrinin qiymətləndirilməsində İKT-dən istifadə imkanları yaradılmışdır. Təhsilalanların cari və aralıq qiymətlərinin elektron təhsil sistemində (EDUMAN) qeydiyyatı aparılır və bütün nəticələr vahid elektron baza olmaqla UNEC-in serverlərində saxlanılır.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

UNEC-də İnklüziv Təhsil Mərkəzi fəaliyyət göstərir. Sağlamlıq imkanları məhdud tələbələr üçün imtahana qeydiyyat forması (bax: https://unec.edu.az/imtahan-qeydiyyat-formasi/)

mövcuddur. Sağlamlıq imkanı məhdud olan tələbələr bu formanı imtahandan öncə doldurаraq İnklüziv Təhsil Mərkəzinə imtahanın keçirilmə forması (test, yazılı, şifahi, digər) haqqında öncədən məlumat verməlidirlər. İmtahana qeydiyyat formasının "Digər" bölməsinə sağlamlıq imkanları məhdud şəxslərin xüsusiyyətləri nəzərə alınaraq xüsusi qiymətləndirmə üsullarının əlavə olunması və ümumilikdə təkmilləşdirilməsi tövsiyə olunur.

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

Fənlər üzrə qiymətləndirmə (cari və aralıq) tələbənin təlim nəticələrinin təhsil proqramının məzmun standartlarına və fənn proqramlarına uyğunluğunu müəyyən etmək məqsədilə aparılır. Qiymətləndirmə prosesi təhsilalanlardan gözlənilən təlim nəticələrini nümayiş etdirməyə imkan verməlidir. Tələbənin biliyinin qiymətləndirilməsi üçün keçirilən imtahanlar əsasən ("Xarici dildə işgüzar və akademik kommunikasiya" fənni istisna olmaqla) yazılı və test formalarında həyata keçirilir. 2019/2020-ci tədris ilindən etibarən "Xarici dildə işgüzar və akademik kommunikasiya" fənni üzrə təlimin nəticələri beynəlxalq təcrübəyə əsasən "Dinləmə", "Oxu", "Yazı" və "Danışıq" (Listening, Reading, Writing, Speaking) bacarıqları üzrə qiymətləndirilir. Bəzi fənlərin xüsusiyyətlərindən asılı olaraq nəzəri suallarla yanaşı ixtisas üzrə bacarıq və səriştəni yoxlamağa imkan verən tapşırıqlar imtahan suallarına əlavə edilməli, yaxud şifahi şəkildə (üz-üzə) bu bacarıqlar yoxlanılmalıdır. (Məsələn, "İKT- baza komputer bilikləri", "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya", "Karyera planlaması").

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

UNEC-də Yekun Dövlət Qiymətləndirilməsinin təşkili bu sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğun olaraq təşkil olunur. Belə ki, "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında, "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənmiş qaydalar əsasında təşkil olunur. Bakalavriat və magistratura səviyyəsində yekun dövlət imtahanı, buraxılış işi, dissertasiya işlərinin müdafiəsinin təşkili "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr səviyyəsində dövlət attestasiyası haqqında əsasnamə" və "Magistr dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasnamə" lərin qaydalarına uyğun təşkil olunur.

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

İmtahan Mərkəzinin tərkibində "İmtahanların təşkili və nəzarəti" şöbəsi və "Planlaşdırma və statistik təhlil" şöbələri fəaliyyət göstərir. Tələbələrin illər üzrə bilik və bacarıqlarının

qiymətləndirilməsi üzrə statistik göstəricilər müvafiq şöbələrdə mövcuddur. Bilik və bacarıqların qiymətləndirilməsi üzrə hesabatların UNEC Elmi Şurasının iclaslarında müzakirəsi təşkil edilir.

Test üsulu ilə təşkil olunan imtahanların nəticələri barədə tələbələrə dərhal məlumat verilir (https://unec.edu.az/application/uploads/2015/10/mtahan-modulu-t-l-b-l-r-n-t-limat.pdf).

Sahə yoxlamaları zamanı təhsilalanlar, akademik məsləhətçilər, kafedralarla görüş və müsahibə zamanı yazılı imtahanların yoxlanılması və cavabların elan olunmasının nisbətən uzun müddət ərzində baş verdiyi müəyyən edilmişdir.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

Müsahibələr zamanı aydın olmuşdur ki, universitet və fakültə elmi şuralarında bilik və bacarıqların qiymətləndirilməsi sistemi mütəmadi olaraq müzakirə olunur, proseslərin izlənilməsi və təkmilləşdirilməsi üzrə qərarlar qəbul olunur. Təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşülən formada tələbələrə izah edilir, ATM-in daxili qaydalarına əsasən nizamlanır və tələbələr üçün informasiya bazasının əlçatanlılığı təmin edilir.

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

Ali təhsil pilləsinin bakalavriat və ya magistratura səviyyəsini bitirən məzunlara dövlət nümunəli təhsil sənədinin verilməsi və ya normativ təhsil müddətində təhsilini başa vura bilməyən şəxslərə müvafiq arayışın verilməsi qanunvericiliyin tələblərinə uyğun aparılır.

## *3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

Akademik heyətin peşəkarlıq səviyyəsindən asılı olaraq işə qəbulu, əmək müqavilələrinin (kontraktlarının) bağlanılması, vəzifədə irəli çəkilməsi, əmək funksiyalarının və əməyinin ödəniş dərəcələrinin müəyyən edilməsi, onların hüquq və vəzifələrini əks etdirən vəzifə təlimatları və attestasiyasının keçirilməsi qaydaları AR Əmək Məcəlləsinin, habelə “Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”nın tələblərinə cavab verir. UNEC-in rəsmi veb səhifəsində ayrıca vakansiya bölməsi olmasa da, akademik heyətinin işə qəbul və vakansiyalar barədə informasiyaya elan bölməsində rast gəlmək mümkündür (https://unec.edu.az/unec-de-xarici-dil-muellimlerinin-ise-qebuluna-start-verilir).

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

Akademik heyətin texnoloji səriştələrinin yüksəldilməsi üçün UNEC monitorinq qrupu tərəfindən “Dərs müşahidəsinin qeydləri üçün nəzərdə tutulmuş monitorinq blankı”nda müəllimin texnoloji və pedaqoji səriştələrini qiymətləndirən meyarlar mövcuddur.

UNEC-də akademik heyətin elmi və tədris fəaliyyəti səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarları özündə birləşdirən Differensial Əməkhaqqı Sistemi (DƏHS) mövcuddur. 2018/2019-cu tədris ilində “Azərbaycan Dövlət İqtisad Universitetində professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əmək haqqı sistemi haqqında qaydalar”a dəyişikliklər edilmişdir. Edilən dəyişikliklərdən “Professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsi qayda və prosedurları” maddə 3-də (https://news.unec.edu.az/images/news/2018/diffrensial-emek-haqqi-ucun-link.pdf) öz əksini tapmışdır. Belə ki, yenilənən qaydalara əsasən sistem üzrə elmi fəaliyyətlərin payı 40 faizdən 70 faizə yüksəldildmiş, tədris fəaliyyətlərinə (dərslər və tədris metodiki vəsaitlər) isə 30 faiz ayrılmışdır (https://news.unec.edu.az/xeber/125-universitet/4238-unec-de-differensial-emekhaggi-sistemi-ve-imtahanlarin-teshkilinde-yeni-gaydalar).

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

UNEC tərəfindən təqdim edilmiş sənədə (Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzinin məlumatları) əsasən 2019-cu ildən etibarən akademik heyətə interaktiv və aktiv tədris metodlarının, eləcə də distant tədris proseslərinin tətbiqinə yönəlmiş müxtəlif mövzularda təlimlər keçirilir. Keçirilmiş təlimlərdə akademik heyətin iştirak faizi və sayı verilmişdir. Peşəkar inkişaf cədvəlinin təhlilinə əsasən akademik heyət distant tədris prosesinin tətbiqinə yönəlmiş təlimlərdə (Distant dərslərin evdən keçirilməsi qaydaları - UNEC-in ümumi professor-müəllim heyətinin 100%, “Distant təhsildə tədrisin təşkili və metodik təminatı” - UNEC-in ümumi professor-müəllim heyətinin 92%-i) iştirak etmişdir. Akademik heyət üçün interaktiv və aktiv tədris metodlarının tətbiqinə dair təşkil olunmuş təlimlərdə də (Tələbələrin yaradıcı düşüncəsinə təsir edən metodların istifadəsi: Beyin xəritələri; Skeçlər; Keys (case); Rol oynama; In-basket - UNEC-in ümumi professor-müəllim heyətinin 12%, Auditoriyalarda liderlik və komandalarla işləmə bacarıqlarının tətbiq edilməsi - UNEC-in ümumi professor-müəllim heyətinin 12%-i, Seminar dərslərində tələbələrin bilik və bacarıqlarını qiymətləndirmə metodları - UNEC-in ümumi professor-müəllim heyətinin 12%-i, Tədris prosesində motivasiyanı təmin edən üsullar və onların tətbiqi - UNEC-in ümumi professor-müəllim heyətinin 12%-i, Dərsin refleksiya hissəsində istifadə olunan metodlar - yaddaş oyunu, sual qutusu, çıxış kartı - UNEC-in ümumi professor-müəllim heyətinin 12%-i) professor-müəllim heyətinin iştirakı təmin edilmişdir. İllər üzrə detallı məlumat Cədvəl 6-da verilmişdir. Cədvəlin təhlilinə əsasən akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş təlimlərin sistemli şəkildə keçirilməsinin təşkili tövsiyə olunur.

***Cədvəl 7. Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş təlimlərdə professor-müəllim heyətinin iştirakı***

| **İllər** | **UNEC üzrə** | **Akademik heyətin ümumi sayı** | **Pedaqoji səriştələrin artırılması üçün tədbirlərə (distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər) cəlb olunmuş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə)** | **Pedaqoji səriştələrin artırılması üçün tədbirlərə (interaktiv və aktiv tədris metodlarının tətbiqinə yönəlmiş sistemli təlimlər) cəlb olunmuş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə)** |
|---|---|---|---|---|
| 2016-2017 | UNEC | 955 | 0% | 0 % |
| 2017-2018 | UNEC | 881 | 0% | 13 % |
| 2018-2019 | UNEC | 858 | 0% | 12 % |
| 2019-2020 | UNEC | 871 | İKT sahəsində istifadəçi bacarıqlarının təkmilləşdirilməsi - 4%<br><br>Distant dərslərin evdən keçirilməsi qaydaları - 100%<br><br>“Distant təhsildə tədrisin təşkili və metodik təminatı” - 92% | 17% |
| 2020-2021 | UNEC | 854 | 0% | Gənc müəllimlər üçün “Pedaqoji fəaliyyətdə müasir tədris üsulları” - 34%<br><br>Məşğələ dərslərində biliyin qiymətləndirilməsi metodları - 80% |
| 2021-2022 | UNEC | 892 | 0% | 0% |

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

2019/20-ci tədris ilinədək akademik heyətin ixtisasartırma və digər təlim kurslarında iştirakı səviyyəsində yüksək fəallıq müşahidə olunmuşdur. Belə ki, ixtisasartırma kurslarına, təlimlərə və ya digər kurslara cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) orta hesabla 2016/17-ci tədris ilində 9,8%, 2017/18 – 12,8%; 2018/19 – 13,76% bərabər olmuşdur. Özünütəhlil Hesabatına əlavə olunmuş Excel faylın (8 saylı Peşəkar inkişaf)

məlumatlarının təhlili göstərir ki, pandemiya ilə əlaqədar olaraq növbəti tədris illərində azalma qeydə alınmış, 2021/22-ci tədris ilində 2,5% təşkil etmişdir. Struktur bölmələr üzrə ən yüksək fəallıq Türk dünyası işlətmə fakültəsi, Rus İqtisadiyyat Məktəbi, İqtisadiyyat fakültəsi, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, son illər isə Karyera planlaşdırılması və inkişafı kafedrasında qeydə alınmışdır.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

Struktur bölmələr üzrə beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında, mübadilə proqramlarında iştirak etmiş akademik heyətin nisbətən yüksək fəallığı Beynəlxalq İqtisadiyyat Məktəbi, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, Türk Dünyası İqtisad fakültəsi və UNEC Biznes Məktəbində qeydə alınmışdır. Ümumi akademik heyətin orta hesabla 2016/17-ci tədris ilində - 4,3%, 2017/18-ci ildə – 6%, 2018/19-cu ildə - 5,2%, 2019/20-ci ildə 0,7%, 2021/22-ci tədris ilində isə 1,6%-i beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak etmişdir.

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi məqsədilə UNEC rektorunun 207/1/2020-15.12.2020-ci il tarixli, 265/1/2021-17.11.2021-ci il tarixli və 217/1/2022-04.10.2022-ci il tarixli əmrlərinə əsasən müvafiq tədris illəri üzrə UNEC monitorinq qrupu, habelə ayrı-ayrı fakültə, məktəb və mərkəzlərdə monitorinq qrupları yaradılmışdır. Monitorinq qrupları tərəfindən dərs müşahidələri aparılır. Monitorinqin (dərs müşahidələri) nəticələri haqqında qeydlər aparmaq üçün Elektron blank (Google form) mövcuddur. Həmin forma dərsi 5 bənd: dərsin növü, müəllimin tələbələrlə ünsiyyət və diskussiya qurma səviyyəsi, mühazirə dərsinin keyfiyyəti, seminar dərsinin keyfiyyəti əsasında qiymətləndirir. Akademik heyətin tədris bacarıqlarını yoxlama formasının mövcudluğu və tətbiqi müsbət haldır. Dərslərin keyfiyyətini artırmaq, akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi üçün qoyulan sualların təkmilləşdirilməsi, UNEC monitorinq qrupunun kafedralar, məktəblər və mərkəzlər səviyyəsində fəaliyyətinin gücləndirilməsi tövsiyə olunur.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

2022/2023-cü tədris ili üçün kafedralar üzrə ümumi dərs yükü (SABAH mərkəzi və "Xarici dillər" kafedrası istisna olmaqla) aşağıdakı bölgü üzrə təsdiq edilmişdir (2022-ci il 21 oktyabr tarixli, №241/1/2022 saylı ƏMR). Kafedralar üzrə əsas dərs yükü 388318 saat təşkil etmişdir. Ümumi dərs yükünün 88,6%-i 749 professor-müəllim heyəti arasında bölüşdürülmüşdür. Qeyd edək ki, vakant dərs yükünün 41,3%-ni (18311) passiv yük (rəsmiləşdirilmiş dissertasiya işi üzrə rəhbərlik) təşkil etmişdir.

Bütövlükdə, dərs yüklərinin bölgüsü AR Nazirlər Kabinetinin 2010-cu il 24 noyabr tarixli, 215 saylı qərarı ilə təsdiqlənmiş “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” normativlərinə uyğun şəkildə həyata keçirilmişdir.

***Cədvəl 8. 2022/2023-cü tədris ili üçün UNEC-də professor-müəllim heyətinin kafedralar üzrə dərs yükü***

| № | Kafedralar | Yekun | Vakant[1] | |
|---|---|---|---|---|
| | | | yük | % [2] |
| 1 | Maliyyə və audit kafedrası | 24678 | - | - |
| 2 | İqtisadiyyat kafedrası | 29756 | - | |
| 3 | İctimai idarəetmə və sosial innovasiyalar kafedrası | 15851 | - | - |
| 4 | Riyaziyyat və statistika kafedrası | 18290 | - | - |
| 5 | Biznes və logistika kafedrası | 30758 | - | - |
| 6 | Tətbiqi iqtisadiyyat kafedrası | 31426 | - | - |
| 7 | Beynəlxalq iqtisadiyyat və biznes kafedrası | 12215 | 1815 | 14,9 |
| 8 | İqtisadiyyat və işlətmə kafedrası | 21370 | 570 | 2,7 |
| 9 | Dizayn kafedrası | 15820 | - | - |
| 10 | Rəqəmsal texnologiyalar və tətbiqi informatika kafedrası | 27454 | 1125 | 4,1 |
| 11 | Mühəndislik və tətbiqi elmlər kafedrası | 50045 | - | - |
| 12 | İqtisadi və texnoloji elmlər kafedrası | 37589 | 12572 | 33,4 |
| 13 | Biznesin idarə edilməsi kafedrası | 44990 | 28299 | 62,9 |
| 14 | Humanitar fənlər kafedrası | 12212 | - | - |
| 15 | Azərbaycan dili kafedrası | 8193 | - | - |
| 16 | Karyera planlaşdırılması və inkişafı kafedrası | 7671 | -- | - |
| **CƏMİ** | | **388318** | ***44381*** | ***11,4*** |

1. Bölünməmiş (vakant) dərs yükləri uyğun strukturların təqdimatı əsasında saathesabı qaydada rəsmiləşdiriləcəkdir.
2. Vakant dərs yükünün kafedranın ümumi yükünə faizlə nisbəti əsasında müəyyən edilir.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

2030-ci ilə qədər tədris prosesinin təhsilalanlarda zəruri bilik və bacarıqları formalaşdırmağa imkan verəcək səviyyədə təkmilləşdirilməsi strateji hədəf kimi göstərilmiş və bu hədəfə nail olmaq üçün hər müəllimə düşən tələbə sayının beynəlxalq standart olan 1/16 nisbətinə qədər azaldılması strateji fəaliyyətlərdən biri kimi müəyyən edilmişdir. Lakin, təhlil edilən dövr ərzində bu nisbət göstəricisi 1/19 səviyyəsindən 1/22 səviyyəsinə qədər yüksəlmişdir.




***Qrafik 5. Akademik heyət və təhsilalanların sayı***

Göründüyü kimi, fakültələr üzrə ən yüksək göstərici UNEC Biznes Məktəbində (1/67,5), Beynəlxalq magistratura və doktorantura mərkəzində (1/34), Maliyyə və mühasibat fakültəsində (1/33), Beynəlxalq iqtisadiyyat məktəbində (1/31), Biznes və menecment fakültəsində (1/28) qeydə alınmışdır.

***Cədvəl 9. Fakültələr üzrə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti (2021/22)***

| № | Fakültələr | Akademik heyətin sayı | Tələbə sayı | Akademik heyətinin tələbə sayına nisbəti |
|---|---|---|---|---|
| *1* | Beynəlxalq iqtisadiyyat məktəbi | 24 | 754 | 31,4 |
| *2* | Beynəlxalq magistratura və doktorantura mərkəzi | 38 | 1290 | 33,9 |
| *3* | Biznes və menecment fakültəsi | 74 | 2034 | 27,5 |
| *4* | İqtisadiyyat fakültəsi | 160 | 2251 | 14,1 |
| *5* | Maliyyə və mühasibat fakültəsi | 54 | 1788 | 33,1 |
| *6* | Mühəndislik fakültəsi | 96 | 1494 | 15,6 |
| *7* | Rəqəmsal iqtisadiyyat fakültəsi | 47 | 804 | 17,1 |
| *8* | Rus iqtisad məktəbi | 70 | 1421 | 20,3 |
| *9* | Türk dünyası işlətmə fakültəsi | 41 | 823 | 20,1 |
| *10* | UNEC Biznes Məktəbi | 32 | 2161 | 67,5 |
| *11* | UNEC Dizayn məktəbi | 21 | 482 | 23,0 |

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 69.6%-nin əsas iş yerini UNEC təşkil edir. Belə ki, 1097 nəfər professor müəllim heyətinin 231 nəfəri saat hesabı qaydada fəaliyyət göstərir, 761 nəfər professor-müəllim heyətinin əsas iş yeri UNEC-dir.

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

2020/2021-ci tədris ilindən etibarən UNEC-də yeni təhsil proqramları tətbiq olunmağa başlanılmışdır. Bununla əlaqədar kənardan professor-müəllim heyətinin cəlb edilməsi zəruri olmuşdur. Eyni zamanda, təhlil olunan dövr ərzində 2016/17-2021/22-ci tədris illəri üzrə tədris prosesinə cəlb edilmiş əcnəbi akademik heyətin ümumi akademik heyətdə payında (faizlə) nəzərə çarpacaq dəyişikliklər müşahidə olunmur, belə ki, əcnəbi akademik heyətin ümumi akademik heyətdə payı hesabat dövrü ərzində orta hesabla 0.83% təşkil etmişdir.

***Cədvəl 10. Tədris prosesinə cəlb edilmiş əcnəbi akademik heyətin ümumi akademik heyətdə payı***

| İllər | UNEC üzrə | Akademik heyətin ümumi sayı | Tədris prosesinə cəlb edilmiş əcnəbi akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) |
|---|---|---|---|
| 2016-2017 | UNEC | 955 | 0.95% |
| 2017-2018 | UNEC | 881 | 0.86 % |
| 2018-2019 | UNEC | 858 | 0.57% |
| 2019-2020 | UNEC | 871 | 1.1% |
| 2020-2021 | UNEC | 854 | 0.73% |
| 2021-2022 | UNEC | 892 | 0.79% |

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

UNEC professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsi məqsədilə 2015/16-cı tədris ilindən etibarən differensiallaşdırılmış əməkhaqqı sistemi tətbiq edilir. Xidməti fəaliyyətin qiymətləndirilməsi iki istiqaməti: elmi fəaliyyət (70%) və tədris fəaliyyətləri (30%) nəzərə alınmaqla həyata keçirilir. Professor-müəllim heyətinin xidməti fəsliyyətinin qiymətləndirilməsi üzrə Daimi Komissiya fakültə, kafedra və müəllimlərin reytinq siyahısını tərtib edir. Reytinq siyahısına uyğun olaraq professor-müəllim heyətinin vəzifə maaşlarına hər il üçün UNEC Elmi Şurası tərəfindən hər tədris ilinin əvvəlində müəyyən edilən əmsallar üzrə əlavələr edilir (https://news.unec.edu.az/tags/differensial-emekhaggi-sistemi).

***Cədvəl 11. Müəssisənin büdcəsi və DƏHS çərçivəsində ödənilmiş vəsaitin həcmi (manat)***

| Vəsait | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| UNEC-in gəlirləri | 49 773 394 | 42 439 338 | 51 465 613 |
| UNEC-in xərcləri | 52 703 068 | 53 639 061 | 46 289 990 |

| | | | |
|---|---|---|---|
| UNEC-də diferensial əməkhaqqı sistemi çərçivəsində vəzifə maaşlarına edilmiş əlavələrin ödənilməsi məqsədilə ayrılmış vəsaitin həcmi | 598.014 | 619.544 | 641.985 |
| DƏHS çərçivəsində ödənilmiş vəsaitin xərclərə nisbəti | 1.13% | 1.16% | 1.39% |

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

UNEC üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin ümumi akademik heyətdə payının illər üzrə təhlilinə əsasən (Peşəkar inkişaf, 8 saylı excel cədvəl) Türk dünyası işlətmə fakültəsi, Beynəlxalq iqtisadiyyat məktəbi, UNEC Biznes Məktəbi, Beynəlxalq magistratura və doktorantura mərkəzi, Rus iqtisad məktəbində qeyd edilmiş ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyəti üstünlük təşkil edir. Ümumilikdə, 2016/2017-2021/2022 tədris illəri üzrə əksər fakültə, mərkəz və məktəblər üzrə nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin sayında artım müşahidə olunur.

Maliyyə və mühasibat fakültəsində 2018/2019-cu tədris ilindən, Mühəndislik fakültəsi, Rəqəmsal iqtisadiyyat fakültəsi və UNEC Dizayn məktəbində 2020/2021-ci tədris ilindən etibarən Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti 0% təşkil edir. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyəti ümumilikdə UNEC üzrə 71 nəfər təşkil edir.

## *3.8 Tələbəyönümlü tədris*

### 3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

UNEC-də sahə səfəri çərçivəsində akademik məsləhətçilər və tələbələrlə aparılmış müsahibələrə istinadən təhsilanların fərdi tədris planlarının tərtib edilməsində iştirakının “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili” qaydalarına qismən uyğun aparılır.

Belə ki, təhsilverənlərin və seçmə fənlərin seçim azadlığının verilməməsi səbəbilə proses sadəcə tələbələrin FTP ilə tanış olması və imzalanma ilə yekunlaşır.

FTP tərtib edilərkən tələbələrlə birgə qərarvermə prosesinin aparılması, təhsilalanların seçmə fənləri akademik məsləhətçilərin dəstəyi ilə müəyyənləşdirməsi və eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və

Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" qanunun (https://e-qanun.az/framework/27030) tələblərinə uyğun olaraq FTP-nin bir nüsxəsinin təhsilalanlara təqdim edilməsi tövsiyə olunur.

### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

Sahə səfəri zamanı UNEC üzrə müxtəlif fakültələrdə fəaliyyət göstərən 24 akademik məsləhətçi və tələbələr ilə müsahibələr təşkil olunmuşdur. Müsahibələr zamanı yalnız SABAH qruplarında seçmə fənlərin tələbələr tərəfindən seçilməsinin təmin olunduğu məlum olmuşdur. Digər fakültələrdə tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilmədiyi müəyyənləşdirilmişdir.

Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçim sərbəstliyinin bütün fakültələr üzrə təmin olunması tövsiyə olunur.

### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

Akademik məsləhətçilər (tyutor) və tələbələrlə müsahibələr zamanı fakültələr üzrə tələbə sayının akademik məsləhətçi sayına nisbətinin müxtəlif olduğu müşahidə olunmuşdur. Akademik məsləhətçilər tələbələri müxtəlif kateqoriyalar (ixtisas, tədris ili) üzrə qruplaşdırmaqla onlarla işlərini təşkil edirlər. UNEC-də aparılmış müsahibələr zamanı təhsilalanlar tərəfindən təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin olunmadığı məlum olmuşdur.

Təhsilverənlərin və akademik məsləhətçilərin təhsilalanlar tərəfindən seçim sərbəstliyinin Bolonya prinsipinə uyğun olaraq təmin olunması tövsiyə edilir.

### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

Təqdim olunmuş sənədlər və görüşlər zamanı əldə edilmiş məlumatlara əsasən tələbələr və məzunlar arasında sorğuların keçirildiyi müəyyən olunmuşdur. Tələbələr tərəfindən hər semestrin sonunda "Eduman" platforması üzərindən "Məmnunluq anketi" cavablandırılır. Ümumilikdə tələbələr arasında tədrisin təşkilinə dair müxtəlif istiqmətlərdə: "Distant təhsil forması" və "Distant imtahanların keçirilməsi", "Laboratoriya dərslərinin keçirilməsi", "Dəvət edilmiş xarici professorlardan məmnunuluq", "Tədrisin modul sistemi üzrə keçirilməsindən məmnunluq", "Müəllimlərdən məmnunluq",  "Çevrilmiş" (Flipped Education) tədris metoduna uyğun fənlərin tədrisinə dair" mütəmadi olaraq sorğuların keçirildiyi müşahidə olunur.

Sahə səfəri zamanı və göndərilmiş sənədlər əsasında məlum olmuşdur ki, məzunlar arasında rəy sorğularının keçirilmə istiqamətləri və intensivliyi zəifdir.

Akademik məsləhətçilərin fəaliyyəti haqqında təhsilalanlar arasında, həmçinin məzunlar arasında prioritet təşkil edən istiqamətlərdə rəy sorğularının keçirilməsi tövsiyə olunur.

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

UNEC üzrə müxtəlif struktur əməkdaşları və tələbələrin təmsil olunduğu təşkilatlar və tələbələr ilə müsahibələr zamanı məlum olmuşdur ki, təhsialanlar və məzunların öz təkliflərini bildirmək üçün müvafiq struktur əməkdaşlarına (Tələbələrlə iş üzrə prorektor, TGT, THİK, Karyera mərkəzi) əlçatanlığı mümkündür. Belə ki, tələbələrin təmsil olunduğu təşkilatlar (TEC,TGT, THİK) və tələbə rektor vasitəsilə rəhbərlik tələbələrin təklif və rəyləri barədə məlumatlandırılır. Lakin təhsilalan və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklər haqqında müsahibələrdə müəyyən məlumatlar verilməsinə baxmayaraq, ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası ilə bağlı sənəd UNEC tərəfindən təqdim olunmamışdır.

UNEC-də tələbə və məzunların təklifləri əsasında yeniliklərin (qərarların) inkişaf dinamikasının izlənilməsi məqsədilə hesabatlılığının tətbiqi tövsiyə olunur.

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

Təqdim edilmiş sənədlər və müsahibələr əsasında təhsilalanlar arasında 3.8.4-cü indikatorda qeyd olunmuş istiqamətlərdə tədrisin keyfiyyətinə dair tələbə rəylərinin keçirildiyi müşahidə olunur. Hər semestrin sonunda EDUMAN platforması üzərindən tələbələr tərəfindən “Məmnunluq anketi” doldurur. Təhsilalanların “Məmnunluq anketi”ndə akademik heyəti qiymətləndirməsinin nəticələri professor-müəllim heyətinin differensiallaşdırılmış əməkhaqqı sistemində nəzərə alınır.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

UNEC təhsilalanlarının şikayət və təklifləri ATM-in rəsmi sosial şəbəkə hesablarından, akademik məsləhətçilər və tələbə rektor vasitəsilə rəhbərliyə çatdırılır. Eyni zamanda, təhsilalanların şikayət və təkliflərini öyrənmək üçün “Eduman” platformasından istifadə olunur. 2019-cu ilin aprel ayından fəaliyyət göstərən, əsas məqsədi tələbələrə vahid mərkəzə müraciət edərək təhsil haqqında arayışları, transkriptləri, eləcə də digər sənədləri qısa müddətdə əldə etmək olan “Bir Pəncərə” sistemi (https://news.unec.edu.az/xeber/125-universitet/5345-unec-telebelerine-innovativ-ve-operativ-xidmet-bir-pencere) vasitəsilə də tələbələrin şikayət və təklifləri daxil olur. Əlavə olaraq, tələbələr üçün “müəllimdən məmnunluq” anketinin (https://news.unec.edu.az/images/news/2018/diffrensial-emek-haqqi-ucun-link.pdf, səh.8) sonunda tələbələrin rəy və təklifləri üçün qeyd yeri mövcuddur.

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

UNEC tərəfindən təqdim olunmuş fakültə və kafedralara dair cari məlumatlar, Özünütəhlil Hesabatına əlavə olaraq təqdim olunmuş 4 saylı excel cədvələ əsasən fakültələr üzrə akademik məsləhətçilərin tələbələrə say nisbəti aşağıdakı kimidir:

***Cədvəl 12. Fakültələr üzrə akademik məsləhətçilərin tələbələrə say nisbəti***

| № | Fakültələr | Köməkçi heyət | Tələbə sayı | Bir akademik məsləhətçiyə düşən tələbə sayı |
|---|---|---|---|---|
| 1 | Beynəlxalq iqtisadiyyat məktəbi | 2 | 754 | 377 |
| 2 | Biznes və menecment fakültəsi | 4 | 1942 | 485 |
| 3 | İqtisadiyyat və idarəetmə fakültəsi | 5 | 2307 | 461 |
| 4 | Maliyyə və mühasibat fakültəsi | 3 | 1846 | 615 |
| 5 | Mühəndislik fakültəsi | 3 | 1416 | 472 |
| 6 | Rəqəmsal iqtisadiyyat fakültəsi | 2 | 991 | 495 |
| 7 | Rus iqtisad məktəbi | 3 | 1371 | 457 |
| 8 | Türk dünyası iqtisad fakültəsi | 2 | 907 | 453 |
| 9 | UNEC Dizayn məktəbi | 1 | 560 | 560 |
| 10 | SABAH mərkəzi | 2 | 567 | 283 |
| 11 | UNEC Qiyabi və əlavə təhsil mərkəzi | 3 | 1927 | 642 |
| 12 | UNEC Biznes Məktəb | 3 | 2465 | 821 |
| 13 | Beynəlxalq magistratura və doktorantura mərkəzi | 3 | 2012 | 670 |

UNEC üzrə 24 akademik məsləhətçi ilə aparılan müsahibələr zamanı fakültələrin əksəriyyətində akademik məsləhətçilərin kvalifikasiyalarının təhsilalanların ixtisaslarına uyğun olduğu müəyyən olunmuşdur. Lakin yuxarıdakı cədvəldən də göründüyü kimi bəzi fakültələrdə akademik məsləhətçilərin sayı ilə təhsilalanların sayının nisbəti arasında uyğunsuzluq var.

ATM-də təhsilanlara keyfiyyətli xidmət göstərilməsi məqsədilə bəzi fakültələr üzrə akademik məsləhətçilərin və təhsilalanların say nisbəti arasında uyğunsuzluğun aradan qaldırılması üçün müvafiq kvalifikasiyalara malik akademik məsləhətçilərin cəlb edilməsi tövsiyə olunur.

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

EDUMAN təhsil idarəetmə sisteminə yerində baxış, akademik məsləhətçilər və tələbələrlə müsahibələr zamanı “Eduman” platforması üzərindən təhsialanların təhsilverənlər, eyni zamanda akademik məsləhətçilər ilə kommunikasiyasının həyata keçirilməsi mümkün olduğu müşahidə olunmuşdur, belə ki, müəllim-tələbə, tələbə-tələbə, əməkdaş-əməkdaş kommunikasiya panelləri mövcuddur. Tələbələr və akademik məsləhətçilərlə müsahibələr zamanı tələbələrlə daha çox WhatsApp proqramı vasitəsilə kommunikasiya və məlumatlandırılmanın qurulduğu müəyyən olunmuşdur.

UNEC-də tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında kommunikasiyanın həyata keçirilməsi məqsədilə təhsilalanların EDUMAN platforması və korporativ elektron poçt ünvanlarından istifadə etmələri üçün təşviq edilməsi tövsiyə olunur.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

UNEC İnklüziv Təhsil Mərkəzinin 2015-ci il tarixli Fəaliyyət Konsepsiyası Akkreditasiya Komissiyasına təqdim olunmuşdur. Konsepsiyanın 3-cü bəndində İnklüziv Təhsil Mərkəzinin məqsədinin “Respublikada əlilliyi olan və ya həssas qrupdan olan gənclər üçün ali təhsilin keyfiyyəti və əlçatanlığını yaxşılaşdıracaq inklüziv təhsil üçün tam hüquqlu bir məkan yaratmaq” olduğu göstərilmişdir və bu məqsədə çatmaq üçün “3.1 İnformasiya, metodiki, elmi, tədris və məsləhət fəaliyyəti sahəsində”, “3.2 Analitik, ekspert və əlaqələndirmə fəaliyyəti sahəsində” yarım bəndləri üzrə qruplaşdırılaraq vəzifələr müəyyənləşdirilmişdir (İklüziv Təhsil Mərkəzinin Fəaliyyət Konsepsiyası sənədi, səh.3). Eyni zamanda, UNEC İnklüziv Təhsil Mərkəzi ilə müsahibə zamanı, ATM-də sağlamlıq imkanları məhdud şəxslərin tədris prosesinə inteqrasiyası üçün əlilliyi olan və sağlamlıq imkanları məhdud gəncləri ali təhsilə cəlb etmək və cəmiyyətə inteqrasiyasını təmin etmək üçün onlarla müxtəlif görüşlərin keçirildiyi müəyyənləşdirilmişdir (https://news.unec.edu.az/tags/elilliyi-olan-telebeler-uchun-merkez). İnklüsiv Təhsil Mərkəzi ilə görüş zamanı görmə məhdudiyyətli şəxslər üçün Brayl əlifbası ilə çap olunmuş kitabların mövcudluğu da müşahidə olunmuşdur.

### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

UNEC üzrə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 aprel tarixli “Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə qanuna” uyğun olaraq sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı təmin olunur. Eyni zamanda, Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) ilə müsahibə zamanı UNEC THİK tərəfindən sosial həssas qrupa aid olan tələbələrə il ərzində maddi yardım edildiyi müəyyənləşdirilmişdir.

### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

UNEC üzrə təhsilalanlara təqaüd imkanlarının yaradılması Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli “Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi” haqqında qanunla yanaşı, ATM-in öz daxili qərarları hesabına da təmin olunur. Tədris ili boyunca müxtəlif kateqoriyalarda fərqlənən, nəticələri yüksək olan, eyni zamanda yüksək bal ilə universitetə qəbul olmuş təhsilalanlara ATM tərəfindən əlavə təqaüd imkanları yaradılmışdır.

2015-ci il üzrə Elmi Şuranın 138 saylı qərarına əsasən müəyyən edilmiş təqaüdlərlərlə yanaşı, təhlil olunan dövr ərzində UNEC Elmi Şurasının 2018-ci il 28 fevral tarixli, 160 saylı qərarına uyğun olaraq “Beynəlxalq olimpiada və Respublika fənn olimpiadaları qalibi olub, UNEC-ə qəbul olmuş tələbəyə” bir semestr ərzində 100 AZN, Elmi Şuranın 2021-ci il 10 dekabr tarixli iclasının 181 saylı qərarına əsasən, “Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinin keçirilməsi ilə bağlı Tədbirlər Planı"nın icrası üzrə "Nizami ili" adlı sərgidə fəal iştirak etmiş 4 tələbəyə 1 semestr boyu aylıq 100 AZN məbləğində təqaüd təsis edilmişdir.

### *3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

#### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

UNEC-də tədris prosesinin monitorinqi məqsədilə UNEC rektorunun 207/1/2020-15.12.2020-ci il tarixli, 265/1/2021-17.11.2021-ci il tarixli, 217/1/2022-04.10.2022-ci il tarixli əmrlərinə əsasən müvafiq tədris illəri üzrə UNEC monitorinq qrupu, habelə ayrı-ayrı fakültə, məktəb və mərkəzlərdə monitorinq qrupları yaradılmışdır. Təhsil proqramlarının monitorinqi strategiyası və fəaliyyət planları ilə bağlı UNEC Elmi Şurasının 2022-ci il 16 sentyabr tarixli, 184 saylı qərara əsasən kafedra şuralarının və kafedralar üzrə ixtisas şuralarının fəaliyyətini əks etdirən qaydalar təsdiq edilmişdir (https://news.unec.edu.az/xeber/125-universitet/9144-unec-in-elmi-shurasinda-yeni-gerarlar-gebul-edildi). Təhsil proqramlarının monitorinqi strategiyası və fəaliyyət istiqamətləri ilə bağlı kafedra şurası və ixtisas şuralarının yeni yarandığını nəzərə alsaq, fənlər və ixtisaslar üzrə UNEC-də vəsaitlərin hazırlanması, təkmilləşdirilməsi, hesabatlılığın təmin olunması, ümumilikdə keyfiyyətin artırılması istiqamətində ixtisaslar üzrə müvafiq işlərin görülməsi nəzərdə tutulur.

#### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

2017/2018 və 2018/2019-cu illər üzrə UNEC tərəfindən təqdim olunmuş fənn proqramları 2020-ci ilə qədər tətbiq olunmuş fənn proqramları standartlarına uyğun hazırlanmışdır. 2020-ci ildən etibarən Elm və Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş yeni təhsil proqramları əsasında yeni fənn proqramlarının hazırlanması nəzərdə tutulmuşdur. 2021/2022-ci tədris ili üzrə UNEC 11 fənn proqramı təqdim etmişdir. 10 fənn proqramında fənn üzrə təlim nəticələri Blum taksonomiyasına əsaslanmır, ümumi və ixtisas (peşə) kompetensiyaları öz əksini tapmamışdır. Təqdim olunmuş fənn proqramlarından yalnız birində - “Karyera planlaması” fənni üzrə tədris proqramında FTN-in PK-a uyğunluğu cədvəli verilmişdir. Bu proqramda müəyyənləşdirilmiş fənn üzrə təlim nəticələri hazırlanarkən idraki taksanomiyaya əsaslanmamışdır. Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarını təmin etmək üçün fənn proqramları üzrə təlim nəticələri müəyyənləşdirilərkən tələbələrdə məntiqi, tənqidi, yaradıcı təfəkkürün inkişafını təmin edən Blum taksanomiyasının pillələrinin (bilik, anlama, tətbiq, təhlil, sintez, qiymətləndirmə) və ya L.Anderson və D.Krasvol (2001) Blum taksanomiyasının

təkmilləşdirilmiş formasının mərhələləri (xatırlamaq, anlamaq, təhlil etmək, tətbiq etmək, dəyərləndirmək, yaratmaq) nəzərə alınaraq hazırlanması məqsədəuyğundur.

UNEC tərəfindən təqdim olunmuş işçi tədris proqramı (sillabus) nümunələrinin təhlilinə əsasən sillabuslar tərtib olunarkən, fənn proqramlarının və fənn üzrə təlim nəticələrinin (FTN) nəzərə alınması tövsiyə olunur.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

Daxili keyfiyyət təminat sisteminin fəaliyyətinin əsas istiqamətlərindən biri tədris edilən fənn proqramlarının müvafiq sahə üzrə aparılan son tədqiqat nəticələrinə (elm sahəsindəki qabaqcıl nailiyyətlərə) və cəmiyyətin dəyişən ehtiyaclarına uyğunluğunu müəyyən etmək və mütəmadi təhsil proqramlarının monitorinqini həyata keçirməkdir. Tədrisin Metodiki və Keyfiyyət Təminatı Mərkəzi tərəfindən hər semestr UNEC-də tədris edilən fənlərin monitorinqi həyata keçirilir, tədris işləri üzrə prorektorluq qarşısında hesabatlılığı təmin edilir. Tədris işləri üzrə prorektor tərəfindən dərslər üzrə keçirilmiş monitorinqlər barədə universitet rektoruna xidməti məlumat verilir və aşkarlanan çatışmazlıqların aradan qarldırılması ilə əlaqədar tədbirlər planı işlənib hazırlanır. Keçirilən monitorinqlərin əsas məqsədi müəllimin tələbələrlə ünsiyyət səviyyəsini (tələbələri aktivləşdirmək bacarığı, suallara cavab vermək bacarığı, çətin məsələlərə aydınlıq gətirmək) qiymətləndirmək, keçirilən mövzuların təqvim tematik plana uyğunluğunu yoxlamaqdır. Bundan əlavə monitorinqlər mühazirə dərslərinin (müəllim dərsi nə qədər maraqlı və əlçatan təqdim edir? nəzəri biliklərin praktikada tətbiqi ilə bağlı nümunələr göstərirmi?), seminar dərslərinin (müzakirələr; Quizz Kahoot; araşdırma-tədqiqat, qrup qiymətləndirməsi, kiçik qruplarda iş (teamwork), işgüzar oyunlar, xüsusi nümunələrin (case-study) öyrənilməsi və təhlili kimi vasitələrdən istifadə olunurmu?) təqdimatların (slaydların) keyfiyyətini qiymətləndirməyə imkan verir.

Keçirilən monitorinqlər tədrisin keyfiyyəti ilə bağlı potensial riskləri müəyyən etsə də, təhsil və fənn proqramları üzrə təlim nəticələrinə nəzarət üçün yetərli mexanizm deyil. Belə ki, audit sorğu cədvəli və dərslərin necə keçirilməsini müəyyən etmək üçün hazırlanan blanklarda qoyulan suallar fənn proqramları üzrə təlim nəticələrinin təhsil proqramlarına uyğunluğunu müəyyən etməyə imkan vermir. Hesab edilir ki, yeni yaradılan ixtisas şuraları təhsil proqramları üzrə keyfiyyətin təminatına məsul struktur kimi proqrama daxil olan fənlərin məqsəd və nəticələrinin milli və beynəlxalq tələblərə uyğunluğunu, mənimsəmə nəticələrinin qiymətləndirilməsinə nəzarəti həyata keçirməlidirlər.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

UNEC-də ayrı-ayrı təhsil proqramları üzrə illik özünüqiymətləndirmə hesabatları hazırlanmasa da, tədrisin təşkilinə və imtahan sessiyasının nəticələrinə dair hesabatlar tərtib edilir və onların Elmi Şurada müzakirəsi təmin edilir. Bundan əlavə, mövcud mərkəz, fakültə və kafedraların illik fəaliyyətini özündə əks etdirən hesabatlar hazırlanır və onların Fakültə Elmi Şurasında müzakirə edilir.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

Təhsil proqramları təlim nəticələri və məzmun standartlarını, tədris fənlərini, təlim nəticələrinin qiymətləndirilməsi sistemini özündə əks etdirən dövlət sənədidir. Yeni təhsil proqramlarının hazırlanması ilə əlaqədar AR Elm və Təhsil Nazirinin 2020-ci il 11 mart tarixli, F-172 nömrəli əmri ilə təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi ilə əlaqədar "İqtisadiyyat və idarəetmə" ixtisasları üzrə komissiya yaradılmışdır. Komissiyaya sədrlik professor Ə. Muradov tərəfindən edilmiş, tədris proqramları UNEC-in işçi qrupları tərəfindən hazırlanmışdır. Komissiyanın iclaslarında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Dövlət Statistika Komitəsinin, AR Maliyyə Nazirliyinin, Mərkəzi Bankın, SOCAR AQŞ MMC, KPMG, Kapital Bank, Ernst and Young, Baker Tilly, Deloitte şirkətinin nümayəndələri iştirak etmişdir. Yeni tədris proqramları əmək bazarının tələblərinə uyğunlaşdırılmış, tədris planlarında seçmə fənnlərin sayı artırılmışdır. Bu məqsədlə, tədris prosesində biznes dünyasının ehtiyaclarına xidmət edən qısa müddətli sertifikat proqramlarının tətbiq edilməsi və onların fənn əvəzlənməsinin həyata keçirilməsi tövsiyə olunur.

Qeyd etmək lazımdır ki, UNEC-də iqtisadiyyat ixtisasların təhsil proqramlarında nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin 70%-nin uyğunluğu təmin edilmişdir. Bu isə ixtisaslar üzrə əlavə təhsil (MİNOR) və Universitet daxili iki diplom proqramlarının (UDİD) tətbiqinə imkan yaratmışdır. UDİD Proqramının məqsədi bakalavriat səviyyəsində təhsil aldıqları ixtisasla yanaşı, ikinci ixtisas üzrə də əlavə təhsil almaqla bakalavr dərəcəsi əldə etməkdir.

UNEC-də ixtisaslar üzrə tədris proqramlarının 4 dildə tədrisi təşkil edilir. Sahə yoxlamaları zamanı müəyyən edilmişdir ki, ixtisaslar üzrə ingilis və azərbaycan bölməsi üzrə "Xarici dildə işgüzar və akademik kommunikasiya fənni (XDİAK)" səviyyələr üzrə vahid fənn proqramı və akademik yüklə tədris edilir. XDİAK fəninin tədrisi üçün nəzərdə tutulmuş 15 kredit (345 saat) ingilis və azərbaycan bölməsi üzrə 4 semestr üzrə (I-III semestr. – (4 kr.) 90 saat, IV semestr. – (3 kr) 75 saat) tədris olunur. Hazırlıq proqramının olmaması, ingilis bölməsinə qəbul olan tələbələrin dil biliklərinin zəif olması I kurs üzrə tədris olunan (ADİAK və Azərbaycan tarixi fənləri istisna) fənlərin tələbələr tərəfindən mənimsənilməsini çətinləşdirir. İngilis və azərbaycan bölməsinə xarici dilin tədrisinə fərqli yanaşmanın müəyyən edilməsi, ingilis bölməsi üzrə müvafiq fənnə ayrılmış 15 kr. – 2 semestr üzrə daha sürətlənmiş proqramla tədrisi tövsiyə olunur.

Mövcud təhsil proqramlarını beynəlxalq akkreditasiya qurumlarının tələblərinə uyğunlaşdırmaq UNEC-in strateji fəaliyyətlərindən biridir (Strateji hədəf 1.3. 2030-cu ilə qədər UNEC-in bütün təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçməsini təmin etmək). 2022/23-cü tədris ili üzrə UNEC-də bakalavriat səviyyəsində 22 ixtisas, magistratura səviyyəsində 20 (61 ixtisaslaşma) ixtisas, MBA Proqramında Biznesin idarə edilməsi 29 ixtisaslaşma üzrə qəbul həyata keçirilmişdir. İxtisas və ixtisaslaşmalar arasında yalnız Biznes Məktəbinin MBA Proqramının mühasibat ixtisaslaşmasının 2018-2022-ci illər ərzində ACCA (Diplomlu və Sertifikatlı Mühasiblər Assosiasiyası) təşkilatı tərəfindən akkreditasiyası

keçirilmişdir. Strateji hədəf 1.3-ə nail olmaq məqsədilə UNEC-in beynəlxalq akkreditasiya qurumları ilə əlaqələrinin yaradılması, bütün təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçirilməsi üçün müvafiq mexanizm və və fəaliyyət planının hazırlanması tövsiyə olunur.

### *3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

#### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

UNEC-ə sahə səfəri zamanı Karyera mərkəzinin mövcudluğu vəziyyəti və fəaliyyət istiqamətlərinin əhatəliliyinin müəyyənləşdirilməsi məqsədi ilə müvafiq struktur bölmənin nümayəndələri ilə müsahibələr keçirilmişdir. Məlum olmuşdur ki, UNEC-də Karyera Mərkəzi 26 noyabr 2008-ci tarixində yaradılmış və 751/3/2016 saylı 2016-cı il 2 noyabr tarixli əmrlə təkmilləşdirilmişdir. Karyera Mərkəzi verilən səlahiyyətlər çərçivəsində ali təhsilin bütün səviyyələrində təhsilalanlar və məzunların karyera inkişafı və məşğulluğunun tənzimlənməsinə yardım göstərir. Mərkəz öz fəaliyyətini mövcud qanunvericiliyə uyğun olaraq dövlət, özəl və xarici müəssisələrlə bağlanmış memorandumlar əsasında həyata keçirir.

UNEC-də kadr hazırlığı həyata keçirilən ixtisaslar üzrə məzunların əmək bazarında işlə təmin olunması istiqamətində ali təhsil müəssisəsinin müvafiq struktur bölmələri tərəfindən davamlı olaraq təhlil və araşdırmalar aparılır. Pedaqoji təcrübəyə malik əmək bazarını təmsil edən mütəxəssislərin tədris prosesinə cəlb edilməsinə üstünlük verilir. Sözügedən fəaliyyətlər Karyera Mərkəzi tərəfindən daha səmərəli həyata keçirilir.

#### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

UNEC-də tələbə və məzunlara karyera məsləhət xidmətləri 2008-ci il 26 noyabr tarixində yaradılmış Karyera Mərkəzi tərəfindən həyata keçirilir.

2021/2022-ci tədris ili üzrə Karyera Mərkəzi tərəfindən təqdim olunmuş hesabata əsasən ölkədə fəaliyyət göstərən 27 iri holdinq və müəssisələrlə əməkdaşlıq haqqında memorandumlar imzalanmışdır:

1) AR ƏƏSMN Dövlət Məşğulluq Agentliyi (Memorandum 2022-ci il 4 mart tarixində imzalanmışdır) – UNEC məzunlarının məşğulluğunun izlənilməsi barədə statistikanın təhlil edilib göndərilməsi; “Qeyri-formal məşğulluğun aradan qaldırılması” mövzusunda təlimlərin keçirilməsi; Birgə layihələrlə bağlı elanların, xəbərlərin UNEC-in internet resurslarında paylaşılması; DMA-nın təşkilatçılığı ilə UNEC-də 2022/2023-cü ilin fevral ayında “Əmək Yarmarkası”nın keçirilməsi. Keçirilmiş tədbirlərin nəticələri ATM-in rəsmi veb saytında yerləşdirilmişdir (https://news.unec.edu.az/xeber/105-telebe/8716-unec-telebeleri-uchun-postpandemiya-dovrunde-biznes-istigametlerine-hesr-olunan-telim-kechirilib); https://news.unec.edu.az/elan/89-taelim/9266-unec-telebeleri-uchun-kortopativ-telim-geyri-formal-meshgullugun-aradan-galdirilmasi);

2) “Azərbaycan Dəmir Yolları” QSC (Memorandum 2022-ci il 11 may tarixində imzalanmışdır) - UNEC tələbə və məzunlarının cəlbi üçün təcrübə proqramları həyata keçirilmişdir;

3) “Coca Cola” Bottlers MMC (Memorandum 2022-ci il 13 iyun tarixində imzalanmışdır) - Coca Cola şirkətinə infoturların təşkili və tələbələrin istehsalat təcrübəsindən kənar təcrübə

proqramlarına cəlbi həyata keçirilir (https://news.unec.edu.az/xeber/105-telebe/9397-sabah-merkezinin-gida-muhendisliyi-ixtisasi-uzre-telebeleri-coca-cola-nin-istehsali-ile-tanish-olublar);

4) “PAŞA Həyat Sığorta” ASC MMC (Memorandum 2022-ci il 13 iyun tarixində imzalanmışdır) – UNEC tələbələri üçün Paşa Həyat Sığortanın ofisində infosessiya keçirilmişdir: (https://news.unec.edu.az/xeber/105-telebe/9331-unec-telebeleri-pasha-heyat-sigortada-infosessiyada-olublar);

5) Müdafiə Sənayesi Nazirliyinin Elmi Tədqiqat İnstitutu (Memorandum 2022-ci il 22 sentyabr tarixində imzalanmışdır) – UNEC-in 3 saylı tədris binasında Rəqəmsal Tədqiqat Mərkəzinin layihəsinin hazırlanması (https://news.unec.edu.az/xeber/125-universitet/9395-tika-nin-numayendeleri-unec-de-olub).

2021/2022-ci tədris ilində Karyera Mərkəzinin təşəbbüsü ilə 72 təcrübə proqramı və seminarlar keçirilmişdir.

Qeyd etmək lazımdır ki, UNEC 2021-ci ildə 3, 2022-ci ildə 3, 2023-cü ildə isə 4 beynəlxalq təhsil sərgisində təmsil olunmuşdur.

2021-ci il 28-29 iyun tarixlərində keçirilən XIV UNEC Karyera Yarmarkası çərçivəsində Virtual “Endless Fairs” Karyera platforması (https://karyerayarmarkasi.unec.edu.az/home) yaradılmışdır. “Endless Fairs” platforması vasitəsi ilə 120 şirkət qeydiyyatdan keçərək yarmarkada iştirak edən 4002 məzuna aktiv iş təklifi təqdim etmişdir. Yarmarkanın keçirilmə tarixindən bir ay sonrakı nəticələrə əsasən 708 məzun təcrübəçi olmaq imkanı əldə etmiş və 564 məzun işlə təmin olunmuşdur. Platforma il boyu aktivdir və məzunların məşğulluğunun təmin olunması prosesi davam etdirilir. Platformanın əsas üstünlükləri vaxt itkisinə qənaət, daha çox məzun və şirkət əməkdaşlarının nəqliyyat və digər vəsaitlərə xərc sərf olunmadan karyera yarmarkasında virtual iştirakı və statistikanın zamanında bilinməsidir.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Karyera Mərkəzi tərəfindən məzunlarla əlaqə bir neçə istiqamətdə qurulur. 2019-cu ildən etibarən UNEC Virtual Əmək Birjası portalı (https://job.unec.edu.az/az) fəaliyyət göstərir. Portalda qeydiyyatdan keçən hər bir məzun UNEC-lə əməkdaşlıq edən müəssisələr tərəfindən yerləşdirilən aktiv vakansiya və təcrübə proqramlarına cəlb olunur. Portal məzunların ixtisasına uyğun işlə təmin olunması məqsədilə yaradılmışdır.

2016-2022-ci illər üzrə UNEC məzunlarının Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək Məşğulluq” altsistemində qüvvədə olan əmək müqavilələrinin təhlili nəticəsində müəyyən olunmuşdur ki, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzindən məzun olan 1.731 magistrdən 1.258 nəfərin (72,6%), Biznes Məktəbindən məzun olan 3.797 magistrdən 2.592 nəfərin (68,2%), ayrıca fəaliyyət göstərən Magistratura Mərkəzindən məzun olan 1.033 magistrdən isə 706 nəfərin (68,3%) hal-hazırda aktiv əmək müqaviləsi mövcüddur.

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

UNEC-in Özünütəhlil Hesabatında qeyd olunur ki, təhsil proqramlarının hazırlanması prosesinə əmək bazarının nümayəndələri dəvət olunmuş və işəgötürənlərin tövsiyələri nəzərə alınmışdır. Təhsil Proqramlarında “Karyera planlaması”, “Yumşaq bacarıqlar (Soft skills)”, “Sərt bacarıqlar (Hard skills)” kimi fənlərin tədrisi nəzərdə tutulmuşdur ki, bu fənləri əsasən əmək bazarının iştirakçıları tədris edirlər.

Məzunların məşğulluğunun öyrənilməsi ilə bağlı UNEC tərəfindən sorğuların keçirilməsi üçün Universitetin rəsmi saytında link yaradılmışdır: https://news.unec.edu.az/elan/10101-telebelerin-nezerine/9497-unec-mezunlarinin-nezerine-sorgu-kechirilir

Sorğu linki: https://forms.gle/pQdSj38LEbhXUGWj7

Məzunların təhsil aldıqları müddətdə UNEC-də təhsil proqramı çərçivəsində əldə etdikləri nəzəri biliklərin məzun olduqdan sonra karyera quruculuqlarındakı rolunun araşdırılması məqsədilə UNEC Karyera mərkəzi tərəfindən mütəmadi olaraq “Sorğu”lar (https://forms.gle/2vC2gsuYLDYK4ye49) keçirilir. “Sorğu” (məzunların təhsil aldıqları müddətdə əldə etdikləri biliklərin cari iş həyatındakı rolu yaxud çatışmazlığı, fənlərlə bağlı rəylərin öyrənilməsi üzrə) sualları əhatə edir. Bununla yanaşı, əməkdaşlıq olunan fəxri məzunlara e-mail vasitəsilə “Sorğu” göndərilərək geri dönüş edənlərin sorğu cavabları təhlil edilir.

UNEC-də təhsil proqramlarından məmnunluq səviyyəsinin təhlili sahəsində məzunlar arasında sorğuların aparılması üzrə üsullar müəyyən edilsə də, bu prosesin obyektiv məlumatların əldə edilməsi və məmnuniyyətin effektiv ölçülməsini təmin etmədiyi müəyyənləşdirilmişdir.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

UNEC məzunlarını davamlı izləmək üçün UNEC Extern Mərkəzinin EDUMAN mərkəzləşdirilmiş portalına istinadən məzunların e-mail ünvanlarına “Sorğu” göndərilməklə əlaqə yaradılır. Bununla yanaşı, 2022/2023-cü tədris ilində UNEC Məzunlar Asossiasiyasının yaradılması və məzunlarla əlaqələrin koordinasiyanın genişləndirilməsi ilə əlaqədar 2022-ci il 18 noyabr tarixli, 260/1/2022 saylı əmrə əsasən işçi qrup yaradılmışdır.

Sahə səfəri çərçivəsində məzunların işlə təmin olunma göstəricilərinə (ixtisasa uyğun/uyğun olmayan əmək fəaliyyətinə başlamış məzunlar barədə məlumatlar) baxış keçirilmişdir.

2021-ci il iyun ayında keçirilən XIV UNEC Karyera Yarmarkasında Virtual “Endless Fairs” Karyera platforması yaradılmışdır. Yarmarkanın keçirilmə tarixindən bir ay sonrakı nəticələrə əsasən 708 məzun  təcrübəçi olmaq imkanı əldə etmiş, 564 məzun isə işlə təmin olunmuşdur.

# 4. ELMİ TƏDQİQAT

## 4.1 Elmi-tədqiqat strategiyası

### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

ATM-in elmi-tədqiqat sahəsində strateji məqsəd və müvafiq hədəfləri “UNEC-100” İnkişaf Strategiyası sənədində əks olunmuşdur və aşağıdakılardır:

Strateji məqsəd 2. Tədqiqat universitetinə çevrilmək

- 2.1. 2030-cu ilə qədər magistratura və doktorantura təhsilini tamamilə mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırmaq;
- 2.2. 2030-cu ilə qədər milli və beynəlxalq səviyyədə yüksək reytinq qazanmış ən azı bir “beyin mərkəzi” yaratmaq;
- 2.3. 2030-cu ilə qədər sifarişlər və qrantlar əsasında yerinə yetirilən tədqiqat layihələrinin sayını hər il artırmaq və UNEC büdcəsinin 20%-nə çatdırmaq;
- 2.4. 2030-cu ilə qədər “Web of Science” və “Scopus” elmi platformalarına daxil olan ən nüfuzlu nəşrlərdə çap edilən məqalələrin sayını hər il artırmaq və ölkədə lider universitetlər səviyyəsinə yüksəltmək;
- 2.5. 2030-cu ilə qədər elmi məruzələri “Web of Science” və “Scopus” bazalarına daxil edilən ən azı 2 nüfuzlu beynəlxalq elmi tədbiri (konfrans, konqres, forum və.s.) təsis və təşkil etmək;
- 2.6. 2030-cu ilə qədər “Web of Science” və “Scopus” bazalarına daxil olan ən azı 3 elmi jurnala sahib olmaq;
- 2.7. 2030-cu ilə qədər hər il bir dəfə iqtisadçı tələbələrin nüfuzlu beynəlxalq tələbə elmi konfransını təşkil etmək.

Qeyd olunan məqsəd və hədəflər UNEC-in 2030-cu ilədək dünyanın ən yaxşı 500 universiteti sırasında olmasına nail olmaq məramına istiqamətlənsə də, uzunmüddətli perspektivi ehtiva edir. Akkreditasiya Komissiyasına təqdim olunmuş “UNEC-100” Strategiyasının icrası ilə əlaqədar sənəddə baza ili 2021-ci il göstərilmişdir. Bu sənəd növbəti bir il üçün hədəflər müəyyən olunmaqla yenilənir. Bu baxımdan, Universitetin göstərilən strateji məqsəd və onun 7 hədəfi üzrə 2023-2030-cü illəri əhatə edəcək strateji fəaliyyət planı yoxdur. Qeyd olunanlar Universitetin elmi-tədqiqat strategiyasının təkmilləşdirilməsinə ehtiyac olduğunu ehtiva edir və 4.1.1 indikatoruna qismən uyğunluğu göstərir.

### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

“UNEC-100” İnkişaf Strategiyasında elmi-tədqiqat istiqamətində uzunmüddətli perspektivdəki məqsəd “Tədqiqat universitetinə çevrilmək”dir. Bu məqsəd və onunla bağlı hədəflər Universitetin dünyanın 500 ən yaxşı universiteti arasına düşməklə bağlı missiyası ilə uzlaşır və 4.1.2 indikatora uyğunluğunu göstərir.

### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

UNEC-in Özününtəhlil Hesabatında hesabat dövrünə aid 2016-2017-ci və 2018-2019-cu illlərdə elmi-tədqiqat üzrə aşağıdakı strateji istiqamətlərin müəyyən olunması qeyd edilmişdir:

- Universitetin kafedraları arasında elmi əlaqələri gücləndirərək təsərrüfat hesablı müqavilə ilə elmi tədqiqat işlərinin yerinə yetirilməsi üzrə fəaliyyətin təşkili;
- Professor-müəllim heyətinin elmi-tədqiqat və müdafiə olunmuş dissertasiya işlərindəki mühüm elmi nəticələrinin istehsalatda tətbiqinin həyata keçirilməsi;
- UNEC-in professor-müəllim heyətinin nüfuzlu jurnallarda məqalələrinin çap olunmasının təşviqi;
- Yerinə yetirilən dissertasiya işlərindən əldə olunan nəticələrin kafedralar tərəfindən hazırlanan müvafiq fənn proqramlarında, mühazirə mətnlərində və təqdimat slaydlarında öz əksini tapması;
- Tədqiqat mərkəzlərinin yaradılması;
- Universitet əməkdaşlarının nəşr aktivliyinin tənzimlənməsi məqsədi ilə nüfuzlu elmmetrik platformalarda indekslənən jurnallarda və ya konfrans kitablarında çap olunan elmi əsər sayının artırılması;
- Yeni qrant layihələrinin cəlb olunması və elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi mexanizmi olan qrant müsabiqələrinin təsis olunması;
- Magistratura səviyyəsində ixtisaslaşmaların beynəlxalq akkreditasiyası;
- Anti-plagiat sistemindən istifadə edilməsi;
- UNEC-də dəvətli tədqiqatçı statusunun müəyyənləşdirilməsi ilə əlaqədar qaydaların hazırlanması;
- UNEC üzrə elmi mükafatların təsis edilməsi və ildə bir dəfə olmaq şərti ilə UNEC-də beynəlxalq nüfuzlu konfransın, fakültələrdə isə daimi ixtisaslaşmış konfransların təsis edilməsi.

2019-cu ildən etibarən isə, elmi-tədqiqat siyasəti “UNEC-100” İnkişaf Strategiyası çərçivəsində dünyanın 500 ən yaxşı universitetinə çevrilmək məramına yönəlmiş və uyğun məqsəd və hədəflər müəyyənləşdirilmişdir (4.1.1 bənd). Hesabat dövrünü əhatə edən 2019-cu ildən əvvəlki (2016-2019) və sonraki (2019-2022) müddətlər üçün elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunması ayrıca elmi-tədqiqat strategiyası şəklində olmasa da, elmi-tədqiqat sahəsində ümumi strateji məqsədə xidmət etmişdir.

### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

“UNEC-100” İnkişaf Strategiyasında elm-tədqiqat istiqamətində müəyyən olunmuş məqsəd 2030-cu ilədək “Tədqiqat universitetinə çevrilmək”dir. Bu məqsəd UNEC-in dünyanın

500 ən yaxşı universiteti sırasına düşmək məramına uyğundur. Digər tərəfdən, Universitetdə müxtəlif tədqiqat mərkəzləri və laboratoriyalar yaradılmışdır ki, bunlar da qarşıya qoyulmuş məqsədə çatılmasına xidmət edir. Son illərdə Universitetin “Web of Science” və “Scopus” elmi platformalarına daxil olan elmi nəşrlərdə dərc olunan məqalələrinin sayı atmaqdadır və məqsədə nail olunmasına töhfə verir. Nəhayət, “Differensial Əmək Haqqı Sistemi” mexanizmi tədqiqatların artırılmasını təşviq edir və Universitetin elmi potensialının güclənməsinə xidmət edir.

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

Özünütəhlil Hesabatında elmi-tədqiqat fəaliyyətinin tədris prosesinə inteqrasiyasının əsasən UNEC-in professor-müəllim heyətinin müəllifi olduğu monoqrafiya, dərslik, dərs vəsaiti və proqramlar vasitəsilə həyata keçirildiyi qeyd olunmuşdur. Lakin 4.1.5-ci indikator strategiya sənədi baxımından elmi-tədqiqat fəaliyyətinin təlim-tədris prosesinə inteqrasiyasını ehtiva edir. Bu baxımdan, Özünütəhlil Hesabatında “UNEC-100” İnkişaf Strategiyasının bu mövzuya aid olan 2.1, 2.2, 2.3 və 2.4 strateji hədəflərinin icrası istiqamətində görülmüş işlər qeyd edilməli idi.

### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, UNEC-in professor-müəllim heyətinin performansı aşağıdakı mexanizmlər vasitəsilə tənzimlənir və hesabat dövründə tətbiq edilmişdir:

- UNEC-də Qonaq Alimin statusu və fəaliyyəti haqqında qaydalar;
- UNEC professoru və dosenti vəzifələrinin tutulması haqqında qaydalar;
- UNEC professor-müəllim heyəti üzvlərinə "Tədqiqatçı" statusunun verilməsi haqqında qaydalar;
- Xaricdə tədqiqat aparmaq üçün dəvət almış professor-müəllim heyətinin əmək haqqı qaydaları;
- Differensial Əmək Haqqı Sistemi;
- Nüfuzlu elmi nəşrlərdə əsərləri çap edilən UNEC əməkdaşlarının mükafatlandırılması haqqında qaydalar.

Qeyd olunan mexanizmlər cari performans qiymətləndirmə sistemləridir və “UNEC-100” İnkişaf Strategiyasında ayrıca qeyd olunmamışdır.

### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

Elmi-tədqiqatla bağlı Strateji məqsəd 2-ni özünə daxil edən "UNEC-100" İnkişaf Strategiyası ATM-in rəsmi internet saytında yerləşdirilmiş və sənədin əlçatanlığı təmin olunmuşdur:

(https://unec.edu.az/application/uploads/2019/09/UNEC_-_100_inkisaf_strategiyasi.pdf).

"UNEC-100" Strategiyasının tərkib hissəsi olan elmi-tədqiqat istiqaməti üzrə məqsəd və hədəflər ilə hər kəsin tanış olması üçün müvafiq olaraq şərait yaradılmışdır.

### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında "UNEC-100" İnkişaf Strategiyasının hazırlanması zamanı UNEC Rektorluğu, UNEC kollektivi, UNEC tələbə təşkilatları və müəssisələrlə müzakirələrin aparıldığı qeyd olunmuşdur. UNEC əməkdaşları ilə müzakirələr barədə ATM-in internet saytında məlumatlar qeyd olunsa da (https://news.unec.edu.az/xeber/125-universitet/4524-unec-de-elmi-shuranin-novbeti-iclasi-kechirilib; https://unec.edu.az/unec-in-nizamnamesi-ve-unec-100-inkisaf-strategiyasi-kollektive-teqdim-olundu/; https://news.unec.edu.az/xeber/125-universitet/5613-unec-in-nizamnamesi-ve-unec-100-inkishaf-strategiyasi-fakultelere-tegdim-edildi), müəssisələrlə müzakirələrə dair məlumatlar qeyd olunmamışdır.

## *4.2 Tədqiqat resursları*

### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

UNEC-də elmi-tədqiqat işlərinin maliyyələşməsi dövlət büdcəsi və büdcədən kənar vəsaitlərdən (qrantlar, təsərrüfat müqavilələri əsasında müəyyənləşən maliyyə mənbələri və digər mənbələr) təmin olunur. Ümumiyyətlə, 2016-2021-ci illərdə elmi tədqiqata ayrılan büdcə vəsaitlərinin UNEC-in ümumi büdcəsindəki payı illik orta hesabla 2 faiz təşkil etmişdir.




***Qrafik 6. Elmi-tədqiqata ayrılan büdcə vəsaitlərinin ümumi büdcədəki payı***

Göründüyü kimi, UNEC-in öz büdcəsindən elmi-tədqiqat istiqamətinə ayrılan vəsait çox kiçikdir. "UNEC-100" İnkişaf Strategiyasında müəyyən olunmuş Hədəf 2.3-ün (2030-cu ilə qədər sifarişlər və qrantlar əsasında yerinə yetirilən tədqiqat layihələrinin sayını hər il artırmaq

və UNEC büdcəsinin 20%-nə çatdırmaq) tələbi baxımından, gələcəkdə elmi tədqiqatlar üçün əldə olunacaq qrant vəsaitlərinin artırılmasına ehtiyac duyulur.

Elmi-tədqiqat infrastrukturu, maddi və texnoloji resurslarla bağlı məsələlər "UNEC-100" İnkişaf Strategiyasında müəyyən olunmuş Hədəf 2.2-də (tədqiqat institutu, mərkəz və laboratoriyaların işinin təkmilləşdirilməsi, kadr potensialı və maddi-texniki bazasının gücləndirilməsi) qeyd olunmuşdur. Akkreditasiya Komissiyasının UNEC-ə sahə səfəri çərçivəsində müvafiq infrastruktur və texnoloji resurslara baxış zamanı elmi-tədqiqat laboratoriyalarından istifadə və onların fəaliyyətinin əlaqələndirilməsində pərakəndəlik müşahidə olunmuşdur. Belə ki, Laboratoriyaların İşinin Təşkili Mərkəzinin Əsasnaməsinə uyğun olaraq Mərkəzin nəzdində mühəndislik istiqamətində 15 laboratoriya fəaliyyət göstərir. Digər qeyri-mühəndislik istiqamətli 10 laboratoriyanın fəaliyyəti isə pərakəndə şəkildə əlaqələndirilir.

### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Əsas iş yeri UNEC olan və əvəzçiliklə cəlb olunmuş professor-müəllim heyətinin sayı 866, saat hesabı qaydada tədrisə cəlb olunmuş professor-müəllim heyətinin sayı isə 231 nəfər olmaqla 2023-cü ilin əvvəlində UNEC-də 1097 nəfər professor-müəllim heyəti çalışır. Ümumi akademik heyətin tələbə sayına nisbəti 1/17 təşkil edir ki, bu da Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2022-ci il 30 sentyabr tarixli KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları"ndakı normativə (1/15) əsasən cavab verir.

Hesabat dövründə professor-müəllim heyəti həm fərdi qaydada, həm də UNEC-dəki tədqiqat mərkəzlərində tədqiqatla məşğul olmuşdur. Akkreditasiya Komissiyasının müsahibələri zamanı bu tədqiqat mərkəzlərinin sayının 38 olduğu bildirilsə də, UNEC-in Özünütəhlil Hesabatında 36 tədqiqat mərkəzinin olması qeyd edilmişdir.

***Cədvəl 13. Elmi dərəcəli tədqiqatçıların sayı***

| İllər | Elmi dərəcəsi olan tədqiqatçıların sayı |
|---|---|
| 2016 | 561 |
| 2017 | 562 |
| 2018 | 522 |
| 2019 | 524 |
| 2020 | 512 |
| 2021 | 494 |
| 2022 | 510 |

### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

UNEC Elmi Şurasının 2019-cu il 28 iyun tarixli, EŞ-166 nömrəli qərarı ilə təsdiq edilmiş "UNEC-in nüfuzlu xarici universitetlərdə 1 il müddətinədək tədqiqat aparmaq üçün dəvət almış

professor-müəllim heyətinin tədqiqat apardıqları müddətdə əməkhaqlarının saxlanılması haqqında" Qaydaları qəbul olunnmuşdur. Qaydalar əsasında 2016-2022-ci illər ərzində UNEC-in gənc tədqiqatçıları ABŞ, İsveçrə, Norveç, Almaniyanın universitetlərində 3 aydan 1 ilədək elmi tədqiqat aparmışdırlar. Eyni zamanda, UNEC Elmi Şurasının 2021-ci il 7 aprel tarixli, EŞ-177 saylı qərarı ilə ATM-də Gənc Müəllimlər Şurası yaradılmışdır. Qeyd olunan tədbirlər UNEC-də gənc tədqiqatçılara dəstək göstərilməsi və onların təşkilatlanmasına şərait yaratmışdır.

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

Professor-müəllim heyətinin UNEC-in kitabxana resurslarından elektron və fiziki qaydada əlyetərliyi mövcuddur. ATM-in kitabxanasının müxtəlif elmi məlumat bazalarına (Azərbaycan, rus, türk və ingilis dilində 1355 resurs) abunəliyi və çıxışı vardır. Bundan əlavə, hesabat dövründə Bakı Dövlət Universiteti və ADA Universitetinin kitabxanaları ilə birgə memorandum imzalanmış və bununla da, professor-müəllim heyəti və tələbələrin istifadəsinə əlavə resurslar təqdim edilmişdir.

### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

UNEC-də elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün əsas stimullaşdırıcı mexanizm UNEC Rektorunun “UNEC-də differensial əməkhaqqı sisteminin tətbiqi haqqında” 2015-ci il 14 oktyabr tarixli, 80/1/2015 №-li əmri ilə professor-müəllim heyəti üçün tətbiq edilən differensial əmək haqqı sistemidir. Tətbiq olunan mexanizm hesabat dövründə beynəlxalq elmmetrik bazalarda indeksləşdirilən nüjuzla jurnallarda UNEC-in nəşrlər və istinadetmə indeksinin əhəmiyyətli dərəcədə artmasına rəvac vermişdir. Eyni zamanda, 2016-2022-ci illərdə “H” indeksi 5-dən yuxarı olan daimi ştatdakı professor-müəllim heyətinin sayında  artım müşahidə olunmuşdur.

***Cədvəl 14. “H” indeksi 5-dən yuxarı olan əməkdaşların sayı***

| İllər | “H” indeksi 5-dən yuxarı olan əməkdaşların sayı |
|---|---|
| 2016 | 4 |
| 2017 | 4 |
| 2018 | 8 |
| 2019 | 13 |
| 2020 | 18 |
| 2021 | 25 |
| 2022 | 33 |

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

UNEC-də elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərdə hesabat dövründə kəskin artıb-azalmalar olmuşdur.




*Qrafik 7. Elmi-tədqiqat fəaliyyətindən əldə olunmuş gəlirlər (manat)*

*Cədvəl 15. Elmi-tədqiqat sahəsində icra olunmuş beynəlxalq layihələrin sayı*

| İllər | Layihələrin sayı |
|---|---|
| 2016 | 3 |
| 2017 | 1 |
| 2018 | 1 |
| 2019 | 1 |
| 2020 | 2 |
| 2021 | 2 |
| 2022 | 3 |

Hesabat dövründə elmi-tədqiqat fəaliyyətindən əldə olunmuş gəlirlərdə beynəlxalq qrant layihələri ölkədaxili fondların (büdcə və qeyri-büdcə) qrant layihələrinə nisbətdə üstünlük təşkil etmişdir. Ümumilikdə, iqtisadiyyat sahəsində həm beynəlxalq qrant layihələrinin, həm də ölkədaxili qrantlarının qazanılmasında olan prosedur çətinlikləri və onların maliyyələşməsində olan gecikmələr hesabat dövründə qrant layihələrindən əldə olunan gəlirlərin davamlı olmaması ilə nəticələnmişdir.

### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

Əsasən iqtisadiyyat, idarəetmə və maliyyə profilli universitet olan UNEC, həm qeyd olunan istiqamətlər üzrə, həm də texniki yönümlü yerli və xarici elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq edir. Hesabat dövründə bir sıra yerli müəssisə ilə birgə elmi-texniki əməkdaşlıq haqqında müqavilələr imzalanmışdır – Fizika İnstitutu, Akademik Y. H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, Polimer Materialları İnstitutu, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzdində Yüksək Texnologiyalar üzrə Tədqiqat Mərkəzi, Bakı Dövlət Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən Elmi-Tədqiqat Laboratoriyaları.

Bundan əlavə, UNEC xarici elmi-tədqiqat təşkilatları ilə də yaxından əməkdaşlıq etmişdir:

- ALBA Sinxrotron Elmi-Tədqiqat Laboratoriyası (İspaniya, Barselona);

- İtaliya Milli Tədqiqatlar Şurası (CNR), “Nello Carrara” Tətbiqi Fizika İnstitutu (İtaliya, Florensiya);
- Verona Universiteti (İtaliya, Verona);
- Jozef Stefan İnstitutu (Sloveniya, Lyublyana);
- Orta Doğu Texniki Universiteti (Türkiyə, Ankara);
- Orion İstehsalat Birliyi (Rusiya, Moskva);
- Nello Carrara Tətbiqi Fizika İnstitutu (İtaliya, Florensiya);
- Birləşmiş Nüvə Tədqiqatları İnstitutu (Rusiya, Dubna);
- Belarusiya EA Materialşünaslıq Elmi-Praktik Mərkəzi (Belarus, Minsk);
- Sakarya Universiteti (Türkiyə);
- İstinye Universiteti (Türkiyə);
- “Солнца” Fizika Texniki İnstitut (Özbəkistan, Daşkənd).

### *4.3 Elmi-tədqiqat fəaliyyəti*

#### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

Elmi fəaliyyətin təşkili və idarəedilməsi departamenti (EFTİED) 2018-ci il 1 oktyabr tarixində yaradılmış və tərkibinə 3 şöbə daxildir: Elmi fəaliyyətin təşkili şöbəsi, Elmmetrika şöbəsi və Texnologiya transfer şöbəsi. EFTİED-in illik fəaliyyət planları “UNEC-100” İnkişaf Strategiyasında elmi-tədqiqat istiqaməti üzrə müəyyən olunmuş məqsəd və hədəflərə uyğun hazırlanır və fəaliyyət planlarının icrasının illik əsasda monitorinqi aparılır. Bundan əlavə, hesabat dövründə EFTİED tərəfindən universitetdaxili hesabat və Elm və Təhsil Nazirliyinə təqdim edilməsi üçün Elmi Fəaliyyət haqqında İllik Hesabatlar hazırlanmışdr. UNEC-ə sahə səfəri çərçivəsində EFTİED əsasnaməsi və illik planlarına Akkreditasiya Komissiyası tərəfindən baxış keçirilmişdir.

#### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

Sonuncu akkreditasiya qiymətləndirməsindən bu günə kimi UNEC-də ümumilikdə 63 beynəlxalq və respublika səviyyəli elmi və elmi-praktiki konfrans təşkil olunmuşdur:

- 2016-cı ildə 7;
- 2017-ci ildə 10;
- 2018-ci ildə 9;
- 2019-cu ildə 11;
- 2020-ci ildə 9;
- 2021-ci ildə 10;
- 2022-ci ildə 7.

Bununla yanaşı, ATM-də elmin təşviqi məqsədilə mütəmadi olaraq “Elm aylığı” və bu qəbildən olan digər silsilə tədbirlər də keçirilir.

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

Hesabat dövründə ATM-də keçirilmiş elmi tədbirlərdə Türkiyə, Polşa, Macarıstan, İspaniya, Çexiya, Slovakiya, Almaniya, İsveçrə, Rusiya və postsovet ölkələrinin universitetlərindən alim və tədqiqatçılar iştirak etmişdir.

### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

UNEC-də Tələbə Elmi Cəmiyyəti və “İqtisadçı Tələbələrin Elmi Fəaliyyətinə Yardım” İctimai Birliyi (“İTEFY”) gənc tədqiqatçıları elmi xarakterli tədbirlərdə iştiraka təşviq edir. Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə hesabat dövründə keçirilən aşağıdakı elmi tədbirlərdə gənc tələbə-tədqiqatçılar iştirak etmişdir (https://news.unec.edu.az/component/tags/tag/telebe-elmi-cemiyyeti):

- “Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı” mövzusunda bilik yarışması;
- “Poliqon” intellektual oyunu;
- “Dünya iqtisadiyyatının aktual problemləri və iqtisad elmi: real baxış” mövzusunda seminar;
- “Alim və ekspertlərin kitabxanası” layihəsi;
- "Mühəndislikdə yeni dövr" mövzusunda dəyirmi masa;
- "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı" mövzusunda esse müsabiqəsi;
- “Heydər Əliyevin quruculuq strategiyası Azərbaycanı regionun qüdrətli dövlətinə çevirmişdir” mövzusunda Tələbə Elmi Cəmiyyətinin konfransı;
- UNEC-in Tələbə Elm Cəmiyyəti və İqtisadçı Tələbələrin Elmi Fəaliyyətinə Yardım İctimai Birliyinin təşkilatçılığı ilə tələbələrin kitabxanadan istifadə qaydaları və elektron resurslar üzrə axtarış imkanları barədə məlumatlandırılması məqsədilə təlim;
- UNEC-in İqtisadiyyat fakültəsi və Tələbə Elmi Cəmiyyətinin təşəbbüsü ilə “Biznes nədir?” mövzusunda təlim;
- “UNEC TEChie Winner” bilik müsabiqəsi;
- UNEC Science Slam elmi yarışı;
- “Parlaq Zəka” intellektual yarışı;
- Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunan “Heydər Əliyev - Qələbəmizin banisi” mövzusunda elmi seminar;
- “Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin sosial-iqtisadi inkişaf perspektivləri” mövzusunda Tələbə Elmi Cəmiyyətinin konfransı;
- “ATHENA” bilik yarışması;
- “Zəif bən” intellektual oyunu;

- SABAH-MALİYYƏ Forumu;
- Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan "İnnovasiya və sahibkarlıq XXI əsrin açarıdır" mövzusunda konfrans;
- Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə hərs olunan "Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı: reallıqlar və perspektivlər" mövzusunda Tələbə Elmi Cəmiyyətinin konfransı;
- Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş Tədqiqatçı Gənclərin Beynəlxaq Konfransı;
- "Azərbaycanda rəqabət şəraitində kommersiya fəaliyyətinin müasir inkişaf tendensiyaları" mövzusunda konfrans;
- "Bank sektoru və onun perspektivləri" mövzusuna dəyirmi masa;
- Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş tələbə elmi konfransı;
- "Tələbə gəncliyi və Azərbaycan iqtisadiyyatı: gələcəyə baxış" mövzusunda V Tələbə Elmi Konfransı;
- Ümummilli lider Heydər Əliyevin Anım Gününə həsr olunmuş "Heydər Əliyevin müasir Azərbaycan iqtisadiyyatındakı əvəzsiz rolu" adlı elmi seminar;
- "Standartlaşdırma müasir iqtisadiyyatın açarıdır" mövzusunda elmi seminar;
- "Azərbaycanda daxili istehsalın rəqabətqabiliyyətliliyinin artırılması istiqamətləri" mövzusunda elmi seminar;
- Heydər Əliyevin 93-cü ildönümünə həsr edilən "Heydər Əliyevin Azərbaycan iqtisadiyyatına verdiyi töhfə" mövzusunda konfrans;
- "Azərbaycanda Multikultural dəyərlər və onların sosial-iqtisadi aspektləri" mövzusunda elmi konfrans.

### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

Özünütəhlil Hesabatında həm yerli, həm də beynəlxalq qrant layihələri barədə ümumi məlumat verilsə də, beynəlxalq qrant layihələri barədə təfsilati məlumat qeyd olunmamışdır. UNEC-in 2022-ci il üzrə Elmi Fəaliyyəti haqqında Hesabatında həmin ildə Avropa İttifaqının maliyyələşdirdiyi 1 (bir) "Jean Monnet" layihəsi və 1 (bir) ERASMUS+KA102 layihəsi barədə məlumat qeyd olunmuşdur. Hesabat dövründə həyata keçirilmiş beynəlxalq qrant layihələrinin sayı haqqında məlumat verilsə də (Cədvəl 14), layihələr barədə təfərrüatlar təqdim olunmamışdır.

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

UNEC-də patent sahəsində fəaliyyətlərin əlaqələndirilməsi və patent fəaliyyətinin təşviqi məsələləri EFTİED tərkibində olan "Texnologiya transfer şöbəsi" tərəfindən aparılır. Hesabat dövrü üzrə (2016-2022) ümumilikdə 26 patent və bir əmtəə nişanı Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində qeydiyyata alınmışdır.

### 4.3.7 İnstitutsional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

Hesabat dövründə UNEC-də Differensial Əmək Haqqı Sistemi vasitəsilə tədqiqatçıların institusional əməkdaşlıq və birgə tədqiqat təşəbbüslərində iştirakı təşviq olunmuşdur. Bu dövrdə institusional səviyyədə 4.2.7 bəndində göstərilən xarici təşkilatlarla əməkdaşlıq edilmişdir. Təşviq mexanizminə baxmayaraq, 2016-2022-ci illərdə qeyd olunan birgə tədqiqat təşəbbüslərində cəmi 6 tədqiqatçı iştirak etmişdir. Bundan əlavə, həmin tədqiqat təşəbbüsləri barədə də məlumat təqdim edilməmişdir.

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

UNEC tərəfindən təqdim olunmuş sənədlərdə hesabat dövrü üzrə ümumilikdə 4 birgə tədqiqat proqramı barədə məlumat qeyd olunsa da, proqramlar barədə təfərrüatlar təqdim edilməmişdir. Digər tərəfdən, Özünütəhlil Hesabatında birgə tədqiqat proqramı qismində "NİZAMİ" Erasmus+ layihəsi (https://nizami.edu.umontpellier.fr/) çərçivəsində birgə tədqiqat proqramlarının həyata keçirilməsi qeyd olunsa da, bu layihə Azərbaycanda doktorantura təhsilinin yenidən qurulması və inkişaf etdirilməsi ilə bağlı olmuş və fərqli mahiyyət daşımışdır.

### 4.3.9 Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, UNEC tədqiqatçıları əksər beynəlxalq elmi-tədqiqat şəbəkələrində fəal iştirak edir. 1975-2022-ci illərdə UNEC-in Web of Science institutsional profilində 592 elmi əsər olmuşdur. Bu elmi əsərlərə verilən ümumi istinadların sayı 1378, özünə istinadların sayı 269, H-index isə 19 təşkil etmişdir (https://news.unec.edu.az/elan/86-konfrans/8341-unec-in-web-of-science-elmi-platformasindaki-metrik-gostericileri).

UNEC əməkdaşlarının aktiv istifadə etdiyi digər institusional profillərdən biri də Research Gate sistemidir. Özünütəhlil Hesabatına əsasən, hazırda 1292 UNEC əməkdaşının Research Gate profilləri mövcuddur. Sözügedən profillərin 67%-i UNEC elmi-pedaqoji heyətinin payına düşür. Academia.edu sistemində 1140-a yaxın nümayəndə UNEC-ə mənsubluğunu təsdiq etmiş və 900-ə qədər elmi əsər müəlliflər tərəfindən sistemə yüklənmişdir. 866 nəfərdən ibarət UNEC elmi-pedaqoji heyətinin ORCID və Publons profilləri də mövcuddur. Bununla yanaşı, elmi göstəricilərin axtarışı, təhlili və idarə edilməsi platforması olan Lens.org sistemi üzərindən UNEC-in nəşr fəaliyyəti araşdırılmışdır. 2023-cü il 12 yanvar tarixinə bu baza üzrə göstəricilərə əsasən 1980-2023-cü illər aralığında sözügedən sistemdə UNEC-ə mənsub 505 elmi əsər yer almışdır.

### 4.3.10 Yerinə yetirilən elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

Elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi ilə əlaqədar 2016-2022-ci illərdə UNEC-də ümumilikdə 164 vəsait nəşr olunmuşdur:

*Cədvəl 16. Hazırlanmış tədris metodiki vəsaitlərin sayı*

| İllər | Dərslik | Dərs vəsaiti |
|---|---|---|
| 2016 | 10 | 35 |
| 2017 | 3 | 16 |
| 2018 | 29 | 44 |
| 2019 | 3 | 16 |
| 2020 | 2 | 3 |
| 2021 | 4 | 2 |
| 2022 | 4 | 7 |

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

UNEC tədqiqatçılarının əsərlərinin dərc olunması üçün ATM-in aşağıdakı elmi jurnalları mövcuddur və onlara əlyetərlilik təmin olunmuşdur:

- Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri;
- İqtisad elmləri: nəzəriyyə və praktika;
- UNEC Ekspert;
- Azərbaycanın Vergi jurnalı;
- UNEC Journal of Engineering and Applied Sciences/

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası

UNEC tədqiqatçılarının nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş məqalələrinə istinadetmə indeksi (“citation index") Web of Science platformasında 2016-cı ildə 207, 2022-ci ildə isə 12 dəfə artaraq 2644, Scopus platformasında 2016-cı ildə 10, 2022-ci ildə 28 dəfə artaraq 2852 və Google Scholar platformasında 2016-cı ildə 325, 2022-ci ildə isə 4 dəfə artaraq 1472 olmuşdur.

*Cədvəl 17. Beynəlxalq platformalarda elmi məqalələrə istinadetmə indeksi*

| İllər | Web of Science | Scopus | Google Scholar |
|---|---|---|---|
| 2016 | 207 | 10 | 325 |
| 2017 | 369 | 15 | 289 |
| 2018 | 645 | 47 | 437 |
| 2019 | 956 | 143 | 733 |
| 2020 | 1030 | 403 | 1108 |
| 2021 | 1571 | 2131 | 1806 |
| 2022 | 2644 | 2852 | 1472 |

Ümumilikdə, 2016-cı ilə nisbətən UNEC alimlərinin beynəlxalq elmi-metrik bazalarda (WoS/Scopus/Google Scholar bazaları) indekslənmiş jurnallarda dərc olunmuş elmi

məqalələrinə istinadetmə indeksi xeyli artmışdır ki (Qrafik 9), bu da ATM-in elmi-tədqiqat fəaliyyətinin gücləndiyinə dəlalət edir.




***Qrafik 8. Elmi məqalələrə istinadetmə indeksinin dinamikası***

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

Magistratura pilləsində bütün ixtisaslarda tələbələrə tədqiqat bacarıqlarının aşılanması məqsədilə tələbələrə ATM-də əsas fənn olaraq "Tədqiqat metodları" fənni tədris edilir. Sahə səfəri çərçivəsində tədris planlarına baxılmış və tədris proqramında bu fənnin öz əksini tapdığı müəyyən olunmuşdur. Bununla yanaşı, tələbələrin tədqiqat bacarıqlarının gücləndirilməsi məqsədilə "Tədqiqatlar, kommunikasiya və innovasiya" və "Tədqiqat işinin aparılması" fənlərini seçməsinə də şərait yaradılmışdır.

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarının artırılması məqsədilə UNEC-də hesabat dövründə 3 təlim kursu keçirilmişdir ki, sözügedən təlimlərdə professor-müəllim heyətinin 12%-i iştirak etmişdir. "Eviews" və "SPSS" proqram təminatları üzrə təlim proqramlarında 22 müəllim iştirak etmişdir. Qeyd olunan məqamlar indiktora uyğunluğu ehtiva edir.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

Hesabat dövründə UNEC-də hər il doktoranturaya qəbul prosesi ilə bağlı kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə elanlar verilmiş, magistratura pilləsində təhsil alan tələbələr və məzunlar arasında doktoratura təhsili barədə məlumatlar paylaşılmışdır (https://unec.edu.az/doktorantura-sobesi/; https://news.unec.edu.az/elan/138-gebul/8617-bold-unec-felsefe-doktoru-ve-elmler-doktoru-programlari-uzre-doktoranturaya-ve-dissertanturaya-gebul-elan-edir-bold).

UNEC ilə “Türkiyə Bursları” təqaüd proqramı arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində 2020-ci ildən etibarən UNEC əməkdaşlarının Türkiyədə doktorantura təhsili alması təşviq olunur və dəstəklənir. Təqaüd proqramı çərçivəsində Türkiyədə doktorantura təhsilini başa vuracaq 4 əməkdaşın UNEC-də tədqiqatçı və müəllim qismində fəaliyyətini davam etdirməsi nəzərdə tutulur. 2016-2022-ci illərdə UNEC-də ümumi 48 nəfər doktorant və dissertant işə cəlb olunmuşdur.

### 4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

Hesabat dövründə elmlər doktoru və professorların ümumi professor-müəllim heyətindəki çəkisi təqribən 10 faiz təşkil etmişdir. Belə ki, son 7 il ərzində elmi dərəcə alanların sayı – elmlər doktoru 7 nəfər, fəlsəfə doktoru 79 nəfər, professor 12 nəfər, dosent 54 nəfər olmuşdur.

***Cədvəl 18. 2016-2022-ci illərdə elmlər doktoru və professorların sayı***

| İllər | Elmlər doktorlarının sayı | Professorların sayı |
|---|---|---|
| 2016 | 83 | 53 |
| 2017 | 85 | 53 |
| 2018 | 84 | 56 |
| 2019 | 82 | 54 |
| 2020 | 77 | 57 |
| 2021 | 71 | 55 |
| 2022 | 74 | 54 |

### 4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti

Hesabat dövründə elmi dərəcəsi olan tədqiqatçıların ümumi akademik heyətə nisbəti ortalama 62% təşkil etmişdir.

***Cədvəl 19. Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə nisbətinin dəyişməsi***

| İllər | Elmi dərəcəsi olan tədqiqatçıların sayı | Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə nisbəti |
|---|---|---|
| 2016 | 561 | 63% |
| 2017 | 562 | 67% |
| 2018 | 522 | 64% |
| 2019 | 524 | 63% |
| 2020 | 512 | 63% |
| 2021 | 494 | 58% |
| 2022 | 510 | 59% |

Qeyd olunan dövrdə nisbət ümumən stabil qalmışdır.

#### 4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu

Hesabat dövründə UNEC-də fəaliyyət göstərən və Azərbaycan Respublikası Prezidenti yaninda Ali Attestasiya Komissiyası tərəfindən səlahiyyət verilmiş Dissertasiya Şurasının (https://unec.edu.az/tedqiqat/dissertasiya-surasi/) istiqamətləri ATM-in elm sahəsində müəyyən etdiyi hədəflərə uyğun olmuşdur.

#### 4.3.19 Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Hesabat dövründə Elmi fəaliyyətin təşkili və idarəedilməsi departamenti tərəfindən illik əsasda UNEC-in elmi fəaliyyəti barədə hesabat hazırlanaraq rəhbərlik və Elm və Təhsil Nazirliyinə təqdim olunmuşdur (https://unec.edu.az/idareetme11/departamentler/elm-sobesi/). Digər təfərdən, UNEC-in İnkişaf Strategiyasında elmi-tədqiqat sahəsində müəyyən olunmuş məqsəd və hədəflərə uyğun fəaliyyətlərin də icra göstəriciləri illik əsasda monitorinq olunur.

#### 4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

Doktorantura pilləsi üzrə dissertasiyaların hazırlanması və müdafiəsi prosesi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli, 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli, 129 nömrəli Qərarı ilə təsdiq edilmiş “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları”, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının müvafiq qərarları ilə müəyyən edilmiş tələblərə riayət edilməklə həyata keçirilir. İlkin müzakirə, seminar və müdafiə mərhələlərində qanunvericiliyin tələblərinə riayət olunmaqla ED 2.10 və FD-1.11 nömrəli Dissertasiya Şuralarında aparılır.

### *4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

#### 4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

Hesabat dövründə Antiplagiat və akademik dürüstlük siyasəti “Plagiat halları ilə mübarizənin gücləndirilməsi haqqında” UNEC Rektorunun 206/1/2016-cı il tarixli əmrinə əsasən qəbul edilmiş Qaydalar əsasında formalaşdırılmış və həyata keçirilmişdir. UNEC-də 2016-cı ildən etibarən bütün buraxılış işləri, magistr dissertasiyaları, fəlsəfə və elmlər doktoru dissertasiyaları, bütün tədris vəsaitləri, konfrans və jurnallarda nəşr edilən elmi əsərlər plagiat yoxlamasından keçirilir.

#### 4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

Plagiat hallarının müəyyən olunması üçün “Plagiat PL” şirkətinin “Strike Plagiarism” proqramından istifadə olunur. Proqramdan istifadə ilə bağlı şirkətlə bağlanmış müqavilə 2024-cü ilədək qüvvədədir. Eyni zamanda, UNEC-də Elmi Şuranın 2022-ci il 28 sentyabr tarixli qərarı ilə təsdiq olunmuş “Elmi plagiat hallarına qarşı mübarizə Qaydalar”ı mövcuddur. Tələbələr, magistrantlar, doktorantlar, akademik heyət və tədqiqatçıların bu Qaydaların tələbləri ilə tanışlığı təmin edilir, elm etikası tələbləri və bu sahədə qərarların qəbul mexanizmi barədə təlimlər təşkil edilir.

#### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

Elmi plagiat hallarına qarşı mübarizə Qaydalarına əsasən, bütün tələbə işləri (kurs işləri, referatlar, sərbəst işlər, laboratoriya işləri, layihə tapşırıqları, buraxılış işi, magistr dissertasyası), fəlsəfə və elmlər doktoru dissertasiyası, monoqrafiya, məqalə, tədris vəsaitləri və digər bu qəbildən olan UNEC müəllim və tələbələrinin hazırladığı sənədlər plagiat yoxlamasından keçirilir.

## 5. İDARƏETMƏ SİSTEMİ

### 5.1 İdarəetmə orqanları

#### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət planlarının mövcudluğu vəziyyəti

“Azərbaycan Dövlət İqtisad Universitetinin” Nizamnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 avqust tarixli, 365 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Nizamnamənin 4.1-ci bəndində qeyd edildiyi kimi, UNEC Azərbaycan Respublikasının “Təhsil haqqında”, “Elm haqqında”, “Publik hüquqi şəxslər haqqında” qanunlarına və bu Nizamnaməyə uyğun olaraq idarə edilir. Nizamnamənin 4.6-cı bəndinə uyğun olaraq UNEC-in ali idarəetmə orqanı Elmi Şuradır. Elmi Şuranın yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi müvafiq əsasnamə və bu Nizamnamə ilə müəyyən olunur.

Nizamnamənin 4.8-ci bəndinə əsasən 3 bölmədən (Tədrisin metodoloji, metodiki və təşkilati təminatı bölməsi, Tədrisin keyfiyyətinin təminatı bölməsi, Elmi-metodiki təminat bölməsi) ibarət Tədris Metodiki Şura (TMŞ), eyni zamanda, Nizamnamənin 4.13-cü bəndinə müvafiq olaraq müəyyən istiqamətlər üzrə 7 prorektor fəaliyyət göstərir. İdarəetmə orqanlarının əsasnamələri və iş planları mövcuddur.

#### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2023-cü il 18 yanvar tarixli, 3-29/3-2-08F/2023 nömrəli əmri ilə təsdiq edilmiş UNEC Elmi Şurasının tərkibində maraqlı tərəflər kimi tələbələri Tələbə Həmkar İttifaqı Komitəsinin sədri, Maliyyə və mühasibat fakültəsinin IV kurs tələbələri (Tələbə Elmi Cəmiyyətinin sədri və tələbə-rektor) təmsil edir. Elmi Şuranın tərkibində işəgötürənlər və ictimaiyyət nümayəndələri təmsil olunmamışdır.

“UNEC2B” platformasında qeyd olunur ki, virtual əmək birjası (http://job.unec.edu.az/az) vasitəsilə UNEC işəgötürənlər və tələbələrin vahid platformada birləşdirilməsinə dəstək verilir. Platformanın fəaliyyət istiqamətləri ilə ətraflı şəkildə https://unec.edu.az/unec-is-dunyasi-strateji-emekdasliq-platformasi-unec2b linki vasitəsilə tanış olmaq mümkündür. Hesabatın hazırlanması dövründə (2023-cü il mart ayı) səhifəyə baxış zamanı son iş elanının 2019-cu ilin dekabr ayında yerləşdirildiyi müəyyənləşdirilmişdir. Aprel ayında https://job.unec.edu.az/az/vacancies səhifəsinə yenidən baxış zamanı sonuncu elanın əlavə edilmə vaxtı aktiv olmasa da, bitmə tarixi 01.07.2023 qeyd olunmuşdur.

UNEC Elmi Şurasının 2015-ci il 25 dekabr tarixli, 142.3 saylı qərarı ilə UNEC-də “Açıq qapı” günlərinin keçirilməsi və UNEC Elmi Şurasının 2015-ci il 27 may tarixli, 145 saylı qərarı ilə “İctimai Nəzarət Şurası”nın yaradılması təsdiq edilmişdir. Bu fəaliyyətlərlə bağlı məlumatlar ATM-in rəsmi internet saytında (https://news.unec.edu.az/tags/achig-gapi-gunu) yerləşdirilmişdir.

### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

İdarəetmə orqanlarının iclasları, yığıncaqları və tədbirləri təsdiq edilmiş fəaliyyət planına uyğun həyata keçirilir.

UNEC Elmi Şurasının qərarı ilə 2016/2017, 2017/2018, 2018/2019, 2019/2020, 2020/2021, 2021/2022-ci tədris illəri üzrə İş Planları təsdiq olunmuşdur. Tədris Metodiki Şuranın iclasları TMŞ əsasnaməsinin 4.12-ci maddəsinə əsasən bir təqvim ilində 4 dəfədən az olmayaraq çağırılır.

### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

UNEC-in ali idarəetmə orqanı Elmi Şura və digər idarəetmə orqanlarının sənədləri ilə tanışlıqdan bu qənaətə gəlmək olur ki, iş planlarına müvafiq olaraq məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi proseduru mövcuddur. Eyni zamanda, DocNet elektron sənədləşmə sistemi vasitəsilə sənədlərin aidiyyəti struktur bölmə rəhbərləri tərəfindən yaradılması və müvafiq qaydada icraçılara yönəldilməsi yolu ilə rəsmiləşdirilməsi həyata keçirilir.

### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

DocNet elektron sənədləşmə sistemi vasitəsilə idarəetmə orqanlarının - UNEC Elmi Şurasının qərarlarının struktur bölmə rəhbərlərinə təqdim olunması təmin edilir və icra vəziyyətinə nəzarət həyata keçirilir.

Nümunə üçün baxılmış protokolların tərtibi məzmun və texniki (şriftlərin ölçüsü, fərqli şriftlərdən istifadə) baxımdan Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli, 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət idarə, müəssisə və təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a müvaviq olaraq protokolun hazırlanması tələblərinə cavab vermir.

**5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti**

UNEC-də idarəetmə orqanları arasında qarşılıqlı əlaqə və kommunikasiya DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə ilə tənzimlənir. Müəyyən səbəblərdən bütün inzibati heyətin sistemə giriş imkanı olmadığından məlumatlar struktur bölmələrin rəhbər işçiləri tərəfindən tabeliklərində olan əməkdaşlara ötürülür.

**5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti**

Elmi Şura və Tədris Metodiki Şura əsasnamələrinə uyğun olaraq fəaliyyət göstərir. İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü UNEC-in Nizamnaməsinə uyğun olaraq "UNEC prorektorlarının vəzifə bölgüsü haqqında" 2019-cu il 27 dekabr tarixli, 259/1/2019 nömrəli və 2022-ci il 14 dekabr tarixli, 285/1/2022 nömrəli əmrləri ilə həyata keçirilir. İnzibati heyətin vəzifə təlimatlarının hazırlanması davam etdirilir.

**5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti**

İdarəetmə orqanlarının fəaliyyətinin montorinq və qiymətləndirilməsinin aparılması üçün mexanizm hələ mövcud deyildir. UNEC-dən təqdim olunan "UNEC-100 SİP-dən irəli gələn Tədbirlər Planı" excel faylında SİP-də nəzərdə tutulan bəzi fəaliyyət istiqamətləri öz əksini tapmamışdır.

İdarəetmə orqanlarının dövrü hesabatları iş planlarına müvafiq olaraq hazırlanır. Elmi Şuranın və TMŞ-in təsdiq edilmiş İş Planlarında müzakirə üçün nəzərdə tutulan məsələlər qeyd olunmuş, İş Planlarında görüləcək işlər, məsul icraçılar, icra müddəti və nəticə indikatorları (KPI) ilə bağlı məlumatlar müəyyənləşdirilməmişdir.

UNEC-in təqdim etdiyi "UNEC-100 SİP-in hazırlanması və icrası" excel faylında "2030-cu ilə qədər universitetdə strateji idarəetməni tam şəkildə tətbiq etmək" fəaliyyət istiqaməti üzrə "icra olunub" qeyd olunmuşdur və nəticə indikatoru kimi "strateji fəaliyyət planlarının təsdiqlənməsi faizi" müəyyənləşdirilmişdir. Strateji fəaliyyət istiqamətlərinin icrası ilə bağlı idarəetmə strukturlarının illər üzrə fəaliyyət planları təqdim edilməmişdir. Yalnız Elektron İdarəetmə Mərkəzi tərəfindən icra olunacaq "Strategiyaya uyğun olaraq informasiya idarəetmə sistemi üzrə 2022-2023-cü illər üçün planlaşdırılan təkmilləşdirmə tədbirləri və risklərin müəyyənləşdirilməsinə dair hesabatlar" faylı təqdim edilmişdir.

**5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

“UNEC-100” SİP-də 6-cı strateji məqsəd kimi "daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmaq" müəyyənləşdirilmişdir. Bu məqsədə nail olmaq üçün strateji hədəf (6.1) kimi 2030-cu ilə qədər universitetdə strateji idarəetmənin tam şəkildə tətbiq edilməsi nəzərdə tutulmuşdur. Məqsədin reallaşdırılması üçün aşağıdakı strateji fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.

1. “UNEC-100” inkişaf strategiyasının təsdiq edilməsi;
2. Bütün inzibati və akademik strukturların “UNEC-100” inkişaf strategiyasına uyğun fəaliyyət planlarının təsdiq edilməsi;
3. Strateji idarəetmənin monitorinq və nəzarət mexanizminin formalaşdırılması və tətbiq edilməsi.

SİP-də idarəetmə istiqamətnə 1 və 2-ci bəndlərin Strategiyada fəaliyyət istiqaməti kimi deyil, Strategiyanın təsdiq edilməsi Əmrində tapşırıq kimi verilməsi daha məqsədəuyğun olardı.

Hesabat dövründə idarəetmə orqanlarının fəaliyyətinin konkret monitorinqi və qiymətləndirilməsi mexanizmi olmadığına görə hazırkı dövrdə UNEC-in idarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətini qiymətləndirmək mümkün deyildir.

### *5.2 İnsan resurslarının idarə edilməsi*

#### 5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti

Akademik heyətin işə qəbulu prosesi dərc olunmuş elanlar əsasında seçkili vəzifələrin tutulması üçün müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq həyata keçirilir.

İngilis dilində tədris aparacaq gənc mütəxəssislərin işə cəlb olunması ilə bağlı müvafq əmr əsasında Komissiya yaradılmış və işə qəbulla bağlı müəyyən tələblər formalaşmışdır.

Qeyri-akademik heyətin işə qəbulu prosesinin şəffaf və əlçatan formada həyata keçirilməsi üzrə mexanizm mövcud olmadığına görə yerində baxış zamanı qiymətləndirilmənin aparılması mümkün olmamışdır.

#### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

“UNEC-100” İnkişaf Strategiyasında 6-cı məqsədə nail olmaq üçün strateji hədəf (6.2) kimi 2030-cu ilə qədər insan resurslarının idarəetməsində səmərəliliyin davamlı yüksəldilməsi müəyyənləşdirilmişdir. Bu hədəfə çatmaq üçün aşağıdakı strateji fəaliyyət istiqamətləri müəyyən olunmuşdur:

1. Universitetin fəaliyyət istiqamətlərinə uyğun akademik və inzibati heyətinin formalaşdırılması və davamlılığının təmin edilməsi;
2. Akademik və inzibati heyətin vəzifə təlimatlarının hazırlanması;
3. Akademik və inzibati heyətin peşəkar hazırlığının təlim proqramları vasitəsilə inkişaf etdirilməsi;
4. Akademik və inzibati heyətin iş yükü və performans ölçmə sistemlərinin davamlı inkişaf etdirilməsi;

5. Karyera yüksəlişində performans göstəricilərinin nəzərə alınması;
6. Əməyin motivasiya sistemlərinin davamlı təkmilləşdirilməsi;
7. Əmək haqqlarının artımının ən azı inflyasiya səviyyəsinə uyğunlaşdırılması;
8. Akademik və inzibati heyətin məmnunluq səviyyəsinin davamlı nəzarət altında saxlanılması

ATM-in akademik və inzibati heyəti onun strateji inkişaf proqramı və maliyyə resursları nəzərə alınaraq planlaşdırılır.

### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

UNEC-də professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Differensial Əməkhaqqı Sistemi tətbiq edilir.

"İnzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əməkhaqqı sisteminin tətbiqi haqqında" Qaydalar UNEC Elmi Şurasının 2022-ci il 31 may tarixli, 183 saylı Qərarı ilə təsdiq edilmişdir. Hesabat dövründə inzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi mexanizmi mövcud olmadığından inzibati heyətin fəaliyyətində səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması ATM-ə sahə səfəri zamanı müəyyən edilməmişdir.

### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

“UNEC-100” İnkişaf Strategiyasında 6-cı məqsədə nail olmaq üçün strateji hədəf (6.2) kimi 2030-cu ilə qədər insan resurslarının idarəetməsində səmərəliliyin davamlı yüksəldilməsi müəyyənləşdirilmişdir.

ATM-də işçilərin motivasiya və mükafatlandırılması üçün bir sıra tədbirlər həyata keçirilmişdir:

- Professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Diferensial Əməkhaqqı Sistemi tətbiq edilir;
- Nüfuzlu elmi jurnallarda dərc olunan tədqiqat işlərinə görə UNEC əməkdaşlarının mükafatlandırılması həyata keçirilir;
- İngilis dili üzrə bilik səviyyəsi beynəlxalq sertifikatlarla təsdiqlənmiş İngilis dili müəllimlərinin vəzifə maaşlarına əlavələr tətbiq edilir;
- Elmi Şuranın 2022-ci il 31 may tarixli, EŞ-183№-li Qərarı ilə “Nobel mükafatı laureatı Aziz Sancar adına” tədqiqat mükafatı təsdiq edilmişdir;
- Gənc müəllimlərin həvəsləndirilməsi məqsədilə "İlin gənc müəllimi" mükafatı təsis edilmişdir.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

UNEC-də professor-müəllim heyətinin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi ildə bir dəfə Diferensial Əmək Haqqı Sisteminin tələblərinə əsasən həıyata keçirilir.

"İnzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əməkhaqqı sisteminin tətbiqi haqqında" Qaydalar UNEC Elmi Şurasının 2022-ci il 31 may tarixli, 183 saylı Qərarı ilə təsdiq edildiyinə görə hesabat dövründə inzibati heyətin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsi aparılmamışdır. Təsdiq edilmiş Qaydalara əsasən (əlavə 2) qiymətləndirilənlər tabe olduqları rəhbərlər tərəfindən (iki qiymətləndirici) qiymətləndiriləcəkdir.

**5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti**

Professor-müəllim və inzibati heyətin təlim və ixtisasartırma ehtiyacları müvafiq kafedraların təqdimatları əsasında müəyyənləşdirilir. Özünütəhlil Hesabatında qeyd olunur ki, 2022-ci il 5 sentyabr-19 noyabr tarixlərində professor-müəllim və inzibati heyəti üçün həyata keçirilmiş “Yumşaq bacarıqlar” (Soft Skills) təlimlərində 300 nəfər akademik heyət, 197 nəfər isə inzibati heyət iştirak etmişdir.

**5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti**

Özünütəhlil Hesabatında qeyd olunur ki, ATM səviyyəsində və Həmkarlar İttifaqı Komitəsi tərəfindən, habelə struktur bölmələrdə işçilər üçün Milli və Dövlət Bayramları münasibəti və yubileylərlə bağlı tədbirlər, habelə rayonlara ekskursiyalar və s. sosial-mədəni tədbirlər təşkil edilir.

UNEC əməkdaşlarının və təhsilalanların sosial-maddi vəziyyətini yaxşılaşdırmaq üçün verilən birdəfəlik maddi yardım haqqında yeni yaradılmış əsasnamənin təsdiq edilməsinə dair 2014-cü il 29 may tarixli, EŞ-129.8 nömrəli sənəd təqdim olunmuşdur (Əsasnamə əlavə olunmamışdır). Bu istiqamətdə digər sənədlər təqdim edilmədiyindən vəziyyəti qiymətləndirmək mümkün olmamışdır.

**5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti**

Qeyri-akademik heyətin vakansiyası ilə bağlı Dövlət Məşğulluq Agentliyinə bildirilir, təqdim olunan CV-lər İnsan resurslarının idarə edilməsi bölməsi tərəfindən vakansiya olan struktur bölmə rəhbərliyinə təqdim olunur və struktur bölmə tərəfindən namizədlər arasından vəzifə təlimatlarına uyğun olaraq seçim edilir, uyğun namizəd işə qəbul olunur.

**5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti**

"İnzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əməkhaqqı sisteminin tətbiqi haqqında" Qaydalar UNEC Elmi Şurasının 2022-ci il 31 may tarixli, 183 saylı Qərarı ilə təsdiq edilmişdir.

Texniki və köməkçi işçilərin fəaliyyətinin qiymətləndirilməsi sistemi mövcud deyildir.

**5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti**

Azərbaycan Respublikasının Əmək Məcəlləsi və digər müvafiq qanunvericiliyin tələbləri nəzərə alınmaqla əmək münasibətləri və mülki münasibətlərin bağlanması və xitam verilməsi həyata keçirilir.

### *5.3 Maliyyə resurslarının idarə edilməsi*

#### 5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

UNEC-in maliyyə resursları Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2019-cu il 22 avqust tarixli, 365 nömrəli Qərarı ilə təsdiq olunmuş “Azərbaycan Dövlət İqtisad Universiteti” PHŞ-in Nizamnaməsinə uyğun olaraq  ödənişli təhsildən əldə edilən vəsaitdən, qrantlardan, elmi tədqiqat işlərindən, SABAH qruplarının fəaliyyəti, dövlət hesabına təhsilalanlara görə və təqaüdlərin ödənilməsi üçün dövlət büdcəsindən maliyyələşmələr və qanunla qadağan olunmayan digər mənbələrdən formalaşmışdır.

#### 5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

Gəlir və xərclərin 1 və 3 illik planlaşdırılması aparılır. UNEC-in büdcə gəlirləri içərisində qeyri-təhsil haqqı gəlirlərinin payı 2021-ci il üçün 0,41%, 2022-ci il üçün 2% təşkil etmişdir. Resurs planlaması baxımından ATM-də vaxtaşırı iclaslar keçirilir və cari maliyyə vəziyyətinin təhlili aparılır, sonradan maliyyə resurslarının planlaşdırılması yuxarı rəhbərlik səviyyəsində həyata keçirilir. Bununla bağlı olaraq, ATM tərəfindən müvafiq maliyyə hesabatları təqdim olunmuşdur: 31.12.2021-ci il tarixli (Forma №1) Maliyyə Vəziyyəti Haqqında Hesabat (VOEN 170091281), 31.12.2019-cu il tarixli Xalis Aktivlər / Kapitalda Dəyişikliklər Haqqında Hesabat, VOEN 170091281 (Forma №3) və 31.12.2020-ci il tarixli Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat – birbaşa metod (Forma №4).

#### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

“UNEC-100” İnkişaf Strategiyasında nəzərdə tutulmuş istiqamətlər üzrə fəaliyyətlərin maliyyələşdirilməsi müəyyənləşdirilərək illik icra göstəricilərinin reallaşdırılması məqsədilə müvafiq təhlillər aparılır. Hesabat dövrü üzrə təqdim olunmuş maliyyə hesabatlarına baxış əsasında UNEC-də 2016-cı ildən başlayaraq maliyyə resurslarının analitik təhlilinin aparıldığı müşahidə edilmişdir. Bu isə öz növbəsində maliyyə resurslarının planlaşdırılması və ATM-in büdcəsinin artımı tendensiyasından xəbər verir.

#### 5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti

ATM-ə sahə səfəri çərçivəsində 31.12.2019-cu il tarixli Maliyyə Fəaliyyətinin Nəticələri Haqqına Hesabat (Forma №2); 31.12.2019-cu il tarixli Xalis Aktivlər / Kapitalda Dəyişikliklər Haqqında Hesabat, VOEN 170091281 (Forma №3); 31.12.2019-cu il tarixli Pul Vəsaitlərinin

Hərəkəti Haqqında Hesabat – birbaşa metod (Forma №4); 31.12.2021-ci il tarixli Maliyyə Vəziyyəti Haqqında Hesabat (VOEN 170091281) və digər müvafiq hesabatlara baxılmışdır.

Təqdim olunmuş "Maliyyə vəziyyəti" haqqında hesabatın təhlili əsasında uzunmüddətli aktivlərin ümumi göstəriciləri üzrə artım tendensiyası müşahidə olunur.

Təqdim olunmuş maliyyə hesabatlarının təhlilinə əsaslanaraq (son 3 il üzrə) əməliyyat fəaliyyətindən maliyyə aktivlərinin daxilolmasında, eləcə də ATM-in əsas və köməkçi prosesləri üzrə maliyyə göstəricilərində artım meylini qeyd etmək olar.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

Sahə səfəri zamanı ATM tərəfindən təqdim olunmuş sənədlərin *(31.03.2018-ci il tarixli (31.12.2017 - Forma №1) Maliyyə Vəziyyəti Haqqında Hesabat (VOEN 170091281); 31.03.2018-ci il tarixli (31.12.2017 - Forma №2) Maliyyə Fəaliyyətinin Nəticələri Haqqında Hesabat (VOEN 170091281); 31.03.2018-ci il tarixli (31.12.2017) Xarici Aktivlər / Kapitalda Dəyişikliklər Haqqında Hesabat (VOEN 170091281); 31.03.2018-ci il tarixli (31.12.2017 - Forma №4) Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat – birbaşa metod (VOEN 170091281); 31.12.2019-cu il tarixli Maliyyə Vəziyyəti Haqqında Hesabat (Forma №4); 31.12.2019-cu il tarixli Maliyyə Fəaliyyətinin Nəticələri Haqqına Hesabat (Forma №2); 31.12.2019-cu il tarixli Xalis Aktivlər / Kapitalda Dəyişikliklər Haqqında Hesabat, VOEN 170091281 (Forma №3); 31.12.2019-cu il tarixli Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat – birbaşa metod (Forma №4); 31.12.2021-ci il tarixli Maliyyə Vəziyyəti Haqqında Hesabat (VOEN 170091281) və digər Hesabatlar)* təhlili əsasında qeyd etmək olar ki, əldə olunan maliyyə resurslarından səmərəli qaydada istifadə olunur.

Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsinin müəyyənləşdirilməsi üçün monitorinq zamanı (meyarlar istiqamətində) bütün sahələr üzrə hesabatlar və digər sənədlər nəzərdən keçirilmişdir. Sözügedən sənədlərdə maliyyə fəaliyyətinə, xarici aktivlər və pul vəsaitinin dövriyyəsinə aid olan bütün istiqamətlər üzrə tam statistik göstəricilər göstərilməklə analitik təhlil öz əksini tapmışdır.

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğunun müəyyənləşdirilməsi məqsədilə UNEC-ə sahə səfəri çərçivəsində aşağıdakı sənədlər və maliyyə qeydlərinə baxılmışdır:

- Azərbaycan Dövlət İqtisad Universiteti Publik Hüquqi Şəxsinin Nizamnaməsi (təsdiq olunma tarixi 08.10.2019);
- Nizamnamənin 3.1.18-ci və 4.12-ci bəndləri,
- UNEC-in Nizamnamə Fondu, Əmlakı və Maliyyə Fəaliyyətinin Əsasları (№49.521.759).

UNEC-in maliyyə resursları Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2019-cu il 22 avqust tarixli, 365 nömrəli Qərarı ilə təsdiq olunmuş "Azərbaycan Dövlət İqtisad Universiteti" PHŞ-in Nizamnaməsinə uyğun olaraq ödənişli təhsildən əldə edilən vəsaitlər, qrantlar, elmi

tədqiqat işləri, SABAH qruplarının fəaliyyəti və dövlət hesabına təhsil alanlara görə təqaüdlərin ödənilməsi üçün dövlət büdcəsindən maliyyələşmələr və qanunla qadağan olunmayan digər mənbələrdən formalaşmışdır.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması UNEC-in Nizamnaməsinə uyğun olaraq həyata keçirilir. Nizamnamənin 4.12.5-ci yarımbəndinə əsasən ATM-in illik xərclər smetası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla rektor tərəfindən təsdiq edilir.

Nizamnamənin tələblərinə əsasən maliyyə resurslarından təyinatı üzrə səmərəli istifadənin təmin edilməsi ATM-in əsas vəzifələrindən biri olaraq müəyyən edilmişdir. UNEC Nizamnaməsinin təsdiq edilməsi haqqında 365 №-li Qərarın 3.1.18. bəndində qeyd olunduğu kimi, «UNEC-ə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək» istiqaməti UNEC-in əsas vəzifəsi və hüququ kimi qeyd olunmuşdur.

Eyni zamanda, UNEC-in Nizamnamə Fondunun, Əmlakının və Maliyyə fəaliyyətinin rentabelliyinin və səmərəliliyinin səviyyəsinin müəyyənləşdirilməsi məqsədi ilə sahə səfəri zamanı daha ətraflı (UNEC tərəfindən təqdim olunmuş) 49-521/759 nömrəli sənəd təhlil olunmuşdur.

Təqdim olunmuş sənədlərin təhlili nəticəsində ATM-in maliyyə resurslarının dövriyyəsi və istifadəsi üzrə büdcə smetasının hazırlanması/təsdiq edilməsi prosedurlarının UNEC-in Nizamnaməsinə uyğunluğu müəyyənləşdirilmişdir.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

Sözügedən indikatorun təhlili üzrə yazılı qeydlər və təsdiqedici sənədlər təqdim edilmədiyinə görə sahə səfəri çərçivəsində maliyyə resurslarının təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsinin müəyyənləşdirilməsi mümkün olmamışdır.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma proseduru KİS/Pr/07 “Satınalma Proseduru” və “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

UNEC-də “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparılır, maliyyə hesabatları tərtib olunur və aidiyyəti üzrə

təqdim edilir. ATM-ə sahə səfəri zamanı müvafiq istiqamətdə tərtib olunmuş hesabatlar və təhlil arayışlarına baxış keçirilmişdir.

UNEC-də satınalma proseduru, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə müəyyən olunmuş prosedur "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun və İSO-9001 beynəlxalq standartın 8.4-cü bəndinin tələblərinə uyğun olaraq həyata keçirilir. Bununla əlaqədar olaraq UNEC-də Tender Komissiyası fəaliyyət göstərir. Tender Komissiyası hər ilin sonunda müvafiq hesabatlar və təhlil arayışlarını tərtib edərək, UNEC rəhbərliyinə təqdim edir. Satınalma proseslərində iştirak edən bütün xarici təchizatçılar tərəfindən təmin olunan proses, məhsul və xidmətlər üzrə qiymətləndirmə mexanizmi tətbiq olunur.

### 5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

ATM-ə sahə səfəri çərçivəsində *31.03.2018-ci il tarixli (31.12.2017 - Forma №1) Maliyyə Vəziyyəti Haqqında Hesabat (VOEN 170091281); 31.03.2018-ci il tarixli (31.12.2017 - Forma №2) Maliyyə Fəaliyyətinin Nəticələri Haqqında Hesabat (VOEN 170091281); 31.03.2018-ci il tarixli (31.12.2017) Xarici Aktivlər / Kapitalda Dəyişikliklər Haqqında Hesabat (VOEN 170091281); 31.03.2018-ci il tarixli (31.12.2017 - Forma №4) Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat – birbaşa metod (VOEN 170091281); 31.12.2019-cu il tarixli Maliyyə Vəziyyəti Haqqında Hesabat (Forma №4); 31.12.2019-cu il tarixli Maliyyə Fəaliyyətinin Nəticələri Haqqına Hesabat (Forma №2); 31.12.2019-cu il tarixli Xalis Aktivlər / Kapitalda Dəyişikliklər Haqqında Hesabat, VOEN 170091281 (Forma №3); 31.12.2019-cu il tarixli Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat – birbaşa metod (Forma №4); 31.12.2021-ci il tarixli Maliyyə Vəziyyəti Haqqında Hesabat (VOEN 170091281)* və digər müvafiq hesabatların təhlili əsasında UNEC-də maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunduğunu və aidiyyəti orqanlarla işin qurulmasının qənaətbəxş vəziyyətdə olduğunu qeyd etmək olar.

### 5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

UNEC "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq "Vahid rüblük hesabat", "Ödəmə mənbəyindən tutulan vergi bəyənnaməsi" və "ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan şəxslər tərəfindən qeyri-rezidentə ödənilmiş məbləğə hesablanmış əlavə dəyər vergisinin bəyənnaməsi"ni elektron qaydada tərtib və təqdim edir. Həmçinin, UNEC-in fəaliyyətinə dair illik maliyyə hesabatları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilir.

Özünütəhlil Hesabatında adıçəkilən hesabatların UNEC-in rəsmi internet saytında yerləşdirildiyi qeyd olunsa da, təhlil zamanı sözügedən məlumatları https://unec.edu.az/ saytından əldə etmək mümkün olmamışdır.

### 5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu

2014-cü ildə UNEC-də Daxili audit şöbəsi yaradılmışdır. ATM-də maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə Daxili audit şöbəsi tərəfindən son 3 ildə aparılan nəzarət və monitorinq tədbirlərinin nəticələrinə dair yazılı qeydlər və təsdiqedici sənədlər təqdim olunmamışdır.

### 5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

Sözügedən indikatorun təhlili üçün yazılı qeydlər və təsdiqedici sənədlər ATM tərəfindən təqdim olunmamışdır.

### 5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

ATM-də bütün sahələr üzrə maliyyələşdirilmə elmi fəaliyyət subyektlərinin öz vəsaitləri, dövlət fondlarının vəsaitləri, kreditlər, qrantlar, ianələr və digər qanuni mənbələr hesabına həyata keçirilir.

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, sərbəst maliyyə vəsaitlərindən səmərəli istifadə etməklə UNEC 2018-2021-ci illər ərzində ümumilikdə 2,55 milyon manat xalis gəlir əldə etmişdir.

## *5.4 İnformasiya idarəetmə sistemi*

### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, “Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanının müvafiq bəndlərinin təmin edilməsi məqsədilə 2015-ci il 16 sentyabr tarixli, 67/1/2015 saylı “Elektron Universitet sisteminin” tətbiqi haqqında UNEC rektorunun əmrinə əsasən EDUMAN sisteminin tətbiqi ilə bağlı komissiya yaradılmışdır. Komissiyanın fəaliyyəti nəticəsində 2015-ci il tarixindən etibarən 9 fakültə, 3 mərkəz və 1 departamentdə EDUMAN, EXAM sistemlərinin tətbiqinə başlanılmışdır.

EDUMAN sistemində 2016-cı ildə əlavə 5 modul (transkript, apellyasiya, tədris materialları, elektron jurnallara baxış, yazılı imtahanların nəticələrinin sistemə daxil edilməsi) və 2017-ci ildə yenidən 6 modul (sualların tələbə kabinetinə göndərilməsi, təqaüd, sərbəst işlər, hesabatlar, tələbə hərəkəti və yay məktəbi) istifadəyə verilmişdir. 2019-cu ildə Bir pəncərə modulu, distant təhsilin elektron idarə edilməsi modulu istifadəyə verilmiş, dərs cədvəli modulu təkmilləşdirilmiş, FTP modulunun texniki tapşırığı təsdiqlənmişdir. 2019-cu ildə yaradılmış modullara texniki dəstəyin aparılması məqsədilə saathesabı müqavilə bağlanmış, modul dərslərin təşkil edilməsi üçün yeni dərs cədvəli üzrə müqavilə təsdiqlənmiş və EXAM

təkmilləşdirmə müqaviləsi hazırlanmışdır. 2020-ci ildən etibarən sənəd qəbulunun elektronlaşdırılması prosesi həyata keçirilmiş və sənəd qəbulu modulu istifadəyə verilmişdir. 2021-ci ildə kommunikasiya modulu üzrə texniki tapşırıq hazırlanaraq təsdiq edilmiş, tələbə və müəllim kabinetlərinin isə Zoom platformasına inteqrasiyası təmin edilmişdir. D/Y-7045/2020 saylı xidməti məlumatla EDUMAN sisteminin təkmilləşdirilməsinə dair təkliflərə əsasən FTP/Tədris yükü modulu üzrə texniki tapşırıq hazırlanmış və 2022-ci ildə texniki tapşırıq təsdiq olunmuşdur.

UNEC-də 2015-ci il 1 may tarixindən etibarən kargüzarlıq işlərinin DocNet elektron sənəd dövriyyəsi sistemi vasitəsilə aparılmasına başlanmışdır.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

UNEC-də İnformasiya idarəetmə sistemi çərçivəsində proseslərin əhatəliliyi və funksionallığı “EDUMAN”, “EXAM modulu”, “Bir pəncərə modulu”, “UNEC tədris binalarına giriş-çıxışı təmin edən turniket modulu” və “DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi” vasitəsilə təmin olunur. Sözügedən modullar üzrə mütəmadi olaraq təkmilləşdirmə işləri, texniki dəstək və monitorinq “ULTRA Technology” şirkəti tərəfindən sifariş əsasında həyata keçirilir. DocNet ESDS-in funksionallığının təkmilləşdirilməsi ilə bağlı müntəzəm olaraq UNEC-də sistemin yenilənmə prosesi təmin olunur.

*“EDUMAN” sistemi:* dərs cədvəli, elektron jurnal, fənn kataloqu, təqvim planı, tədris materialları, qiymətləndirmə, distant təhsilin təşkili, kommunikasiya.

*“EXAM” modulu:* imtahan suallarının hazırlanması, testlərin tərtibi, yekun və aralıq qiymətləndirmənin aparılması, apelyasiyanın təşkili, təqaüdün müəyyən olunması.

*“Bir pəncərə” modulu:* tələbə, məzun və əməkdaşların 24/7 müxtəlif tipli arayışların imza və möhürlə təsdiq olunmuş, QR kodla, PDF formatında əldə olunması.

*“UNEC tədris binalarına giriş-çıxışı təmin edən turniket” modulu:* Giriş-çıxış zamanı müxtəlif yoxlamaların aparılması ilə əməkhaqlarının hazırlanması.

*“DocNet Elekton Sənəd Dövriyyəsi” Sistemi:*

- Daxil olan – kənar təşkilatlardan daxil olan sənədlərin reyestri;
- Vətəndaş müraciətləri – İşçilər, tələbələr, vətəndaş müraciətlərinin reyestri;
- Daxili sənədlər – daxili sənədlər reyestri: xidməti məktublar, əmr, sərəncam və ərizələr;
- Çıxış sənədləri – təşkilatdan çıxan sənədlər reyestri;
- DDXM - dərkənarın dəyişdirilməsi haqqında xidməti məruzələr;
- Sənədlərin razılaşdırılması – razılaşdırmaya daxil olan tapşırıqlar reyestri;
- Sənədlərin icrası – sənədlərin icrasına, icraya daxil olan tapşırıqlar reyestri;
- Axtarış – məlumatların axtarışını həyata keçirmək üçün;

- Sorğu kitabçaları – İcraçı şablonları, razılaşdırma marşrutlarının şablonları, dərkənar şablonları, dərkənar mətnlərinin şablonları, tanışolma şablonları, yarlıqlar.

Qeyd olunan modullar üzrə mütəmadi olaraq təkmilləşdirmə işləri tərəfdaş şirkət tərəfindən yaradılmış müvafiq proqrama əlavələr olunmaqla dəstək müqaviləsi çərçivəsində aparılır. Eyni zamanda, məlumatların yenilənməsi məqsədilə müxtəlif inteqrasiya prosesləri həyata keçirilir.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

EDUMAN elektron idarəetmə sistemi vasitəsilə UNEC-də bütün səlahiyyətlərin bölgüsü Keyfiyyət İdarəetmə Sistemi strukturuna uyğun olaraq tətbiq olunmuşdur. Dərs cədvəli, fənn üzrə qrup bölməsi, laboratoriya bölməsi, tələbə, məzun bölməsi dekanlıqlara, fənn kataloqu, təqvim tematik plan bölmələri kafedralara təhkim edilmiş, dekanlıq və kafedraların adı çəkilən bölmələr üzrə keyfiyyətli fəaliyyətinin təmin edilməsi, eyni zamanda EDUMAN sistemindəki digər funksiyalar isə UNEC EXTERN mərkəzinə həvalə edilmişdir.

İmtahanların təşkili məqsədilə yaradılmış EXAM sistemində də səlahiyyətlərin bölgüsü idarəetmə strukturuna uyğun olaraq aparılmışdır. Belə ki, imtahan qeydiyyatının yaradılması dekanlıqlara, sualların göndərilməsi (məxfi suallar istisna) İmtahan Mərkəzinə, sualların yaradılması və təsdiqi kafedraya həvalə edilmişdir.

Lakin son 2 ildə imtahan sistemində aparılan dəyişikliklər üzrə təhlillər və həmin dəyişikliklərin planlı şəkildə həyata keçirilməsinə dair yazılı sübutlar təqdim olunmamışdır (6.3. “Change Management” İSO-9001:2015 tələblərinə uyğun olaraq).

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

UNEC-in bütün tədris fəaliyyətləri elektronlaşdırılmış formada keçirilir. Qeyd olunan proseslər https://unec.edu.az/sened-qebulu/ saytı vasitəsilə aparılır. Qəbul zamanı sənədlərin elektron versiyası sistemə daxil edildikdən sonra tələbələrin müraciəti təsdiq olunur. Müraciəti təsdiq olunmuş tələbələr üçün avtomatik olaraq kabinet açılır. UNEC-də quraşdırılan turniket sisteminin tələbələrin elektron jurnallarına da müvafiq qaydada inteqrasiyası təmin edilmişdir.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

İnformasiya idarəetmə sisteminin əlçatanlığı tələbə və müəllimlər üçün yaradılmış kabinetlər vasitəsi ilə təmin olunmuşdur. Eyni zamanda, görülmüş təkmilləşdirmə tədbirləri nəticəsində informasiya idarəetmə sistemində müvafiq müsbət nəticələr əldə etmək mümkün olmuşdur:

- Tələbələrin daim cədvəllərinə, onlayn və ya hibrid dərslərin linklərinə sərbəst daxil olması;

- Həmin dərslərin videoyazısına, müəllimlər tərəfindən yüklənmiş tədris materiallarına, tədris zamanı müəllimlər tərəfindən verilmiş tapşırıqlara baxış və həmin tapşırıqların vaxtında müəllimə təqdim edilmə imkanları;
- Kommunikasiya modulu vasitəsilə tələbə və ya əməkdaşlarla rahat ünsiyyətin qurulması imkanları;
- Akademik fəaliyyətin sistem tərəfindən qiymətləndirilməsini izləmə imkanı;
- Tələbələrin müəllimləri qiymətləndirmə sorğusunda iştirak imkanı və s.

DocNet Elekton Sənəd Dövriyyəsi Sistemində UNEC-in bütün struktur bölmələri üzrə 300-ə yaxın əməkdaş təmsil olunmaqla yanaşı, tələbələrin DocNet Elektron Sənəd Dövriyyəsi Sisteminə əlçatanlığı tələbə-rektor və THİK-in sədrinin ESDS-dən istifadəsi vasitəsilə təmin edilir.

Sahə səfəri zamanı ATM-də proqram təminatının təhlükəsizliyi ilə bağlı görülən tədbirlərə dair aşağıda qeyd olunan istiqamətlər üzrə hesabat və qeydlər Akkreditasiya Komissiyasına təqdim olunmuşdur:

- firewall sistemin təkmilləşdirilməsi;
- istifadəçilər tərəfindən tələbə və müəllim kabinetlərində veb-səhifə elementlərinə girişin bloklaşdırılması;
- daxil olma proseslərinin təhlili sisteminin yaxşıllaşdırılması;
- daxili serverdəki veb-resurlar üçün FAW yaradılması.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

Özünütəhlil Hesabatında qeyd olunur ki, "Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Standartlar və Təlimatlar"a (ESG 2015) əsasən UNEC daxili keyfiyyət təminatı sistemi çərçivəsndə informasiya idarəetmə sistemində tələbələrin məlumatlara, tədris materiallarına əlçatanlığının təmin edilməsi məqsədi ilə tələbə və müəllim kabinetləri yaradılmışdır. Kabinetlər vasitəsilə xəbər və elanlar, tədris materiallarının daim əlçatanlığı təmin edilmişdir. Tələbənin imtahan nəticəsi ilə tanışlığı üçün müvafiq imkan yaradılmışdır. Yeni yaradılmış "Bir Pəncərə" sistemi vasitəsilə istənilən vaxtda müvafiq müraciətin olunma imkanı tələbələrə təqdim edilmişdir. Eyni zamanda, onlayn dərslər üçün yaradılmış imkan vasitəsilə dərsi yenidən dinləmə imkanının təmin edilməsi üçün video yazılara baxış imkanı da yaradılmışdır. İnformasiya idarəetmə sistemi Tələbə performansının qiymətləndirilməsi üçün Exam sistemi, Tələbə məmnunluq səviyyəsinin ölçülməsi məqsədilə məmnunluq sistemində müvafiq sorğular keçirilir.

UNEC-də daxili keyfiyyət təminatı sisteminin icrası ilə bağlı PİNT (Planla, icra et, nəzarət və tətbiq et) sisteminin real tətbiqi işlək DocNet ESDS vasitəsilə həyata keçirilir. Belə ki, layihə və proseslərin sənəd formasında planlanması, təsdiqi, icrası (Viza, imza, dərkənar, marşrut və s. funksiyalar) və icra prosesində nəzərə alınan çatışmazlıqların nəzərə alınması prosesi şəffaf şəkildə sənəd dövriyyəsi sisteminin elektron idarə edilməsi platforması üzərindən icra edilir.

Təqdim olunmuş qeydlər və müvafiq hesabatların aparılması üçün məlumatların daimi əlçatanlığı, keyfiyyət idarəetmə sistemi çərçivəsində tətbiq olunmuş imkanların öz töhfəsini verdiyini sözügedən istiqamətdə aparılmış təhlil əsasında qeyd etmək olar.

### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

UNEC-i seçmiş tələbələrin siyahısı və lazımi məlumatlarının Dövlət İmtahan Mərkəzindən EDUMAN-a inteqrasiyası mövcuddur. Əlavə olaraq, COVİD məlumatlarını yoxlamaqla tədris binalarına girişin təmin edilməsi məqsədilə UNEC və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sistemləri arasında inteqrasiya mövcuddur.

### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

Şəbəkə və server təhlükəsizliyinin təmin edilməsi ilə bağlı 2021-ci ildə 3, 2022-ci ildə 3 tədbir həyata keçirilmişdir. VPN sistemi, DHP sistemi, Domen kontroller, NAC sisteminin qurulması (şəbəkəyə qoşulan avadanlıqların idarə olunması) həyata keçirilmişdir. DocNet Elekton Sənəd Dövriyyəsi Sistemində bütün məlumatlar bir serverdə qorunmaqla, yalnız daxili şəbəkədən sistemə giriş hər istifadəçinin öz login və məxfi şifrəsi ilə təmin edilir. DocNet ESDS-in etibarlılığı istifadəçilərin sertifikatlaşdırılmış imzaları ilə təsdiq edilir. DocNET Elektron sənəd Dövriyyəsi Sistemində UNEC-in 87 struktur bölməsi fəaliyyət göstərir. Ümumi lisenziyaların sayı – 300, onlardan işlək vəziyyətdə olan lisenziyaların sayı 295, ehtiyatda – 5. Təqdim olunan göstəricilər qənaətbəxşdir, lakin bu sistemdən istifadə imkanlarının genişləndirməsi və istifadəçilərin sayının artırılması tövsiyə olunur. İnformasiya idarəetmə sisteminin təhlükəsizliyinin təmin edilməsi məqsədilə mütəmadi olaraq tərəfdaş şirkət tərəfindən mövcud informasiya sistemlərinin məlumatlarının ehtiyat nüsxəsi (backup) çıxarılır.

Eyni zamanda, şəbəkə və server təhlükəsizliyi sahəsində “2020 - Next Generation Firewall”-un quraşdırılması, şəbəkə avadanlıqlarının diaqnostikası və resurslarının müəyyən olunması, internet şəbəkəsinin qoşulduğu routerin ötürücülüyü daha böyük olan model ilə yenilənməsi, 2021 - server avadanlıqlarının diaqnostikası və resurslarının müəyyən olunması, serverlərin işinin fasiləsizliyinin təmin olunması üçün UPS-lərin yenilənməsi və Cloud üzərindən WAF tətbiqini effektiv və səmərəli göstəricilər kimi qeyd etmək olar.

“UNEC-100” İnkişaf Strategiyasında qoyulmuş hədəflərə görə 2023 yeni nəsil serverlərin alınması, virtual maşınlarda istifadə olunan servislərin yenilənməsi, “Apache Tomcat və Nginx” servislərinin yenilənməsi, habelə server otağının avadanlıqlarının diaqnostikası, təmiri və yenilənməsi kimi tədbirlər planlaşdırılmışdır. Təqdim olunan təhlil göstəricilərinə əsasən:

1) Şəbəkə və server təhlükəsizliyi ilə bağlı tədbirlərin sayı: 2021-ci ildə 3 və 2022-ci ildə 3 geniş kompleks tədbirlər görülmüşdür (2023-cü il üçün isə müvafiq tədbirlərin sayı (4) hədəf kimi müəyyənləşdirilmişdir);

2) Proqram təminatının təhlükəsizliyi ilə bağlı tədbirlərin sayı: 2021-ci ildə 1 və 2022-ci ildə 3 tədbir təşkil olunmuşdur. Wi-fi sahələrinin genişləndirilməsi (hədəfdən ümumi sahənin faizi ilə) 2022-ci ildə 40% təşkil etmişdir (2021-ci ildə bu göstərici 33% olmuşdur).

## *5.5 İctimaiyyətlə əlaqələr*

### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, UNEC rəsmi saytı https://asue.edu.az/ domeni ilə 2010-cu ildə fəaliyyətə başlamışdır. 2015-ci ilin may ayında isə sayt yenilənərək UNEC brendinə uyğunlaşdırılmış və https://unec.edu.az/ domeni ilə fəaliyyətini davam etdirmişdir.

Əlavə olaraq, 2018-ci ildə https://news.unec.edu.az/ domeni ilə UNEC News adlı xəbər saytı da yaradılmışdır. Saytın yaradılmasının məqsədi universitetdə baş verən bütün yeniliklərin ictimaiyyətə operativ şəkildə çatdırılması olmuşdur. Burada UNEC-dəki yeniliklərlə yanaşı, universitetin peşəkar ekspertlərinin rəyləri, tələbə, məzun və abituriyentlərə yönəlik layihələr, uğur hekayələri, müsahibələr və digər mövzuları əhatə edən məlumatlar, eləcə də müxtəlif məzmunlu elanlar yer alır.

https://unec.edu.az/ saytında rəhbərlik, inzibati struktur, fakültə, kafedralar, universitetlə əlaqə, filiallar, tədris binaları, akademik heyət və digər istiqamətlər üzrə məlumatlar əks olunmuşdur.

UNEC-də mövcud təhsil proqramları və onun əsasında hazırlanmış tədris planları təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlılığının təmin edilməsi məqsədilə UNEC-in rəsmi internet saytında yerləşdirilmişdir.

### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

UNEC-in rəsmi saytında rəhbərlik, inzibati struktur, fakültə, kafedralar, universitetlə əlaqə, filiallar, tədris binaları, akademik heyət və digər istiqamətlər üzrə məlumatlar əks olunmuşdur. Həmçinin, yenilənmiş məlumatlar fakültələr, inzibati struktur bölmələr və tələbə təşkilatlarının sosial şəbəkə kanallarında də paylaşılaraq geniş ictimaiyyətə çatdırılır.

UNEC-in rəsmi saytındakı məlumatlar yenilənir, eləcə də ATM-də baş verən yeniliklər ictimaiyyətə "UNEC News" vasitəsilə çatdırılır.

### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

ATM-də DocNet Elektron Sənəd Dövriyyəsi Sisteminin Sənəd reysterinin Çıxış sənədləri menyusundan məktubların hazırlanması, poçt, e-poçt, sürətli poçt, korporativ e-mail vasitəsilə Ümumi şöbə tərəfindən ictimaiyyətin məlumatlandırılması həyata keçirilir.

2021-ci il 28-29 iyun tarixlərində keçirilən XIV UNEC Karyera Yarmarkasında Virtual "Endless Fairs" Karyera platforması yaradılmışdır (https://karyerayarmarkasi.unec.edu.az/home). Sözügedən platforma vasitəsilə 120 şirkət

qeydiyyatdan keçərək yarmarkada iştirak edən 4002 məzuna aktiv iş təklifi təqdim edilmişdir. Yarmarkanın keçirilmə tarixindən bir ay sonrakı nəticələrə əsasən 708 məzun təcrübəçi olmaq imkanı əldə etmiş, nəticədə 564 məzun işlə təmin olunmuşdur. Platforma il boyu aktivdir və məzunların məşğulluğunun təmin olunması prosesi davam etdirilir. Platformanın əsas üstünlükləri vaxt itkisinə qənaət, daha çox məzun və şirkət əməkdaşlarının nəqliyyat və digər vəsaitlərə xərc sərf olunmadan karyera yarmarkasında virtual iştirakı və statistikanın zamanında bilinməsidir (https://karyerayarmarkasi.unec.edu.az/home; https://unec.edu.az/unec-den-novbeti-yenilik-virtual-karyera-yarmarkasi/).

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

“UNEC-100” İnkişaf Strategiyasında qeyd olunmuş məqsədlərə çatmaq üçün müəyyən olunmuş 4.2-ci Hədəf “2030-cu ilə qədər UNEC-də toplanan bilik və təcrübənin cəmiyyətə transfer mexanizmlərinin fasiləsiz təkmilləşdirilməsi” üzrə təhlil aparılmış və sözügedən təhlil nəticəsində aşağıdakı tendensiyalar müşahidə edilmişdir:

| Tədbirlər | 2021 | 2022 | 2023 (hədəf) |
|---|---|---|---|
| 1. ATM nümayəndələrinin iştirakı ilə milli radio və televiziya kanallarında keçirilən verilişlərin sayı | 15 | 25 | 35 |
| 2. UNEC rəsmi təmsilçiləri və alimlərinin çıxışlarının sayı | 200 | 250 | 300 |
| 3. Radio UNEC-də hazırlanan maarifləndirici verilişlərin sayı | 12 | 14 | 16 |

### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

UNEC-in rəsmi sosial şəbəkələrinə, 1846 Qaynar Xəttinə daxil olan müraciətlərin hər biri müvafiq qaydada araşdırılaraq cavablandırılır. Kütləvi informasiya vasitələrindəm universitetlə bağlı daxil olan sorğular aidiyyəti strukturlara yönləndirilərək cavablandırılması təmin olunur.

### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

UNEC-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti üzrə daxili auditin keçirilməsinə dair yalnız 2021-ci il üzrə hesabat təqdim olunsa da, ümumi təhlil və monitorinq hesabatları üzrə yazılı sürətdə sübutlar ilə tanış olmaq mümkün olmamışdır. Sözügedən hesabatda yalnız keyfiyyət idarəetmə sistemi çərçivəsində fəaliyyət göstərən struktur bölmələrdə aparılan iş proseslərinin monitorinq nəticələri qeyd olunmuşdur.

## 6. İNFRASTRUKTUR

### *6.1 Tədris infrastrukturu*

#### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

UNEC-in tədris prosesinin təşkil olunduğu binalarının ümumi sahəsi 50062,4 $m^2$ təşkil edir ki, onun da faydalı sahəsi 34021,01 $m^2$ olmaqla dövlət standartlarına uyğunluq təşkil edir. Binaların texniki pasport və inventarizasiya aktları mövcuddur.

ATM-in bütün tədris binaları, o cümlədən tədris otaqları tədrisin təşkili üçün əsasən uyğundur. Belə ki, mühazirə və məşğələ dərsləri üçün nəzərdə tutulmuş auditoriyaların sahəsi 13503 $m^2$ təşkil edir ki, mövcud sahə təlim-tədris prosesinin təşkili üçün kifayətdir.

UNEC-də hər təhsilalana düşən faktiki sahə 2,62 $m^2$ təşkil edir ki, onun da faydalı sahəsi 1,78 $m^2$ olmaqla normativlərə uyğundur.

Sahə səfəri zamanı baxış keçirilən auditoriyaların kompyuter və ağıllı lövhələrlə təchiz olunması əyani formada müşahidə edilmişdir. 262 tədris auditoriyasından 100-də auditoriyada hibrid formada tədrisin aparılması üçün şərait uyğundur.

İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 184 (ümumi sahəsi 6395,82 $m^2$), akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 58 (ümumi sahəsi 2604,98 $m^2$) otaq təşkil edir.

ATM-də 11 ədət akt, 4 ədəd idman zalı (voleybol və basketbol zalı, əl oyunları idman zalı, trenajor zalı, Şahmat klubu otağı) mövcuddur ki, müvafiq zallara sahə səfəri zamanı baxış keçirilmiş və normalara uyğun olduğunu müəyyən edilmişdir (https://unec.edu.az/idman/).

Quba rayonunun İkinci Nügədi kəndində 6 hektardan artıq ərazidə UNEC-in Tədris, İdman və İstirahət Kompleksi inşa edilmişdir ki, kompleksdə 350 tələbə yeri olan yay məktəbi infrastrukturu mövcuddur (https://unec.edu.az/sosial-heyat/nuqedi-saglamliq-dusergesi/).

#### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

UNEC-də Kitabxana informasiya mərkəzi (KİM) mövcuddur ki, onun tərkibində Depozitar fond, Əsaslı kitabxana, Kataloqlaşdırma, kitabişləmə və biblioqrafiya şöbəsi, Xidmət şöbəsi, Elektron resurslar şöbəsi, 24/7 Kitabxana, 1,2,3,4 saylı tədris binaları üzrə oxu zalları və kitabxana fəaliyyət göstərir. UNEC-in bütün tədris binalarında kitabxana və oxu zalları yeni təmir olunmuş və onlardan istifadə üçün lazımi şərait yaradılmışdır. Qanunvericiliyə uyğun olaraq (AR NK 23.04.2012 tarixli 87 saylı və 03.08.2012 tarixli 171 saylı Qərarları) Kitabxanada oxucu yerləri, informasiya məntəqəsi (ədəbiyyatın verilməsi və qəbulu sahəsi), kataloqlarla iş yeri, açıq istifadə fondları, qapalı saxlanma fondları mövcuddur. Mərkəzin ümumi fondu 85250 nüsxə təşkil edir ki, 2022-ci ildə fonddan 5 silinmə aktı həyata keçirilmişdir. Silinən kitablardan 5 nüsxəsinin 9 saylı cəzaçəkmə müəssisəsinin kitabxanasına verilməsi xüsusilə qeyd edilməlidir (mənbə: UNEC-KİM 2022-ci il üzrə hesabatı). Sahə səfəri zamanı qapalı saxlanma fondlarında kitabların normativlərə uyğun saxlandığı, temperatur, işıqlanma və rütubət normalarına uyğunlaşdırıldığı, açıq istifadə fondlarında istə normativlərə uyğun olaraq komplektləşdirildiyi müşahidə edilmişdir.

Həmçinin, UNEC-də elektron kitabxana mövcuddur ki, tələbə-müəllim heyətini müxtəlif açıq (AgEcon-Kənd/təsərrüfatı və iqtisadiyyata dair resurslar, elmi kataloq, dərslik kitabxanası, jurnallar, Ankara universitetinin resursları, Birləşmiş Millətlər Kitabxanası, Beynəlxalq Valyuta Fondu, Dünya bankı, müxtəlif bilik sahələri üzrə resurslar, Elsevier, Hindawi, siyasi elmlərə dair jurnallar, Bakı Dövlət Universitetinin resursları, EconBiz, Dünya rəqəmsal kitabxanası, Kembric Universiteti Nəşri, İstanbul Universiteti kitabxanası, Universal Rəqəmsal Kitabxana-Milyon Kitab Koleksiyası, İKSAD Beynəlxalq Nəşriyyat Evinin kitabxanası) və abunə olunmuş (IPRSMART, Emerald, EBSCOhost) bazalara girişini təmin edir (https://library.unec.edu.az/t-dqiqat).

Kitabxanalarda müvafiq qanunvericilik aktına uyğun olaraq virtual və əyani sərgi sahələri mövcuddur ki, müvafiq zonalarda yeni nəşrlərlə və əlamətdar günlərlə bağlı vacib məsələlər istifadəçilərin nəzərinə çatdırılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 23 aprel tarixli 87 saylı "Təhsil müəssisəsinin maddi-texniki bazası və təhsil infrastrukturu normativləri"nin təsdiq edilməsi haqqında və 2012-ci il 3 avqust tarixli 171 saylı "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nin təsdiq edilməsi haqqında Qərarlarına əsasən fərdi məşğələlər və qrup müzakirələrinin aparılması üçün kabinetlərə ehtiyac duyulur.

Bəzi oxucu yerlərində birgə oxu stollarının üzərində arakəsmələr mövcud deyildir; bu isə öz növbəsində həm yerlərin tam əlverişli qaydada istifadə olunmamasına, həm də oxucuların diqqətinin yayınmasına səbəb olur.

Müsahibələr zamanı aydın oldu ki, kitabxana üçün kitab sifarişinin həyata keçirilməsi mexanizmində qeyri-müəyyənliklər var. Belə ki, mövcud kitab sifarişi siyahısı maddi problemlərlə əlaqədar olaraq tam həyata keçirilə bilmir, yalnız məhdud sayda kitablar sifariş verilir və bu zaman hansı kitabların alınmasına üstünlüyün verilməsi kafedralarla tam olaraq razılaşdırılmır.

**6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti**

Spesifik ixtisaslar üçün uyğunlaşdırılmış auditoriyalar, laboratoriyalar mövcuddur və lazımi avadanlıqlarla təchiz olunmuşdur. Müvafiq laboratoriya və auditoriyaların tələbələr tərəfindən istifadə olunduğu müşahidə edilmişdir.

UNEC-də Kompozit materiallar elmi-tədqiqat mərkəzi, Laboratoriyaların işinin təşkili mərkəzinin nəzdində Nobel mükafatı laureatı Əziz Sancar adına "Qida təhlükəsizliyi" laboratoriyası, "Qida kimyası və mikrobiologiya" laboratoriyası, "Qida texnologiyaları" laboratoriyası, "Ekologiya" laboratoriyası, "Fizika 1" laboratoriyası, "Fizika 2" laboratoriyası, "Kimya 1" laboratoriyası, "Kimya 2" laboratoriyası, "Elektronika" laboratoriyası, "Elektrotexnika" laboratoriyası, "Materialşünaslıq" laboratoriyası, "Kommunikasiya sistem mühəndisliyi" laboratoriyası, "Maşın və sənaye mühəndisliyi" laboratoriyası, 12 kompyuter laboratoriyası, "Bloomberg" maliyyə laboratoriyası, "Yunus Sosial Biznes Mərkəzi", "İnnovativ Biznes-İnkubator", "İnnovativ Bankçılıq", "Virtual müəssisə", "Maliyyə laboratoriyası", UNEC dizayn

məktəbinin nəzdində 2 yaradıcılıq emalatxanası, Qrafik dizayn emalatxanası fəaliyyət göstərir və baxış zamanı hər birinin standartlara uyğun lazımi avadanlıqlarla təchiz olunduğu müşahidə edilmişdir.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

ATM-də mövcud ixtisaslar üzrə təlim prosesinin həyata keçirilməsinə xidmət edən ümumilikdə 25 laboratoriya mövcuddur ki, onların da ümumi sahəsi 1548,8 $m^2$ təşkil edir. Sözügedən laboratoriyaların müvafiq avadanlıqlarla təchiz olunduğu və işləkliyi sahə səfəri zamanı müşahidə olunmuşdur.

UNEC-in 3 saylı tədris binasına sahə səfəri zamanı laboratoriyalarda bəzi avadanlıqlardan istifadə olunmadığı müşahidə edilmişdir.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

UNEC-də 5 ədəd istehsalat-təcrübə bazası mövcuddur ki, onun da ümumi sahəsi 1140 $m^2$ təşkil edir. Bundan əlavə istehsalat təcrübələri müqavilələr bağlanılaraq müxtəlif qurumlarda və daxili strukturlarda da (ixtisas kafedraları, laboratoriyalar və s.) təşkil olunur.

### 6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

Distant təhsilin təşkili üçün UNEC Extern mərkəzində hər studiyanın eyni zamanda 1000 dinləyiciyə təhsil vermək imkanı olan 6 studiya yaradılmışdır (https://unec.edu.az/idareetme11/merkezler/unec-extern-merkezi/). UNEC-in bütün tədris binalarında tədrisin hibrid formada (əyani və distant) təşkilinə imkan verən müasir texniki avadanlıqlarla təchiz edilmiş ümumilikdə 100 auditoriya mövcuddur. Müvafiq auditoriyalar distant təhsilin təşkili üçün kompyuter, ağıllı lövhə və kameralar ilə təchiz olunmuşdurlar. ATM-ə sahə səfəri zamanı bəzi auditoriyalarda distant tədrisin aparıldığı yerində müşahidə edilmişdir.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

ATM-in balansında müəyyən tədbirlərdə istifadə olunması üçün professor-müəllim heyəti və digər əməkdaşların istifadəsində 16 ədəd minik avtomobil mövcuddur. Eyni zamanda qonaqlama və yük daşıma məqsədi ilə 1 kiçik yük avtomobili və 1 mini avtobus fəaliyyət göstərir.

Həmçinin UNEC-in tədris binalarının yerləşdiyi ərazilər üzrə təhsilalanların, müəllim-professor və inzibati heyətin, o cümlədən qonaqların Universitet binasına getməsi üçün ictimai nəqliyyat əlçatandır.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

ATM-in bütün tədris binalarında mövcud tədris infrastrukturu təhsilalan və əməkdaşlar üçün əlçatandır.

Fakültələrə baxış zamanı kafedra otaqlarında müəllimlər üçün ayrılmış sahə və kompyuterlərin sayının müəllimlərin sayına nisbətdə az olduğu müşahidə edilmişdir (AR NK 03.08.2012 tarixli 171 saylı Qərarı 5.3.5.1. hər biri 50 $m^2$ olmaqla, 6 kafedra).

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

UNEC-də sağlamlıq imkanları məhdud şəxslərin problemlərinin araşdırılması və həll edilməsi üçün İnkluziv Təhsil Mərkəzi fəaliyyət göstərir. İnkluziv qrupda olan tələbələr üçün tədris auditoriyalarında xüsusi avadanlıqlarla (məsələn, gəzmə məhdudiyyəti olan tələbələr üçün diyircəkli partalar) təmin olunma mövcuddur. Həmçinin, offlayn tədrisə cəlb oluna bilməyən təhsilalanlar üçün onlayn tədris şəraiti hibrid auditoriyalar vasitəsilə təşkil edilir.

Tədris binaları üzrə inkluziv tədris infrastrukturu ilə təmin olunma aşağıdakı kimidir:

- 1 saylı tədris binasında liftdən, sanitar-qovşaqdan və 7/24 kitabxanadan istifadə əlçatandır;
- 2 saylı tədris binasında yeməkxana və oxu zalı istisna olmaqla digər xidmətlər əlçatandır;
- 3 saylı tədris binasında şərait uyğundur;
- 4 saylı tədris binası isə sağlamlıq imkanları məhdud şəxslərə uyğunlaşdırılmamışdır.

Sağlamlıq imkanları məhdud tələbələr müvafiq formatda tədris vəsaitləri ilə təmin edilir. Həmçinin, gözdən əlil tələbələr üçün çap məhsullarının hazırlanması ilə bağlı “Brayl” printeri, “Brayl” displeyi, ekran oxuması üçün xüsusi proqram təminatı da mövcuddur.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

Universitetin hər bir tədris binasında ümumi sahəsi 2498 $m^2$ olan yeməkxana mövcuddur, UNEC əməkdaşlarının və təhsilalanların istifadəsindədir. Əlavə olaraq 1 ildir ki, əsas binada UNECOFFEE kafesi istifadəyə verilmişdir.

Mövcud qanunvericiliyə (AR NK 23.04.2012 tarixli 87 saylı) əsasən bütün yeməkxanalarda qida qəbulu zalı, mətbəx istehsalat və köməkçi otaqları, bufet mövcuddur və sanitar normalara cavab verir.

Qanunvericiliyə əsaslanaraq demək olar ki, bütün yeməkxanalarda oturma yerləri tələbə sayına nisbətdə azdır (AR NK 03.08.2012 tarixli ,171 saylı Qərarı 5.3.20. Ali təhsil müəssisələrində bufetlərin və yeməkxanaların nəzdində tələbələrin 2 növbədə 100 faiz yerləşdirilməsi əsas qəbul edilməklə, ümumi sahəsi 1 yerə 1,6 $m^2$ hesablanmış yemək qəbulu zalı nəzərdə tutulur).

Yeməkxanaların bəzilərində qidalanma xidmətinin müvafiq normativlərə uyğun təşkil edildiyini təsdiq edən sənədlərin mövcud olduğu qeyd edilsə də, yeməkxanaların giriş qapılarında məlumat lövhəsi müşahidə edilməmişdir.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

UNEC-in 5 ədəd yataqxanası olduğu halda bütün yataqxanalarda məcburi köçkünlər məskunlaşdırılmışdır. Yeni yataqxananın tikilməsi üçün UNEC tərəfindən müvafiq nəqliyyat infrastrukturuna yaxın ərazidə 930 yerlik müasir yataqxana kompleksinin tikintisi ilə bağlı təkliflər hazırlanaraq Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilmişdir.

#### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

ATM-in əsas tədris binasında 3 saylı tələbə poliklinikası fəaliyyət göstərir və poliklinikanın tərkibində digər tədris binalarında tibb otaqları mövcuddur (ümumi sahəsi 2498 $m^2$). Tələbələr tibbi xidmət üçün zəruri dərman və tibbi ləvazimatlarla həm TƏBİB, həm də UNEC tərəfindən mütəmadi olaraq təmin olunur. Ehtiyac yarandıqda tələbələr sağlamlıq haqqında göndəriş və arayışlarla təmin olunur, stasionar ilkin tibbi yardım göstərilir.

#### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

ATM-in bütün tədris binalarında Elektron idarəetmə mərkəzinin nəzarətində olan komputer otaqları mövcuddur, professor-müəllim, inzibati heyət və təhsilalanlar tərəfindən istifadəsində əlçatanlıq təmin olunur.

İmtahanların keçirilməsi üçün lokal serverə bağlı böyük kompyuter otaqları tələbə sayına uyğundur. Bütün mövcud kompyuterlərin internetə çıxışı təmin olunmuşdur. Bütün əməkdaşlar və bəzi təhsilalanlar üçün kooperativ elektron poçt ünvanları yaradılmışdır.

#### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

Tədris infrastruktunun istifadəsinin və istifadəyə yararlığının monitorinqi müəyyən olunmuş mərkəz və şöbələr tərəfindən aparılır. Auditoriya, laboratoriya, kafedra otaqları, kitabxana, sanitar qovşaqları və digər xidməti otaqların gündəlik təmizliyi və monitorinqinin aparıldığı müşahidə edilmişdir.

Müvafiq auditoriyalarda “auditoriyalardan istifadə qaydaları” haqqında məlumat lövhələrinin olması məqsədəuyğun olardı.

### *6.2 Elmi-tədqiqat infrastrukturu*

#### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

ATM-də tədqiqat işinin aparılması üçün 36 elmi-tədqiqat mərkəzi yaradılmış və mərkəzlərin UNEC-in elmi-tədqiqat resurslarından istifadə edilməsinə şərait yaradılmışdır. Mərkəzlərdə fəaliyyət göstərən rəhbər və üzvlər həm universitetdaxili, həm universitetdən kənar, o cümlədən xarici universitetlərdə çalışan alim və tədqiqatçılardan təşkil edilmişdir. Belə ki, ümumilikdə Mərkəzlərdə ictimai əsaslarla 129 nəfər fəaliyyət göstərir və onlar arasında həm yerli, həm də xarici alimlər yer almaqdadır.

#### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

Tədris binalarına sahə səfəri zamanı mühəndislik, tətbiqi elm sahələri üçün nəzərdə tutulmuş tədqiqat laboratoriyalarına baxış keçirimişdir. Belə ki, UNEC-də müvafiq ixtisaslar üzrə tədris standartlarında nəzərdə tutulan bütün ixtisasyönümlü fənlərin laboratoriya dərslərinin aparılması üçün müasir cihaz və avadanlıqlarla təchiz olunmuş 200-dən artıq praktiki işlərin aparılmasına imkan verən tədris-metodiki laboratoriyalar fəaliyyət göstərir.

Eyni zamanda, müasir tədqiqatlar üçün zəruri olan bir neçə laboratoriyanın qurulması UNEC-in strateji inkişaf planında nəzərdə tutulmuşdur.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## *7.1 Beynəlmiləlləşmə siyasəti*

### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

Özünütəhlil Hesabatında UNEC Nizamnaməsində müəyyən olunmuş vəzifə və hüquqlardan 3.1.10, 3.1.11, 3.2.3, 3.2.5 maddə və alt-maddələri ATM-in beynəlmiləlləşmə siyasəti kimi təqdim olunsa da, mahiyyətcə məhz vəzifə və hüquqlardır. Öz növbəsində, “UNEC-100” İnkişaf Strategiyasında da beynəlmiləlləşmə siyasəti aydın izah edilməmişdir. Strategiyada yalnız beynəlmiləlləşmə fəaliyyəti istiqamətində aşağıdakı strateji məqsədlər və aidiyyəti hədəflər müəyyən olunmuşdur:

Strateji məqsəd 5. Beynəlmiləl universitetə çevrilmək

- Hədəf 5.1. 2030-cu ilə qədər UNEC-ə daxil olan tələbələrin sayında əcnəbilərin payını 10 %-ə çatdırmaq;
- Hədəf 5.2. 2030-cu ilə qədər beynəlxalq mübadilə proqramlarında iştirak edən tələbə, müəllim və inzibati işçilərin və beynəlxalq qrant layihələrinə müraciətlərin sayını daim artırmaq;
- Hədəf 5.3. 2030-cu ilə qədər beynəlxalq ikili diplom proqramlarının sayını davamlı artırmaq və 10-a çatdırmaq;
- Hədəf 5.4. 2030-cu ilə qədər ingilis dilində təhsil proqramlarının sayını davamlı artırmaq.

Strateji məqsəd 7. Yüksək beynəlxalq reytinqli universitetə çevrilmək

- Hədəf 7.1. 90 yaşında dünyanın ən yaxşı 1000, 100 yaşında isə ən yaxşı 500 universitetindən birinə çevrilmək.

Qeyd olunanlar UNEC-in beynəlmiləlləşmə siyasətinin təkmilləşdirilməsinə ehtiyac olduğunu ehtiva edir və 7.1.1 indikatoruna qismən uyğunluğu göstərir.

### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

Mübadilə proqramlarının təşviqi “UNEC-100” İnkişaf Strategiyasında ayrıca strateji hədəf olaraq müəyyən edilmişdir (Strateji hədəf 5.2). Bu strateji hədəf üzrə Strategiyada 2030-cu ilədək aşağıdakı strateji fəaliyyətlər təyin olunmuşdur:

- Effektiv əcnəbi tələbələr ofisinin yaradılması;
- Beynəlxalq mübadilə tələbəsi statusunun müəyyən edilməsi və onlar üçün prosedurların sadələşdirilməsi;
- Əcnəbi tələbə və müəllimlər üçün Azərbaycan dilini öyrənmək imkanının yaradılması;
- Akademik və inzibati heyət üçün xarici dil təhsili imkanının yaradılması.

“UNEC-100” İnkişaf Strategiyasının icra vəziyyəti ilə bağlı məlumatlarda yuxarıdakı fəaliyyətlərin (Hədəf 5.2 üzrə) icrası üzrə aşağıdakı nəticələr təqdim olunmuşdur:

***Cədvəl 20. Hədəf 5.2-in strateji fəaliyyətləri üzrə hədəf indikatorları***

| İcra göstəriciləri | 2021 (baza ili) | 2022 | 2023 |
|---|---|---|---|
| Beynəlxalq mübadilə proqramlarında iştirak edən tələbələrin sayı | 12 | 30 | 50 |
| Beynəlxalq mübadilə proqramlarında iştirak edən müəllimlərin sayı | 2 | 10 | 15 |
| Beynəlxalq mübadilə proqramlarında iştirak edən inzibati işçilərin sayı | 0 | 6 | 8 |
| İştirak edilən beynəlxalq mübadilə proqramlarının əhatə etdiyi ölkələrin sayı | 5 | 11 | 13 |
| İkitərəfli əməkdaşlıq çərçivəsində mübadiləyə cəlb olunmuş müəllimlərin sayı | 1 | 10 | 20 |
| İkitərəfli əməkdaşlıq çərçivəsində mübadiləyə cəlb olunmuş inzibati işçilərin sayı | 6 | 10 | 20 |
| Qazanılmış beynəlxalq qrant layihələrinin sayı | 3 | 4 | 5 |

Hesabat dövründə qeyd olunan strateji fəaliyyətlərin icrası istiqamətində müvafiq işlər görülmüş və UNEC-də müəllim və tələbələrin mübadiləsi vəziyyəti aşağıdakı kimi olmuşdur:




***Qrafik 9. Mübadilə proqramlarında iştirak etmiş tələbələr (nəfər)***




***Qrafik 10. Mübadilə proqramlarında iştirak etmiş akademik və inzibati heyət (nəfər)***

Yuxarıdakı qrafiklərdən göründüyü kimi, UNEC-də hesabat dövründə COVİD-19 pandemiyasının pik olduğu 2020-ci il istisna olmaqla, akademik və inzibati heyətin və tələbələrin mübadiləsində müsbət dinamika müşahidə olunmuşdur ki, bu da mübadilə proqramlarının yaxşı təşviq olunduğunu göstərir.

### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların təşviq olunma vəziyyəti

Əcnəbi təhsilalanların təşviq olunması ilə bağlı fəaliyyətlər ayrıca beynəlmiləlləşmə siyasətində deyil, "UNEC-100" İnkişaf Strategiyasında Strateji Hədəf 5.1 *(2030-cu ilə qədər UNEC-ə daxil olan tələbələrin sayında əcnəbilərin payını 10 %-ə çatdırmaq)* olaraq nəzərə alınmışdır. Bu strateji hədəfə 2030-cu ilədək icra olunması nəzərdə tutulan aşağıdakı strateji fəaliyyətlər daxildir:

- Hədəf ölkələrdə UNEC-in imicinin yüksəldilməsi istiqamətində tədbirlərin görülməsi;
- Hədəf ölkələrdə UNEC-in qəbul ofislərinin açılması;
- Beynəlxalq vasitəçi təhsil şirkətləri ilə effektiv və səmərəli əlaqələrin qurulması;
- Ali məktəblərə qəbul üzrə beynəlxalq statuslu imtahanların nəticələri əsasında tələbə qəbulu imkanlarının genişləndirilməsi.

"UNEC-100" İnkişaf Strategiyasının icra vəziyyəti ilə bağlı məlumatlarda yuxarıdakı fəaliyyətlərin (Hədəf 5.1 üzrə) icrası üzrə aşağıdakı nəticələr təqdim olunmuşdur:

***Cədvəl 21. Hədəf 5.1-in strateji fəaliyyətləri üzrə hədəf indikatorları***

| İcra göstəriciləri | 2021 (baza ili) | 2022 | 2023 (hədəf) |
|---|---|---|---|
| UNEC-in iştirak etdiyi beynəlxalq təhsil sərgilərinin sayı | 3 | 3 | 4 |

| | | | |
|---|---|---|---|
| UNEC-in qəbul ofisinin (nümayəndəsinin) olduğu ölkələrin sayı | - | 1 | 2 |
| UNEC-in əcnəbi tələbələrin cəlb edilməsi istiqamətində əməkdaşlıq etdiyi təhsil şirkətlərinin sayı | - | 2 | 3 |
| UNEC-in xarici ölkələrdəki filiallarının sayı | 1 | 1 | 2 |
| UNEC-ə daxil olan tələbələrin sayında əcnəbilərin payı | 1.90% | 2,5% | 4.00% |

Göstərilən strateji fəaliyyətlərin icrasının nəticəsi olaraq hesabat dövründə UNEC-də təhsil alan əcbəbi tələbələrin sayı artan dinamikaya malik olmuşdur:




***Qrafik 11. Hesabat dövründə UNEC-də təhsil alan əcnəbi tələbələrin sayı (nəfər)***

UNEC-də əcnəbi tələbələrin cəlb olunması ilə bağlı hər tədris ilində tədbirlər planları hazırlanır. Planlarda tədbirlərin icraçısı qismində UNEC-in müxtəlif struktur bölmələri çıxış edir və icrasına nəzarət Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor tərəfindən həyata keçirilir.

Hesabat dövründə əcnəbi tələbələrin sayında artım müşahidə olunsa da, müvafiq dövrdə əcnəbi tələbələrin sayının ümumi tələbə sayına nisbəti ortalama cəmi 1.5% təşkil etmişdir. Digər tərəfdən, ATM-ə sahə səfəri çərçivəsində müsahibə aparılmış əcnəbi tələbələr müəyyən problemləri bildirmişdirlər. Sözügedən problemlər əsasən yataqxananın olmaması və Beynəlxalq əməkdaşlıq departamenti və digər tədris və inzibati strukturların əcnəbi tələbələrlə ünsiyyət zamanı İngilis dilində dəstəyin zəif olmasıdır. Qeyd olunan vəziyyət gələcəkdə əcnəbi tələbələrin təşviqində çətinlik yarada bilər.

### 7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

Hesabat dövründə UNEC-də əcnəbi professor-müəllim heyətinin ümumi professor-müəllim heyətinə nisbəti ortalama cəmi 0.7% təşkil etmişdir. Bu dövrdə əcnəbi müəllim və tədqiqatçıların ATM-ə cəlbi müxtəlif tədbirlər, Fullbright və Orhun kimi beynəlxalq mübadilə proqramları vasitəsilə həyata keçirilmişdir. UNEC-in 2022-ci ildə sədr seçildiyi və 2023-2024-

cü illərdə sədrlik edəcəyi Türk Dövlətləri Təşkilatı Türk Universitetlər Birliyi (TÜRKÜNİB) tərəfindən təşkil olunan Orhun mübadilə proqramı çərçivəsində 2022-ci ildə 5 əcnəbi müəllim və tədqiqatçı UNEC-də tədris prosesinə cəlb olunmuşdurlar. Əlavə olaraq, UNEC-in magistr tələbələrinə rəhbərlik üçün 2022-ci ildə 13 ölkənin 37 universitetindən 87 əcnəbi alim cəlb olunmuşdur və hazırda rəhbər qismində distant (online) formada fəaliyyət göstərirlər. Qeyd olunanlar hesabat dövründə UNEC-də beynəlxalq akademik heyətin cəlbində müsbət tendensiyanın olduğunu göstərir.

### 7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

UNEC-də beynəlxalq tədqiqatçıların cəlbi və onlarla əməkdaşlıq imkanları beynəlxalq elmi tədbirlər, UNEC İqtisadi Forumu və UNEC Elmi Şurasının 2022-ci il 16 sentyabr tarixli, EŞ-184 №-li qərarı ilə təsdiq edilmiş "UNEC-də Qonaq Alimin statusu və fəaliyyəti haqqında" Qaydalar vasitəsilə həyata keçirilir. Göründüyü kimi, bu proseslər 2022-ci ildən aktiv mərhələyə qədəm qoymuşdur. Sözügedən tədbirlər və Qaydalar vasitəsilə 2023-ci ildən başlayaraq əcnəbi tədqiqatçıların UNEC-in 38 tədqiqat mərkəzində və tədqiqat layihələrində fəaliyyət göstərməsi nəzərdə tutulur ki, bu da öz növbəsində əcnəbi tədqiqatçıların cəlbinin qismən təşviq olunmasına dəlalət edir.

### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

UNEC Avropa Universitetlər Assosiasiyası (EUA), Türk Dövlətləri Təşkilatı Türk Universitetlər Birliyi (TÜRKÜNİB), Avrasiya Universitetlər Birliyi (EURAS), İslam Dünyasının Universitetləri Federasiyası (FUIW), Avrasiya Universitetlər Assosiasiyası (EAU), Qara Dəniz Ölkələri Universitetləri Şəbəkəsi (BSUN), Avrasiya Universitetləri Reytinq Təşkilat (IAAR EUA) kimi beynəlxalq təşkilatların üzvüdür və hesabat dövründə sözügedən qurumlar tərəfindən təşkil olunan tədbirlərdə fəal iştirak etmişdir. Qeyd olunan məqamlar ATM-in beynəlxalq təhsil şəbəkəsi və təhsil təşkilatları ilə bağlı beynəlmiləlləşmə siyasəti indikatorunun tələbinə uyğunluğunu göstərir.

### 7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

"UNEC-100" İnkişaf Strategiyasında Strateji Hədəf 5.3-də 2030-cu ilədək ATM-in ikili diplom proqramlarının sayınının davamlı olaraq artırılması və 10-a çatdırılması qeyd olunmuşdur. Hesabat dövrü müddətində bakalavriat səviyyəsi üzrə 6 və magistratura səviyyəsi üzrə 5 olmaqla ümumilikdə 11 ikili diplom və birgə diplom proqramları haqqında müqavilələr imzalanmış və UNEC-in təhsilalanlarına bu imkanlardan istifadə etmək şəraiti yaradılmışdır. Hesabat dövründə qüvvədə olmuş həmin ikili diplom və birgə diplom proqramları haqqında məlumat aşağıdakı cədvəldə təqdim olunur.

***Cədvəl 22. İmzalanmış mövcud ikili diplom və birgə diplom (joint) proqramları barədə məlumat***
**(https://unec.edu.az/ikili-diplomlar/)**

| № | Ölkə | ATM | Təhsil pilləsi | Müqavilənin imzalandığı il | Status |
|---|---|---|---|---|---|
| 1. | Fransa Respublikası | Montpellier Universiteti | Bakalavr | 2015 | Fəaliyyətdədir |
| 2. | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | London İqtisadiyyat Məktəbi | Bakalavr | 2015 | Fəaliyyətdədir |
| 3. | Rusiya Federasiyası | Moskva Dövlət Humanitar İqtisad Universiteti | Bakalavr | 2016 | Fəaliyyətdədir |
| 4. | Fransa Respublikası | İCD Biznes Məktəbi | Bakalavr | 2017 | Fəaliyyətdədir |
| 5. | Türkiyə Respublikası | Ege Universiteti | Bakalavr | 2019 | İkili diplom müqaviləsi qarşılıqlı olaraq imzalanaraq təsdiq üçün Türkiyənin Ali Təhsil Şurasına (YÖK) təqdim edilmişdir. Müqavilə təsdiq edildikdən sonra Proqram fəaliyyətə başlayacaq |
| 6. | Rusiya Federasiyası | Rusiya Ali İqtisadiyyat Məktəbi Milli Tədqiqat Universiteti | Bakalavr | 2020 | Fəaliyyətdədir |
| 7. | İsveçrə Konfederasiyası | UBİS | Magistratura | 2013 | Müqavilənin qüvvədə oilma vaxtı bitmişdir, uzadılması ilə bağlı iş aparılır |
| 8. | Litva Respublikası | Mykolas Romeris Universiteti | Magistratura | 2017 | Fəaliyyətdədir |

| | | | | | |
|---|---|---|---|---|---|
| 9. | Amerika Birləşmiş Ştatları | Linkoln Universiteti | Magistratura | 2019 | Fəaliyyətdədir |
| 10. | Fransa Respublikası | Montpellier Universiteti | Magistratura | 2019 | Fəaliyyətdədir |
| 11. | Yunanıstan | Qərbi-Makedoniya Universiteti | Magistratura (birgə diplom) | 2022 | Fəaliyyətdədir |

Cədvəldə təsvir olunmuş proqramlarla yanaşı, “UNEC-100” İnkişaf Strategiyasının icra göstəriciləri haqqında 2022-ci il 28 fevral tarixli, 60/1/2022 saylı əmrlə təsdiq edilmiş “UNEC-100” İnkişaf Strategiyasının 2023-cü ilə qədər icra göstəricilərinə əsaslanan Beynəlxalq Əməkdaşlıq Departamentinin İş Planına görə, 2023-cü ildə Qazaxstanın Yessenov Universiteti, Türkiyə Respublikasının Ankara və Uludağ Universitetləri və Macarıstanın Debreçen Universiteti ilə ikili diplom proqramlarının imzalanması nəzərdə tutulur. Beləliklə, hesabat dövründə UNEC-in ikili diplom proqramları sahəsindəki fəaliyyəti indikatorun tələbinə uyğun olumuşdur.

### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

7.1.1 bölməsində qeyd olunduğu kimi, UNEC-in beynəlmiləlləşmə siyasətinin təkmilləşdirilməsinə ehtiyac vardır. ATM-in beynəlmiləlləşmə fəaliyyəti “UNEC-100” İnkişaf Strategiyasının 5 və 7-ci strateji məqsədlərinə əsasən icra olunur. Sözügedən strateji məqsədlərin icra müddəti isə 2030-cu ilə qədər olan dövrü əhatə edir. Bu baxımdan, hesabat dövründə beynəlmiləlləşmə siyasətinin yenilənməsi aparılmamışdır. UNEC tərəfindən yalnız 5 və 7-ci strateji məqsədlərin icrası ilə bağlı illik əsasda icra göstəriciləri yenilənir ki, bu da indikatorun tələbinə qismən uyğunluğu göstərir.

## *7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu*

### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud olması vəziyyəti

UNEC-də beynəlmiləlləşmə proseslərinin idarə edilməsi Beynəlxalq Əməkdaşlıq Departamenti (BƏD) tərəfindən həyata keçirir. BƏD-in tərkibində üç şöbə fəaliyyət göstərir – Xarici əlaqələr, Strateji inkişaf və Layihələrin idarə olunması şöbələri. Departament 2014-cü il 1 noyabr tarixində ATM-in Beynəlxalq əlaqələr şöbəsinin əsasında yaradılmışdır. Departament 12 nəfərlik ştat heyətinə malikdir. BƏD-in əsasnaməsi və strukturu UNEC-də beynəlmiləlləşmə proseslərinin idarə olunmasına imkan verir və bu səbəbdən, indikatorun tələbi təmin olunmuşdur.

### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

Həm UNEC-in, həm də BƏD-in təşkilati strukturu hesabat dövründə “UNEC-100” İnkişaf Strategiyasında qeyd olunan beynəlmiləlləşmə ilə bağlı 5 və 7-ci strateji məqsədlər üzrə strateji fəaliyyətlərin həyata keçirilməsinə şərait yaratmış və indikatorun tələbi təmin edilmişdir.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

UNEC tələbələrinin mübadilə proqramlarında iştirakı UNEC Elmi Şurasının 2018-ci il 06 dekabr tarixli, EŞ-162 saylı və 2022-ci il 31 may tarixli, EŞ-183 saylı qərarları ilə təsdiq olunmuş “Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələrinin, professor-müəllim heyətinin və əməkdaşlarının beynəlxalq akademik mobilliyi haqqında” Qaydaları ilə tənzimlənir. Qaydalara əsasən, mübadilə proqramında iştirak etmək hüququ qazanmış UNEC tələbələrinin xarici ali təhsil müəssisəsində keçiriləcək fənlərinin kreditlərinə və sillabuslarına fakültələr üzrə müvafiq akademik məsləhətçilərin dəstəyi ilə baxılır və uyğunlaşdırma aparılır. Mübadilə proqramlarında iştirak etmiş UNEC tələbələri mübadilə sonunda əldə etdikləri fənn və kreditlərinin tanınması barədə müraciət edir və müvafiq müraciətlərə 2018-ci il 20 dekabr tarixli, 255/1/2018 saylı əmrlə yaradılmış “Fənlərin uyğunlaşdırılması” komissiyasında baxılaraq müvafiq qərarın verilməsi üçün UNEC rəhbərliyinə təqdim olunur. Təsvir olunan prosedur qaydalar və UNEC tələbələrinin akademik mübadiləsinin dinamikası (*Qrafik 10*) ATM-də mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması üzrə işlək mexanizmin mövcudluğunu və hesabat dövründə tətbiq edildiyini göstərir.

### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

Hesabat dövründə UNEC-də əcnəbi müəllimlər həm ödənişli əsaslarla, həm də mübadilə proqramları çərçivəsində akademik heyət kimi tədris prosesinə cəlb olunmuşlar. Hər iki istiqamət üzrə əcnəbi müəllimlərin cəlbi dinamikası Qrafik 13 və 14-də göstərilir.




***Qrafik 12. Ödənişli əsaslarla akademik heyət kimi cəlb olunan əcnəbi müəllimlərin sayı (nəfər)***




***Qrafik 13. Mübadilə proqramları çərçivəsində cəlb olunan əcnəbi müəllimlərin sayı (nəfər)***

Qrafiklərdən göründüyü kimi, COVİD-19 pandemiyası səbəbindən müəyyən dövrlərdə cəlb olunan əcnəbi müəllimlərin sayında azalma olsa da, hesabat dövründə əcnəbi müəllimlərin sayında ümumi olaraq müsbət dinamika müşahidə olunur. Bundan əlavə, qeyd olunduğu kimi, UNEC-in magistratura tələbələrinə rəhbərlik üçün 2022-ci ildə 13 ölkənin 37 universitetindən 87 əcnəbi alim cəlb olunmuşdur və hazırda rəhbər qismində distant (online) formada fəaliyyət göstərirlər. Qeyd olunanlar hesabat dövründə UNEC-də əcnəbi professor-müəllim heyətinin cəlbində müsbət tendensiyanın olduğunu göstərir.

### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

UNEC-də beynəlmiləlləşmə sahəsində fəaliyyətin idarə edilməsinin səmərəliliyinin monitorinqi “UNEC-100” İnkişaf Strategiyasındakı beynəlmiləlləşməyə dair strateji məqsədlər (5 və 7) və onlara aid hədəflər üzrə yarımillik və illik əsasda həyata keçirilir. Ümumiyyətlə, beynəlmiləlləşmə istiqamətində strateji məqsəd və hədəflərə nail olunmasına görə Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor cavabdehdir və onun tərəfindən yarımillik və illik əsasda müvafiq hesabatlar təqdim və məruzə edilir. Hesabat dövrünə üzrə son təqdimat 2022-ci ilin dekabrında keçirilmişdir (https://news.unec.edu.az/xeber/125-universitet/9481-bold-red-unec-100-inkishaf-strategiyasi-uzre-beynelxalq-emekdashligin-hesabati-dinlenildi-bold-red). Beynəlmiləlləşmə üzrə dövri monitorinq üçün 5 və 7-ci strateji məqsədlərin hədəfləri üzrə müəyyən olunmuş strateji fəaliyyətlər əsas olaraq götürülür. Monitorinq zamanı bu fəaliyyətlərin ölçü meyarları kimi illik təyin olunmuş icra göstəricilərinə nail olunub-olunmaması təhlil olunur.

### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

Hesabat dövründə UNEC-də fəaliyyətdə olmuş ikili diplom proqramları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli, 348 saylı Qərarı ilə təsdiqlənmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" və AKTTS-ə uyğun olaraq həyata keçirilmişdir. Cədvəl 7.3-dəki Ege

Universiteti və Qərbi-Makedoniya Universiteti istisna olmaqla (biri üzrə fəaliyyət yoxdur, digəri isə birgə proqramdır), qalan ikili diplom proqramları qeyd olunan istinad sənədlərinin tələbələrinə müvafiq olaraq icra olunmuşdur.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

Hesabat dövründə mübadilə proqramlarında iştirak etmiş akademik heyətin dinamikası aşağıdakı kimi olmuşdur:




***Qrafik 14. Mübadilə proqramlarında iştirak etmiş akademik heyətin dinamikası (nəfər)***

Qrafikdən göründüyü kimi, COVİD-19 pandemiyasının pik səviyyəyə çatdığı 2020-ci ildə akademik heyətin mübadiləsi olmamışdır. Bundan əlavə, 2020-ci ildən sonrakı dövrdə mübadilədə iştirak etmiş akademik heyətin sayı 2020-ci ildən əvvəlki illərlə müqayisədə çox aşağıdır və ATM-in bu məsələyə diqqət yetirməsinə ehtiyac vardır. Beləliklə, 2020-ci il istisna olmaqla digər illərdə mübadilədə iştirak etmiş akademik heyətin sayı ümumən müsbət dinamikaya malik olmuşdur (ortalama illik 12 nəfər) ki, bu da “UNEC-100” İnkişaf Strategiyasındakı Hədəf 5.2-nin tələbələrinə uyğundur.

### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

Hesabat dövründə akademik və inzibati heyətin mübadilə proqramlarında iştirakı UNEC Elmi Şurasının 2018-ci il 06 dekabr tarixli, EŞ-162 saylı və 2022-ci il 31 may tarixli, EŞ-183 saylı qərarları ilə təsdiq olunmuş “Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələrinin, professor-müəllim heyətinin və əməkdaşlarının beynəlxalq akademik mobilliyi haqqında” Qaydaları ilə həyata keçirilmişdir. Qaydalara görə, mübadilə barədə elanlar UNEC-in rəsmi internet saytı və sosial şəbəkə hesablarında yerləşdirilir. Beləliklə, bütün akademik və inzibati heyət üçün mübadilə imkanları barədə məlumatların əlçatanlığı təmin olunur.

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

Hesabat dövründə COVİD-19 pandemiyasının pik olduğu 2020-ci il istisna olmaqla, UNEC-in professor-müəllim heyəti, inzibati heyət və təhsilanlarının mübadilə proqramlarında iştirakı ilə bağlı müsbət dinamika müşahidə olunmuşdur. Müvafiq dövrdə mübadilə proqramlarında iştirak etmiş professor-müəllim heyəti, inzibati heyət və təhsilalanlar sayı barədə məlumatlar 22 və 23-cü cədvəllərdə göstərilmişdir.

***Cədvəl 23. Hesabat dövründə mübadilə proqramlarında iştirak etmiş professor-müəllim heyəti və inzibati heyətin sayı (nəfər)***

| İllər | Mübadilə proqramlarında iştirak etmiş professor-müəllim heyəti | Mübadilə proqramlarında iştirak etmiş inzibati heyət |
|---|---|---|
| 2016 | 11 | 3 |
| 2017 | 16 | 18 |
| 2018 | 27 | 14 |
| 2019 | 20 | 11 |
| 2020 | 0 | 1 |
| 2021 | 2 | 0 |
| 2022 | 9 | 14 |

***Cədvəl 24. Hesabat dövründə mübadilə proqramlarında iştirak etmiş təhsilalanların sayı (nəfər)***

| İllər | Bakalavr sayı | Magistrant sayı | Doktorant sayı | Ümumi Say |
|---|---|---|---|---|
| 2016-2017 | 30 | 7 | - | 37 |
| 2017-2018 | 32 | 4 | - | 36 |
| 2018-2019 | 34 | 6 | 1 | 41 |
| 2019-2020 | 22 | 1 | - | 23 |
| 2020-2021 | 14 | 1 | - | 15 |
| 2021-2022 | 28 | 2 | - | 30 |

Hesabat dövründə mübadilədə iştirak etmiş tələbələrlə bağlı təlim-tədris məsələləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili” Qaydalarına və AKTTS-in tələblərinə uyğun həyata keçirilmişdir.

### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

Hesabat dövründə UNEC QS Quacquarelli Symonds, Times Higher Education (THE), Webometrics, UniRank, U-Multirank, UI GreenMetric, US News, RUR, IAAR kimi beynəlxalq reytinq təşkilatları ilə əməkdaşlıq etmişdir. Eyni zamanda, UNEC-in Qazaxıstanın "IAAR

(Müstəqil Akkreditasiya və Reytinq Agentliyi) Avrasiya universitetləri reytinqi" sıralamasında iştirak etməsi üçün zəruri məlumatlar Beynəlxalq Əlaqələr Departamenti tərəfindən müvafiq qaydada təqdim edilmişdir. 2022 və 2023-cü illərdə müxtəlif beynəlxalq reytinqlərdə UNEC-in tutduğu mövqelər Cədvəl 24-də təqdim olunur ("UNEC-100" İnkişaf Strategiyasının icrasında baza ili 2021-ci il götürülməklə).

***Cədvəl 25. Hesabat dövründə müxtəlif beynəlxalq reytinqlərdə UNEC-in mövqeləri***

| İllər | Beynəlxalq reytinq | Mövqe (yer) |
|---|---|---|
| 2022 | IAAR Avrasiya universitetləri reytinqi (IAAR EUR) | 15 (UNEC "IAAR EUR Quality star" mükafatına layiq görülmüşdür) |
| 2022 | THE Impact Rankings | 801-1000 |
| 2022 | QS qlobal reytinqi | 1001-1200 |
| 2022 | Scimago Institutions Rankings | 6034 |
| 2022 | Greenmetrics | 866 |
| 2023 | QS qlobal reytinqi | 1001-1200 |
| 2023 | QS Subject Rankings | "İqtisadiyyat və Ekonometrika" istiqaməti üzrə 501-530-cü yerlər |
| 2023 | Scimago Institutions Rankings | 6735 |
| 2023 | İspaniyanın Milli Tədqiqat Şurasının tərkibindəki Cybermetrics laboratoriyası | 3644 |

Yuxarıda qeyd olunmuş məqamlar UNEC-in beynəlxalq reytinq sistemlərində təmsil olunduğunun göstəricisidir.

## *7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

Hesabat dövründə UNEC-də beynəlmiləlləşmə fəaliyyətlərinin maliyyələşdirilməsi fəaliyyətlərin növündən asılı olaraq fərqlənmişdir:

- İkili diplom və birgə diplom proqramlarında iştirak etmiş təhsilalanlar tərəfdaş xarici universitetdə təhsil aldıqları zaman səfər və yaşayış xərcləri təhsilalanların özləri tərəfindən təmin edilmişdir;
- Erasmus+ proqramı çərçivəsində tərəfdaş universitetlərdə mübadilədə iştirak edən tələbə, müəllim və inzibati heyətin səfər və qalma xərcləri Avropa İttifaqı tərəfindən ödənilmişdir;
- Qeyri-Erasmus, ikitərəfli əməkdaşlıq çərçivəsində mübadilə proqramlarında iştirak etmiş təhsilalanlar tərəfdaş xarici universitetdə təhsil aldıqları zaman səfər və yaşayış xərcləri təhsilalanların özləri tərəfindən təmin edilmişdir;

- Türkiyə Respublikasının Mevlana Proqramı üzrə mübadilədə iştirak etmiş müəllim və tələbələrin səfər və qalma xərcləri Türkiyənin Ali Təhsil Şurası (YÖK) tərəfindən maliyyələşdirilmişdir;
- UNEC-in həyata keçirdiyi Erasmus+ K2 və Jean Monnet layihələri üzrə qazanılmış qrant vəsaitləri Avropa İttifaqı tərəfindən maliyyələşdirilmişdir;
- Beynəlxalq təhsil sərgiləri, elmi tədbirlər, eləcə də UNEC-in təşviqi ilə bağlı xarici ezamiyyətlərdə iştirak etmiş Beynəlxalq Əlaqələr Departamentinin və digər struktur bölmələrinin əməkdaşların xərcləri UNEC-in ilik ezamiyyə büdcəsindən qarşılanmışdır.

Yuxarıda qeyd olunan fəaliyyətlər üzrə "UNEC-100" İnkişaf Strategiyasının icrasına dair 2022-ci ilin birinci yarısı üzrə ümumiləşdirilmiş hesabat və Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektorun dövrü hesabatlarında (https://news.unec.edu.az/xeber/125-universitet/9481-bold-red-unec-100-inkishaf-strategiyasi-uzre-beynelxalg-emekdashligin-hesabati-dinlenildi-bold-red) qeyd olunan fəaliyyət nəticələri onu müəyyən etməyə əsas verir ki, hesabat dövründə beynəlmiləlləşmə fəaliyyətlərinə maliyyə resurslarının ayrılması vəziyyəti qənaətbəxş olmuşdur.

### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

"UNEC-100" İnkişaf Strategiyasının icra göstəriciləri, həmin göstəricilər üzrə məsul şəxslər, icraçı strukturlar və səlahiyyət bölgüsü 2022-ci il 28 fevral tarixli, 60/1/2022 saylı əmrlə təsdiq edilmişdir. Həmin icra göstəricilərində beynəlmiləlləşmə sahəsində strateji fəaliyyətlərin icrasına insan resursları olaraq Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor, Beynəlxalq Əməkdaşlıq Departamentinin əməkdaşları, bütün fakültələr və UNEC-in müvafiq sturuktur bölmələri ayrılmışdır. Digər tərəfdən, UNEC-də beynəlmiləlləşmə proseslərinin idarə edilməsini Beynəlxalq Əməkdaşlıq Departamenti həyata keçirdiyindən, bu istiqamətdə mütəmadi işlər Departamentin tərkibindəki şöbələrin (Xarici əlaqələr, Strateji inkişaf və Layihələrin idarə olunması) əməkdaşları tərəfindən yerinə yetirilir. Hesabat dövründə strateji fəaliyyətlər və mütəmadi işlərin icrası üçün Departament yetərli sayda insan resurslarına malik olmuşdur.

### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Akkreditasiya Komissiyası tərəfindən UNEC-də beynəlmiləlləşmə proseslərinin idarə edilməsini həyata keçirən Beynəlxalq Əməkdaşlıq Departamentinə əyani baxış keçirilmişdir. Departamentin tərkibindəki şöbələrin əməkdaşları bütün zəruri infrastruktur və avadanlıqlarla təmin olunmuşdur. Bundan əlavə, UNEC-in tədris binalarında xarici professor-müəllim heyəti üçün lazımi qonaqlama şəraiti mövcuddur.

### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

UNEC-də maliyyə resurslarından istifadənin monitorinqi Maliyyə və Təminat Departamenti və Daxili Audit şöbəsi tərəfindən aparılır. Bununla yanaşı, mövcud resurs və avadanlıqlardan istifadəyə nəzarət və mütəmadi monitorinqi məqsədilə UNEC-in struktur bölmələrində maddi-məsul əməkdaşlar təyin olunmuşdur. Beynəlmiləlləşmə prosesini həyata keçirən Beynəlxalq Əməkdaşlıq Departamentində də aidiyyəti maddi-məsul şəxslər təyin olunmuş və onlar tərəfindən hesabat dövründə illik əsasda resurs və avadanlıqların inventarlaşdırılması aparılmışdır. Eyni zamanda, Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor və Departament rəhbərliyi tərəfindən Departamentin işlərinin icrasına ayrılmış insan resurslarının yetərlilik baxımından monitorinqi aparılmışdır. Qeyd olunan məqamlarlarla yanaşı, Özünütəhlil Hesabatında və təqdim olunmuş digər sənədlərdə beynəlmiləlləşmə istiqamətində xərclənən vəsaitlərin monitorinqi ilə bağlı məlumatlar verilməmiş və Akkreditasiya Komissiyasının UNEC-ə sahə səfəri zamanı bu məsələyə aydınlıq gətirilməmişdir.

### *7.4 Beynəlmiləlləşmə performansı*

#### 7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

Beynəlmiləlləşmə prosesi ilə bağlı nəticələrin dinamikasına nəzarət mexanizmi kimi "UNEC-100" İnkişaf Strategiyasının beynəlmiləlləşməyə aid məqsəd və hədəflərin icra olunmasının monitorinqi əsas götürülür. Bu istiqamətdə Beynəlxalq Əlaqələr Departamenti tərəfindən statistik xarakterli yarımillik və illik özünüqiymətləndirmə hesabatları hazırlanır və Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor tərəfindən UNEC rektoruna təqdim edilir. Hesabat dövrü üzrə son təqdimat 2022-ci ilin dekabr ayında keçirilmişdir (https://news.unec.edu.az/xeber/125-universitet/9481-bold-red-unec-100-inkishaf-strategiyasi-uzre-beynelxalg-emekdashligin-hesabati-dinlenildi-bold-red).

Qeyd olunanlar hesabat dövründə beynəlmiləlləşmə prosesi ilə bağlı nəticələrin dinamikasına nəzarət üzrə işlək mexanizmin olduğunu göstərir.

#### 7.4.2 Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

7.4.1 bəndində təsvir olunmuş beynəlmiləlləşmə ilə bağlı yarımillik və illik özünüqiymətləndirmə hesabatlarının müzakirələri zamanı UNEC rəhbərliyi tərəfindən hesabat yarımili yaxud hesabat ilinin icra göstəriciləri təhlil olunur və qənaətbəxş olmayan nəticələrin səbəbləri araşdırılır. Nəticələr əsasında təkmilləşdirmə işləri tələb olunduqda, həmin işlər növbəti yarımildə həyata keçirilir. İllik icra göstəricilərinin nəticələri əsasında növbəti il üçün icra göstəriciləri təyin olunur. "UNEC-100" İnkişaf Strategiyasının icrası üzrə baza ili 2021-ci il olmaqla, hesabat dövründə beynəlmiləlləşmə fəaliyyətinə dair 2021 və 2022-ci illər üzrə yarımillik və illik icra göstəriciləri təhlil olunmuş və ehtiyaclar əsasında təkmillşdirmə işləri görülmüşdür. 2023-cü il üçün aşağıdakı hədəf göstəricilər müəyyən olunmuşdur:

- 2022-ci il ilə müqayisədə xarici universitetlərlə əməkdaşlıq müqavilələrinin sayını 30% artırmaq;

- Ən azı iki yeni ikili diplom müqaviləsinin imzalanmasını həyata keçirmək;
- Beynəlxalq və yerli qrant layihələrində aktiv iştirak və ən azı üç qrant layihəsinin qazanılmasını təmin etmək;
- Əcnəbi tələbələrin qəbulunu 30% artırmaq;
- Erasmus mübadilə proqramında iştirak edən tələbələrin sayını 20% artırmaq;
- İki tərəfli əməkdaşlıq çərçivəsində (non-erasmus) mübadilədə iştirak edən tələbələrin sayını 10% artırmaq;
- Mübadilə proqramında iştirak edən müəllimlərin sayını 20% artırmaq;
- QS beynəlxalq reytinqində UNEC-in dünyanın 900-1000 ən yaxşı universitet sırasına yüksəldilməsini təmin etmək.

**Komissiyanın istiqamətlər üzrə təhlili**

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | 1. "UNEC - 100" İnkişaf Strategiyasının (SİP) mövcudluğu;<br>2. Missiya, strategiya, strateji istiqamətlər və hədəflərin müəyyən edilməsi;<br>3. SİP-də 7 əsas məqsədin müəyyənləşdirilməsi;<br>4. SWOT təhlilin aparılması;<br>5. Rəhbərliyin SİP-i qəbul etməsi və bu istiqamətdə yetərli təşəbbüskarlığın göstərilməsi;<br>6. SİP-in təhsilin keyfiyyətinin artırılması və elmi-tədqiqat sahəsində inkişafın əldə edilməsinə uyğun olması;<br>7. Müəyyən edilmiş strateji baxışın əmək bazarına uyğunluğu;<br>8. SİP-in beynəlxalq reytinqin artırılmasına uyğun olması. |
| **Zəif tərəflər** | 1. SİP-in Tədbirlər Planının (orta və uzunmüddətli) olmaması;<br>2. Bəzi struktur bölmələrin strateji məqsəd və hədəfləri mənimsəməməsi;<br>3. Sahələr üzrə təyin edilmiş strateji məqsədlər haqqında müzakirə və fəaliyyətlərin yetərli olmaması;<br>4. Bəzi strateji fəaliyyətlərin ölçülə bilən olmaması;<br>5. SİP-də müəyyən olunmuş strateji fəaliyyətlərin icrasında gecikmələrin olması;<br>6. Elmi-tədqiqat mövzularının müəyyən olunması zamanı əmək bazarı və sənayenin tələblərinin nəzərə alınmasında çatışmazlıqların olması;<br>7. Beynəlxalq əlaqələr üzrə strateji məqsədlərin icrasında çatışmazlıqların olması. |
| **İmkanlar** | 1. Ölkədə siyasi, iqtisadi və sosial stabilliyin, ali təhsilin inkişafı üzrə güclü siyasi iradənin və müvafiq dövlət proqramlarının olması;<br>2. Ölkənin beynəlxalq arenada müsbət imicinin formalaşması nəticəsində universitetlər üçün beynəlxalq əməkdaşlıq imkanlarının yaranması;<br>3. Ölkənin iqtisadi inkişafı nəticəsində ali təhsilə və keyfiyyətli kadrlara tələbin artması; |

| | |
|---|---|
| | 4. Ölkədə ixtisaslaşmış və keyfiyyətli təhsil sistemi olan universitetlərə üstünlük verilməsi;<br>5. Universitet ilə iş dünyası arasında əməkdaşlıq imkanlarının genişləndirməsi;<br>6. Ölkədə təhsil sahəsində qanunvericiliyin təkmilləşdirilməsinin intensivləşməsi. |
| **Təhdidlər** | 1. Xaricdə təhsil imkanlarının genişlənməsi və rəqabət mühitinin kəskinləşməsi;<br>2. Yerli ali təhsil müəssisələri arasında rəqabətin artması və təhsilin keyfiyyətinin yüksəlməsi;<br>3. Ölkədə ATM-lər üçün yüksək keyfiyyətli akademik heyətin təmin edilməsində çətinliklərin yaranması;<br>4. ATM-in özünümaliyyələşdirmə imkanlarının yetərsiz olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. SİP-in bütün strateji fəaliyyətlər üzrə Tədbirlər Planının (orta və uzunmüddətli) hazırlanması və icrasının təmin olunması;<br>2. ATM-in SİP üzrə müəyyən strateji fəaliyyətlərinin orta və uzunmüddətli Tədbirlər Planı vasitəsilə tam ölçülə bilən hala gətirilməsi və inkişaf dinamikasının mərhələli formada qiymətləndirilməsi;<br>3. ATM-in strateji məqsədlərin reallaşdırılmasında əsas fəaliyyət sahələri üzrə meydana gəlmiş çatışmazlıqların aradan qaldırılması;<br>4. İş dünyası ilə əlaqələr üzrə mövcud mexanizmin təkmilləşdirilməsi. |

| **2. Keyfiyyət təminatı** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Keyfiyyət siyasəti sənədinin, normativ hüquqi bazanın  və müstəqil strukturun mövcudluğu;<br>2. Alt strukturlar üzrə daxili keyfiyyət təminatı sisteminin və keyfiyyət mədəniyyətinin formalaşmasına universitet rəhbərliyinin dəstəyi;<br>3. UNEC-də tədrisin təşkili qaydalarının və şərtlərinin əlçatanlığı;<br>4. Professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirmə sisteminin mövcudluğu. |
| **Zəif tərəflər** | 1. Struktur bölmələrin adlarında və keyfiyyətə nəzarət funksiyalarında təkrarlanmanın olması;<br>2. Təhsil və fənn proqramları üzrə təlim nəticələri və keyfiyyətə nəzarət mexanizminin yetərli olmaması; |

| | |
|---|---|
| | 3. UNEC təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçirilməsi üzrə strateji hədəflərin icrasında gecikmələr. |
| **İmkanlar** | 1. Əmək bazarında ixtisaslaşmış və səriştəli kadrlara tələbin artması;<br>2. Dövlətin yerli və beynəlxalq proqramlar vasitəsilə ATM-lərdə keyfiyyətli təhsili dəstəkləməsi (SABAH, Erasmus + və s.);<br>3. Beynəlxalq arenada təhsil sahəsində ölkənin tanınmasına dövlətin marağının artması;<br>4. Hökümətlərarası təqaüd proqramları çərçivəsində xaricdə təhsil almaq imkanı və maliyyə dəstəyinin mövcudluğu. |
| **Təhdidlər** | 1. Cəmiyyətdə elmi fəaliyyətə marağın azalması, nəticədə tədris prosesinin peşəkar akademik heyət ilə təminatında çətinliklərin yaranması;<br>2. Yerli və xarici ATM-də qəbulun kəmiyyət və keyfiyyət göstəricilərinin artması;<br>3. Əcnəbi tələbələrin təşviqində regional və qlobal geosiyasi vəziyyət. |
| **Komissiyanın tövsiyəsi** | 1. Daxili Keyfiyyət Təminat Sisteminin işinin səmərəli təşkili məqsədilə qəbul olunmuş 2022-2026-cı illəri əhatə edən Fəaliyyət Planının təkmilləşdirilməsi;<br>2. ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi sahəsində görülən işlərin sürətləndirməsi;<br>3. Strateji Fəaliyyət Planının (2022-2026) illər üzrə Tədbirlər Planının hazırlanması;<br>4. Təhsil və fənn proqramları üzrə təlim nəticələrinə nəzarət mexanizminin işlənib hazırlanması;<br>5. Strateji hədəf 1.3 nail olmaq məqsədilə UNEC-in bütün təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçirilməsi üçün müvafiq mexanizm və fəaliyyət planının hazırlanması. |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Tədrisin təşkilinin rəqəmsallaşması, EDUMAN - tədrisin elektron idarəetmə sisteminin mövcudluğu; |

| | |
|---|---|
| | 2. Bilik və bacarıqların qiymətləndirilməsi prosesinin mərkəzləşdirilməsi və vahid struktur bölmənin mövcudluğu;<br>3. Tələbə işləri mərkəzinin (“Bir pəncərə” sistemi) fəaliyyət göstərməsi;<br>4. Ömürboyu Təhsil Mərkəzinin mövcudluğu və təhsilalanlara əlavə təhsil imkanlarının yaradılması;<br>5. Xüsusi qayğıya ehtiyacı olan tələbələrin təhsili və sosial adaptasiyası məqsədi ilə İnkluziv Təhsil Mərkəzinin yaradılması;<br>6. İxtisaslar üzrə əlavə təhsil (MİNOR) və Universitetdaxili iki diplom proqramlarının (UDİD) tətbiqi;<br>7. Təhsilverənlərin karyera inkişafına dəstək və peşəkarlıq səviyyəsinin daim yüksəlməsini təmin edən müxtəlif təlim və kursların təşkili;<br>8. UNEC Karyera Mərkəzinin iri holdinq və müəssisələrlə müvafiq Memorandumlar imzalaması;<br>9. Auditoriyalarda informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasının tələblərinə uyğun infrastrukturun yaradılması;<br>10. Dörd dildə (azərbaycan, rus, türk və ingilis) səriştə əsaslı təhsil proqramının tətbiqi;<br>11. “Xarici dildə işgüzar və akademik kommunikasiya (ingilis dili)” fənn proqramının beynəlxalq dil sertifikat proqramlarının (İELTS və TOEFL) tələblərinə uyğunlaşdırılması, sertifikat proqramlarının tədris planına daxil olan fənlərlə əvəzlənmə prosesinin həyata keçirilməsi;<br>12. “Xarici dildə işgüzar və akademik kommunikasiya” fənni üzrə qrupların səviyyələr üzrə formalaşdırılması;<br>13. UNEC Biznes Məktəbinin MBA Proqramının mühasibat ixtisaslaşmasının 2018-2022-ci illər ərzində ACCA (Diplomlu və Sertifikatlı Mühasiblər Assosiasiyası) təşkilatı tərəfindən akkreditasiyası və tədris planlarında xarici rəylərin olması;<br>14. Təhsilalanların peşə kompetensiyalarının artırılmasına xidmət edən praktik fənlərin əsasən əmək bazarı nümayəndələri tərəfindən tədris edilməsi;<br>15. Kredit sistemində AR Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş formalar üzrə tədris sənədlərinin standartlara uyğun tərtib edilməsi. |
| **Zəif tərəflər** | 1. UNEC-in inkişaf göstəriciləri ilə beynəlxalq reytinqlərin tələbləri arasında uyğunsuzluq;<br>2. Ali təhsilin magistratura və doktorantura təhsil səviyyələri arasında zəif əlaqə, doktorantura səviyyəsi üzrə elmi-pedaqoji fəaliyyət üzrə müvafiq səriştəyə yiyələnməni təmin edən təhsil proqramlarının mövcud olmaması; |

| | |
|---|---|
| | 3. Tələbələrin rəsmi məlumatlandırılmasında mövcüd olan elektron sistemlərdən istifadə vərdişlərinin qənaətbəxş olmaması;<br>4. SABAH qrupları istisna olmaqla digər qruplarda tədris fənlərinin, semestrlər üzrə seçiminin sərbəstliyinin təmin edilməməsi;<br>5. Təqdim edilmiş fənn proqramlarında fənn üzrə təlim nəticələrinin, ümumi və ixtisas (peşə) kompetensiyaları əlaqəsinin öz əksini tapmaması;<br>6. UNEC-in Karyera Xidmətinin fəaliyyətində Strategiyada müəyyən olunmuş hədəfə nail olmaq üçün müəyyənləşdirilən tədbirlər planı və görülən işlərin təhlil mexanizminin ISO-9001: 2015 Beynəlxalq Standartının 6.1 və 6.2 bəndlərinin tələblərinə uyğun olmaması. |
| **İmkanlar** | 1. Ali təhsilin əlçatanlığı;<br>2. Ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılmasına dövlət dəstəyi;<br>3. İnsan kapitalının formalaşması və bu çərçivədə istedadlı gənclərin xarici ölkələrdə təhsil almasına dövlət dəstəyi;<br>4. Təhsildə yüksək nəticələr əldə edən tələbələrin təqaüd almaları üçün əlavə imkanların yaradılması;<br>5. Təhsil sisteminin inkişafına yönəlmiş proqram və layihələri maliyyələşdirən, ATM-lərin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılmasına yardım edən Təhsilin İnkişaf Fondunun fəaliyyəti;<br>6. Təhsilə çıxış imkanlarını yaxşılaşdırmaq üçün maliyyə mexanizminin - Tələbə Kreditləri Sisteminin mövcudluğu;<br>7. Tədris və təlim sahəsində yeni texnologiyalardan istifadə imkanları və distant təhsilə marağın artması;<br>8. Təhsil sistemi ilə istehsalat müəssisələri arasında təcrübə və elmi-praktik bilik mübadiləsinin intensivləşdirilməsi, birgə elmi-texniki işlərin işlənib hazırlanması, universitet tərəfindən göstərilən təhsil xidmətlərinin bazara inteqrasiyasının artması. |
| **Təhdidlər** | 1. Ali təhsil müəssisələrində təhsilin məzmununun tətbiqi müstəqilliyində məhdudiyyətlər (Məsələn, təhsil proqramlarının məzmununun müəyyən edilməsində, Biliyin qiymətləndirilməsi formalarında);<br>2. Biznes dünyasının ehtiyaclarına xidmət edən qısamüddətli beynəlxalq sertifikat proqramlarının mövcudluğu;<br>3. Bir sıra ixtisaslar üzrə məzunlara tələbatın azalması; |

| | |
|---|---|
| | 4. Təhsil xərclərinin artması;<br>5. Məzunların ixtisas üzrə işlə təmin olunmaqda çətinliklərin olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Qəbul planında azalma müşahidə edilən (xüsusilə doktorantura pilləsində) və yeni açılan ixtisaslar üzrə sifariş yerlərinin sayının müəyyən edilməsində monitorinq və təhlillərin aparılmasınının genişləndirilməsi;<br>2. Tələbələrdə özünüqiymətləndirmə bacarığının formalaşdırılması məqsədilə tələbələr arasında özünüqiymətləndirmə sorğuların keçirilməsi;<br>3. Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin, təhsilverənlərin və akademik məsləhətçilərin tələbələr tərəfindən seçim sərbəstliyinin və seçmə fənlər üzrə təlim nəticələrinin əlçatanlığının təmin olunması;<br>4. "Fənn üzrə tədris materiallarının hazırlanmasına dair tövsiyələr və nümünələr" adlı metodik göstərişin təkmilləşdirilməsi və bütün akademik heyət tərəfindən tətbiqi;<br>5. İngilis bölməsi üzrə hazırlıq proqramının olmamasını nəzərə alsaq, azərbaycan və ingilis bölmələrində "Xarici dildə işgüzar və akademik kommunikasiya (ingilis dili)" fənninin tədrisinə ayrılmış 15 kr. (245 s.) – 2 semestr üzrə daha intensiv kursla tədrisi;<br>6. SİP-də karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi üzrə qoyulmuş məqsədlərə nail olmaq üçün Tədbirlər Planının təkmilləşdirilməsi (4.1, 5.2, 6.2. İSO-9001:2015);<br>7. Məzunlar arasında sorğuların aparılmasının sistemləşdirilməsi və nəticələrin təhlili prosesinin təkmilləşdirilməsi (9.1. İSO-9001:2015);<br>8. Elmi-tədqiqat xarakterli konfrans, seminar, görüşlər və s. tədbirlərdə gənc təhsilalan-tədqiqatçıların cəlb olunması sahəsində maarifləndirmə tədbirlərinin gücləndirilməsi;<br>9. Əmək bazarının araşdırılması, maraqlı tərəflərin gözləntilərinin təhlili və prosesin təkmilləşdirilməsi (4.2, 9.1.3. İSO-9001:2015);<br>UNEC keyfiyyət menecmenti sistemi üçün əsas iş proseslərinin ardıcıllığı və qarşılıqlı əlaqənin İSO-9001:2015 4.4.1(b) bəndinin tələblərinə uyğun olaraq təkmilləşdirilməsi (4.4.1. İSO-9001:2015). |

| 4. Elmi tədqiqat | |
|---|---|
| **Güclü tərəflər** | 1. UNEC-in 2030-cu ilə qədər nail olunması nəzərdə tutulan məqsəd və hədəflər barədə professor-müəllim heyətinin məlumatlı olması, bu məqsəd və hədəfləri əsas tutan akademik heyətin tədqiqat potensialının gücləndirilməsi və xüsusilə beynəlxalq indeksli jurnallarda elmi əsərlərin nəşrinin artırılması;<br>2. Ənənəvi olaraq iqtisadiyyat, maliyyə və menecment sahələrində ixtisaslaşmış universitet olsa da, UNEC-in son illərdə tədqiqat profilini şaxələndirərək İT və mühəndislik sahələrində tədris və tədqiqatlara xüsusi önəm verməsi;<br>3. UNEC-də elmi-tədqiqatların keyfiyyətinin artırılması və əmək bazarı ilə əlaqəndirilməsinin təmin olunması məqsədilə 38 tədqiqat mərkəzi və onları əlaqələndirən müvafiq şöbənin mövcudluğu;<br>4. Universitetdə elmi-tədqiqat fəaliyyətinin həyata keçirilməsinə imkan verən iqtisadiyyat, maliyyə və mühəndislik sahələrində ixtisaslaşmış və müvafiq avadanlıqlarla təchiz olunmuş müasir laboratoriyaların mövcudluğu;<br>5. Gənc tədqiqatçıların müxtəlif mexanizmlərlə elmi tədqiqatlara cəlbinin təşviqi;<br>6. Beynəlxalq indeksli elmi məlumat bazalarına giriş və onlarla bağlı məlumatlandırma işlərinin aparılması. |
| **Zəif tərəflər** | 1. UNEC-in elmi-tədqiqat sahəsində orta və uzunmüddətli Strateji Fəaliyyət Planının olmaması;<br>2. Yerli və beynəlxalq fondlar tərəfindən maliyyələşdirilən elmi-tədqiqat qrant layihələrin həcminin UNEC-in ümumi büdcəsində payının az olması;<br>3. “UNEC – 100” İnkişaf Strategiyasında elmi-tədqiqat istiqamətində müəyyən edilən hədəflərin icra olunma potensialının düzgün qiymətləndirilməməsi;<br>4. Laboratoriyaların fəaliyyətinin koordinasiyasında pərakəndəliyin olması;<br>5. Laboratoriyaların pasportlaşdırılmasının aparılmaması. |
| **İmkanlar** | 1. ATM-lərin zəngin kadr potensialı və maddi-texniki resursları vasitəsilə elmi-tədqiqat sahəsində daha çox yerli və xarici qrant layihələrinin əldə olunması; |

| | |
|---|---|
| | 2. ATM-lərin tədqiqat mərkəzləri və laboratoriyaların potensialından istifadə etməklə digər universitet və elmi-tədqiqat qurumları ilə, habelə əmək bazarı iştirakçıları ilə birgə tədqiqatların genişləndirilməsi. |
| **Təhdidlər** | 1. ATM-lərin beynəlxalq nüfuzlu jurnallarda nəşr aktivliyinin zəif olması;<br>2. ATM-lərin beynəlxalq reytinq sistemlərində zəif iştirakı;<br>3. ATM-lərin elmi-tədqiqat fəaliyyətindən gəlirlərinin ümumi gəlirdə payının az olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. UNEC-in elmi-tədqiqat sahəsində ortamüddətli Strateji Fəaliyyət Planının hazırlanması;<br>2. "UNEC – 100" İnkişaf Strategiyasında müəyyən hədəflərə uyğun illik icra göstəricilərinin müəyyən olunmasında icra olunma potensialının nəzərə alınması;<br>3. Təyinatından asılı olmayaraq bütün laboratoriyaların işinin Laboratoriyaların İşinin Təşkili Mərkəzi tərəfindən əlaqələndirilməsi;<br>4. Laboratoriyaların pasportlaşdırılmasının aparılması;<br>5. Laboratoriyalarda əmək bazarı iştirakçılarına xidmət imkanlarının təşviqi;<br>6. İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun vahid beyin mərkəzi kimi inkişaf etdirilməsi;<br>7. Yerli və beynəlxalq fondlar tərəfindən maliyyələşdirilən elmi-tədqiqat qrant layihələrin əldə olunması mexanizmlərin təkmilləşdirilməsi. |

| **5. İdarəetmə sistemi** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Yeni fərqli idarəetmə strukturuna malik UNEC brendinin yaradılmasına yönəlik fəaliyyət;<br>2. UNEC-də idarəetmə orqanlarının əsasnamə, struktur və fəaliyyət planlarının mövcudluğu vəziyyəti;<br>3. UNEC-də informasiya idarəetmə sahəsində tətbiq olunan "EDUMAN", "DocNet Elekton Sənəd Dövriyyəsi", "Bir pəncərə" sisteminin qurulması;<br>4. UNEC professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əmək haqqı sisteminin tətbiqi; |

| | |
|---|---|
| | 5. SİP üzrə strateji fəaliyyətlərin icrasının UNEC-in öz vəsaiti, əldə etdiyi qrantlar və sponsorların maliyyə dəstəyi ilə həyata keçirilməsi;<br>6. ATM-in fəaliyyətinə dair məlumatların UNEC-in internet saytı ilə yanaşı, rəsmi sosial şəbəkə hesablarında paylaşılması. |
| **Zəif tərəflər** | 1. Təşkilati strukturda vəzifə funksiyaları yaxın olan bir neçə struktur bölmənin mövcudluğu;<br>2. EDUMAN platformasının yaradılmasına baxmayaraq tələbələr arasında kommunikasiya zamanı hələ də Whatsapp qruplarından istifadə edilməsi;<br>3. "İnzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əməkhaqqı sisteminin tətbiqi haqqında Qaydalar"a əsasən qiymətləndirilənlərin tabe olduqları rəhbərlər tərəfindən (iki qiymətləndirici) qiymətləndirilməsi;<br>4. Tələbələrin yataqxana ilə təmin olunmasında problemlərin olması;<br>5. Satınalmalar üzrə prosedurların hazırlanması, tətbiq olunması və təkmilləşdirilməsi üçün müvafiq konsaltinq xidmətlərinin lazımi səviyyədə araşdırılmaması;<br>6. Qazanılan qrant layihələri ilə bağlı təhlillərin aparılmaması və risklərin müəyyənləşdirilməməsi;<br>7. Maliyyə əməliyyatları üzrə monitorinq və təhlillərin lazımi səviyyədə olmaması. |
| **İmkanlar** | 1. Texnoloji inkişaf sayəsində ali təhsil sahəsində daha geniş imkanların açılması;<br>2. Tətbiq olunan proqram təminatlarından ("EDUMAN", "DocNet Elekton Sənəd Dövriyyəsi", "Bir pəncərə") daha geniş formada istifadə olunması;<br>3. İnformasiya təminatı ilə bağlı daxili resurs imkanlarından istifadəyə mütəxəssislərin cəlb olunması;<br>4. İnformasiya təhlükəsizliyi sahəsində Beynəlxalq Standartların tələblərinin tətbiq olunması. |
| **Təhdidlər** | 1. Eyni istiqamətdə ixtisas verən ATM-in mövcudluğu və peşəkar kadrlara olan tələbat;<br>2. Strateji məqsəd, hədəf (keyfiyyət məqsədləri) və fəaliyyətlərin müəyyənləşdirilməsi zamanı maliyyə resurslarının planlaşdırılması (6.2, 9.3.3. İSO-9001:2015);<br>3. UNEC-də təlim-tədris prosesinin həyata keçirilməsi və xidmətlərin uyğunluğuna nail olunması üçün zəruri infrastrukturun qorunub saxlanması məqsədilə Tədbirlər Planının tam formalaşdırılmaması (6.2, 7.1.3, 8.5.1. İSO-9001:2015);<br>4. SWOT təhlilində "İnformasiya sistemlərinə qarşı kibercinayətkarlıq cəhdlərinin artması" kimi göstərilən faktla bağlı Tədbirlər Planın lazımı formada tərtib olunmaması (6.2.2. İSO-9001:2015); |

| | |
|---|---|
| | 5. Təqdim olunan 29.03.2016-ci il tarixli (Rev.02) UNEC üzrə Keyfiyyət Siyasətinin İSO-9001:2015 Standartının 5.2. tələblərinə uyğun olmaması (5.2. İSO-9001:2015);<br>6. Daxil olan şikayətlər və təkliflər üzrə müvafiq işlər aparılsa da, görülmüş işlər barədə və daxil olan şikayətlər üzrə ümumi təhlil proseslərinin təkmilləşdirilməsi (9.1, 10.2. İSO-9001:2015). |
| **Komissiyanın tövsiyəsi** | 1. İnzibati heyətin işə qəbul prosesi qaydalarının hazırlanması və tətbiq edilməsi;<br>2. İnzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarının təkmilləşdirilməsi, köməkçi və texniki heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarının hazırlanması;<br>3. Təşkilati strukturun təkmilləşdirilməsi və strukturlar arasında koordinasiya əlaqələrinin yaxşılaşdırılması;<br>4. İnsan resurslarının idarə edilməsi üzrə İnkişaf Strategiyasında nəzərdə tutulan fəaliyyətlərlə bağlı konkret illik fəaliyyət planlarının görüləcək işlər və nəticə indikatorları (ölçüləbilən) əks olunmaqla hazırlanması və həyata keçirilməsi;<br>5. UNEC-də yerli və xarici yeni qrant layihələrinin cəlb olunması, elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi mexanizmi, habelə motivasiya metodlarının təkmilləşdirilməsi;<br>6. UNEC-in imkanlarının təhlil olunması sahəsində görülmüş işlərə dair hesabatların tərtibatı və proqnozlaşdırma göstəriciləri üzrə mexanizmin təkmilləşdirilməsi (6.2, 9.1.3, 9.3.2. İSO-9001:2015);<br>7. SİP üzrə UNEC-in SWOT təhlilin «Qazanılan qrant layihələrinin sayının yetərli olmaması» və digər zəif tərəflər üzrə tədbirlərin planlaşdırılması (4.1, 4.2, 6.2, 9.3.3. İSO-9001:2015);<br>8. Xarici təchizatçılar tərəfindən təmin olunan məhsul və xidmətlərin satınalınmasının İSO-9001:2015 Standartının 8.4.1. “Xarici təchizatçıların proses, məhsul və xidmətlərinə nəzarət mexanizmi” bəndinin tələblərinə uyğun aparılması;<br>9. UNEC-in davamlı təhsil məhsulları və xidmətləri təqdim etmək qabiliyyətinə görə tətbiq olunan İSO-9001:2015 Standartının 4.2. bəndinin tələblərinə uyğun olaraq keyfiyyətli təhsil sisteminə aid olan maraqlı tərəflərlə (təhsilalanlar; digər benefisiarlar və ATM-in işçi heyəti) bağlı qeydlərin və sənədləşdirilmiş məlumatların yaxşılaşdırılması;<br>10. ESG-nin P.1.8 və İSO-9001:2015 Standartının 4.2. bəndinə uyğun olaraq UNEC-in təklif etdiyi proqramlar, gözlənilən təlim nəticələri və xarici tələbələr üçün yaradılmış tədris imkanları ilə bağlı məlumatların ictimaiyyətə təqdim etmə prosesinin təkmilləşdirilməsi (4.2, 8.2.2. İSO-9001:2015). |

| 6. İnfrastruktur | |
|---|---|
| **Güclü tərəflər** | 1. ATM-in bütün tədris binalarının, o cümlədən tədris otaqlarının tədrisin təşkili üçün uyğun olması və müasir avadanlıqlarla təchiz edilməsi;<br>2. İmtahanların keçirilməsi üçün lokal serverə bağlı böyük kompüter otaqlarının mövcudluğu;<br>3. Əksər maddi-texniki bazanın təhsilanlar, təhsilverənlər və inzibati heyət üçün əlçatan olması;<br>4. Quba rayonunun İkinci Nügədi kəndində yerləşən Tədris, İdman və İstirahət Kompleksinin mövcudluğu;<br>5. Bütün tədris binalarında kitabxana və oxu zallarının mövcudluğu;<br>6. Lazımi avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu;<br>7. Distant (məsafədən) təhsil infrastrukturunun mövcudluğu;<br>8. İnkluziv tədris infrastrukturunun və mərkəzinin mövcud olması;<br>9. Bütün tədris binalarında müvafiq normalara cavab verən yeməkxanaların mövcudluğu;<br>10. Bütün tədris binalarında tibb xidmətinin mövcudluğu. |
| **Zəif tərəflər** | 1. Kitabxanalarda fərdi məşğələlər və qrup müzakirələrinin aparılması üçün kabinetlərin olmaması;<br>2. 4 saylı tədris binasının sağlamlıq imkanları məhdud şəxslərə uyğunlaşdırılmaması;<br>3. Laboratoriyalarda istifadə olunmamış avadanlıqların mövcudluğu;<br>4. Bəzi hallarda internet və wi-fi xidmətinin ləngiməsinin distant formada tədris prosesinin təşkili üçün çətinlik yaratması. |
| **İmkanlar** | 1. Açıq istehlak bazarında maddi-texniki, informasiya və kitabxana resurslarının geniş çeşid və seçiminin olması;<br>2. Ölkədə yeni yataqxanaların tikintisi və mövcud yataqxanaların yenidən qurulması yolu ilə tələbələr, doktorantlar, gənc alim və müəllimlərin həyat keyfiyyətinin yaxşılaşdırılması;<br>3. Ali təhsil müəssisələri üçün universitet şəhərcikləri (kampuslar) və müvafiq texnoparkların yaradılmasına dövlət dəstəyinin olması;<br>4. Maddi-texniki baza əsaslı universitet biznes inkubator mərkəzlərinin yaradılması;<br>5. Virtual universitet modeli vasitəsilə maddi-texniki bazaya düşən yükün azaldılması; |

| | |
|---|---|
| | 6. Təbiəttutumlu infrastruktur modelinə keçid. |
| **Təhdidlər** | 1. Texnologiyanın və istifadəçilərin tələblərinin sürətli dəyişməsi səbəbindən maddi-texniki bazanın davamlı yenilənməsi ehtiyacının olması;<br>2. Universitetin bütün maddi-texniki bazasının saxlanması və yenilənməsi üçün xərclərin artırılması zərurəti;<br>3. İnfrastrukturla bağlı normativlərin beynəlxalq səviyyəyə çatdırılmasında çətinliklərin olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Auditoriyalar və laboratoriyalarda “auditoriyalardan istifadə qaydaları” haqqında məlumat lövhələrinin asılması;<br>2. Universitetin auditoriya fondu hesabına fərdi məşğələlər və qrup müzakirələrinin aparılması üçün kabinetlərin təsis edilməsi;<br>3. Strateji hədəf 2.3 bəndinin tələblərinin ödənilməsi üçün laboratoriyaların istifadəsindən gəlirlərin əldə edilməsi məqsədilə istehsalatdan nümayəndələrin dəvət edilməsi və sazişlərin bağlanması;<br>4. Wi-fi xidmətinin təkmilləşdirilməsi üçün maliyyə resurslarının ayrılması;<br>5. Bütün yeməkxanaların girişində Qida Agentliyindən və digər qurumlardan əldə olunan sertifikasiya sənədlərinin asılması. |

| **7. Beynəlmiləlləşmə** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Mübadilə proqramları çərçivəsində əməkdaşlıq edilən xarici ali təhsil müəssisələrinin sayında müsbət dinamikanın olması;<br>2. Beynəlxalq qrant layihələrində (Erasmus+, Jean Monnet və s.) uğurlu iştirak;<br>3. Beynəlxalq tədqiqatçıların magistr tələbələrinə rəhbərliyi və UNEC-də aparılan elmi-tədqiqat fəaliyyətinə cəlb olunması istiqamətində müsbət tendensiyanın olması. |
| **Zəif tərəflər** | 1. UNEC-in beynəlmiləlləşmə siyasətinin təkmil olmaması; |

| | |
|---|---|
| | 2. “UNEC – 100” İnkişaf Strategiyası və fəaliyyət planlarında hədəf ölkələrin və nüfuzlu universitetlərinin seçim meyarları mexanizminin olmaması;<br>3. Beynəlmiləlləşmə istiqamətində ortamüddətli perspektiv üçün strateji fəaliyyət planlarının olmaması;<br>4. UNEC-in fakültələri və inzibati strukturlarının əcnəbi tələbələrə bağlı xarici dil biliyi və xidmət səviyyəsinin qənaətbəxş olmaması;<br>5. Əcnəbi tələbələr üçün yataqxana şəraitinin olmaması. |
| **İmkanlar** | 1. Ali təhsilin bütün pillələrində xarici universitetlərlə ikili diplom proqramları;<br>2. Beynəlxalq mübadilə və qrant layihələrində təcrübə;<br>3. ATM-lərin tanınmasında və seçilməsində beynəlxalq reytinq göstəricilərinə diqqətin artması. |
| **Təhdidlər** | 1. Ölkədə əcnəbi tələbələrin sayının ümumi tələbə sayında az olması və onların ATM-lərə cəlbi istiqamətində təşviq işlərinin zəif olması;<br>2. ATM-lərin tədris proqramlarının beynəlxalq akkreditasiyasının zəif olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. UNEC-in beynəlmiləlləşmə siyasətinin təkmilləşdirilməsi;<br>2. Beynəlmiləlləşmə sahəsində ortamüddətli hədəflərin müəyyən olunduğu müvafiq Strateji Fəaliyyət Planının hazırlanması;<br>3. UNEC üçün hədəf ölkələrin və nüfuzlu universitetlərin seçim meyarlarının hazırlanması;<br>4. Əcnəbi tələbələrə dəstəyin zəruriliyi nəzərə alınaraq, UNEC-in fakültələri və inzibati strukturlarının xarici dil biliklərinin və xidmət potensialının gücləndirilməsi. |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 4; Keyfiyyət təminatı istiqaməti üzrə 5; Təlim və tədris istiqaməti üzrə 10; Elmi tədqiqat istiqaməti üzrə 7; İdarəetmə istiqaməti üzrə 10; İnfrastruktur istiqaməti üzrə 5; Beynəlmiləlləşmə istiqaməti üzrə 4 tövsiyə olmaqla, ümumilikdə 45 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin UNEC tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);

- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, UNEC-in müvafiq istiqamətlər üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə “əsasən uyğundur” hesab edilməsi;

- UNEC-in 2023/2024-cü tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir.